# İNSAN ÖZ HAQLARINI NECƏ QORUMALIDIR

*(SİZİN ÜÇÜN YADDAŞ KİTABI)*

*HAZIRLAYANLAR: ÇİNGİZ QƏNİ, VİDADİ MAHMUDLU, ƏSGƏR ƏHMƏD, NİYAZİ MEHDİ*

Redaktoru: prof. Niyazi Mehdi

- DEMOKRATIYA VƏ İNSAN HAQLARI KOMİTƏSİ
- MODERNLƏŞMƏ MƏRKƏZİ

Bakı - 1998

Kitabın içindəkilər

Ön söz........................................... 2

Bölmə 1. Evinizdə oturduğunuz yerdə ................ 12

Bölmə 2. Siz küçədə olanda..........................29

Bölmə 3. Siz hüquq-mühafizə orqanlarında olanda ... 35

Bölmə 4. Siz iş yerində olanda .....................44

Bölmə 5. Sizin şərəf və ləyaqətinizə qəsd ediləndə....49

Bölmə 6. Qadınların haqqı pozulanda ................. 53

Bölmə 7. Sizin haqlarınızı dövlət idarəetmə orqanları, vəzifəli şəxslər pozanda .................................. 61

Bölmə 8. Başqa haqlar pozulanda........................ 63

İnsan haqları ilə bağlı beynəlxalq sənədlər

İnsan haqlarının Bütün Dünya üzrə Bəyənnaməsi..........83

Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt .................................. 94

İşgəncələrdən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq haqında Konvensiya ............117

Qadınlarla bağlı ayrı-seçkiliyin bütün formalarının yox edilməsi haqqında Konvensiya ...... 126

Əlavələr

İnsan haqlarını və mətbuat azadlığını qorumaq üçün hansı beynəlxalq hökumətdən qıraq qurumlara üz tutmaq olar......................... 148

İnsan haqlarını və mətbuat azadlığını qorumaq üçün hansı hökumətdənqıraq Azərbaycan qurumlarına üz tutmaq olar............ 150

**Ön söz**

Əlinizdəki bu kitab İnsan haqlarının f əlsəfəsindən söz açmaq üçün deyil. Onun çox sadə bir amacı var. Onun amacı öz haqlarını qorumaq istəyən, dara düşmüş adama hansı «addımları» atmaq haqqında instruksiyalar verməkdir.

Müsəlman Şərqinin insanı da başqaları kimi öz yaşamında çoxlu çətin hallarla üzləşir. Ancaq bu məsələdə bir çox mədəniyyətlərin adamlarından bizim bir f ərqimiz var. Biz nə çətin situasiyalarda necə davranmağın göstərişlər sistemini, instruksiyalarını hazırlamağı sevirik, nə də belə instruksiyaları alırıqsa, onların buyurduğu addımlarla «yeriməyə» həvəs göstəririk. Çağdaş dünyanın gərəkləri isə tam sərtliyi ilə qandırır ki, belə olmaz!

**Əlinizdə olan bu kitab ən müxtəlif məsələlərlə bağlı gələcəkdə Yurdumuzda çıxacaq tövsiyyələr sisteminin ilk milli müjdələrindən biridir.**

İndi isə bir az İnsan haqları haqqında. Öncə «haqq» və «hüquq» terminlərinin bəzi fərq çalarlarından danışaq.

Əslində «Hüquq» kəlməsi «Haqq» sözünün cəmidir, ikisi də ərəb sözüdür, «doğru»nu bildirir. Bu mənada «doğru davranmaq» qanuna uyğun davranmaqdır, yəni «doğru» tuş gəlməyi də bildirir, qanunu konkret davranışda **doğrultmağı,** təsdiq etməyi də bildirir. Bir az da aydın olsun deyə, «doğru» sözünün «istiqamət», «tuş olmaq» anlamlarının üstündə dayanaq. Bizlərdə deyirlər: «filan kəndə doğru yollandı». Burada «doğru» tuş getməyi bildirir.
İndi baxaq qanuna uyğun şəkildə davranmaq, qanuna əməl etmək ideyasına. Qanuna uyğun şəkildə davranmaq odur ki, sənin hərəkətlərin qanunun cızdıqlarına tuş olur.

Ərəblərdə hüququn «Haqq» («doğru») kəlməsindən doğması da, ingilislərdə hüququn «right», yəni «düz», «doğru» mənasını verən sözdən olması da bununla bağlıdır.

İndisə baxaq, görək, nəyə görə biz «haqq» və «hüquq» sözlərini ayrı-ayrı anlamlarda işlədirik. Dildə belə şeylər olur. Məsələn, ruslarda «tyurok» və «turok» sözü var, ayrı deyilişdə olsalar da eyni sözlərdir. Ancaq bu deyiliş fərqindən istifadə edib birini bütün türklərlə bağlı, o birini isə Anadolu türkləri ilə bağlı işlədirlər.

Oxşar olaraq biz də belə bir dil f əndinə əl ata bilərik. Nə üçün «İnsan haqqı» deyirik? Çünki Allaha inanan demokratlar üçün bu haqlar elədir ki, onlar kimlərinsə istəyi, iradəsi ilə insana verilmiş sayılmamalıdır. Sayılmalıdır ki, onları insana Allah-təala əzəldən verib, tarix boyu isə ağır siyasi rejimlər onları pozub. İnsan haqqının beləcə Tanrı ilə bağladılmasını o da təbii edir ki, biz Allaha olduğu kimi, yüksək Doğrulara da haqq deyirik. Biz Allaha Haqq deyəndə onun ən yüksək Həqiqət, Gerçək, Doğru olmasını göz qabağına alırıq. «İnsan haqları» deyəndə isə inanclı demokrat bu haqların İlahi Doğrunun qaynağından doğmasını nəzərdə tutur.

Ateist demokratlar isə insana verilmiş haqqı Allahla bağlamasalar da belə hesab edirlər ki, hə min haqlar İnsan ideyası ilə əzəldən bağlıdır, necə ki, dirilik də insan anlayışının ayrılmaz əlamətidir və biz şərti olaraq cəsədə «insan» deyirik. Deməli, belə sayılır ki, «İnsan» ideyasında insanı insan edən əlamətlər «yazılıb», toplanıb. Bu əlamətlər «insan kimdir?» sualı qarşısında verilən həqiqətlər, doğrulardır. İnsan haqları hə min doğrular sırasında durur. Məsələn, «insan kimdir?» sualının cavabında deməlisən: «insan azadlığı olan canlıdır», «insan ədalətə gərəyi olan canlıdır» və s.

İndisə baxaq «hüquq» ideyasına. Hüquq konvensionaldır, yəni şərtidir. Parlamentdə, ya hər hansı başqa razıllaşmalarda, məsələn, bu gün vergi haqqında bir qanun çıxarılır, sabah isə iqtisadi gəlişməyə həmin qanun əngəl olanda başqası çıxarılır. İnsan haqlarını belə pozmaq, dəyiş-düyüşə uğratmaq, şərtləşib bu gün belə, ertəsi elə etmək olmaz. İnsan hüquqları isə zaman içində dəyişir, dövlətlər, cəmiyyətlər insana yeni hüquqlar verib, hansı öncəki hüququ isə alırlar və bu zaman diskussiyalar gedirsə, onun üstündə gedir ki, nə dərəcədə bu yeni hüquq gərəklidir, toplumun yaxşı vəziyyətdə olması üçün lazımlıdır.

«Haqq» və «hüquq» kəlmələrini beləcə ayırandan sonra onların yaxınlaşma məqamlarını da bilməliyik. Sosialist toplumlarında İnsan haqlarının bəziləri hüquqlaşdırılmamışdı, yəni hüququn qanun dilində nə doğruldulmuşdu (təsdiq edilmişdi), nə də bildirilmişdi. Məsələn, söz, düşüncə, informasiya əldə etmək, yaymaq azadlıqlarını hüquq xeyli dar cızığa salmışdı. Eləcə də indiki Şərq rejimlərinin çoxunda İnsan haqları hüquqlaşmayıb, vətəndaşın hüquqları sisteminə keçməyib.
İnsan haqlarının hüquqlaşdırılması demokratiyada da bitgin deyil. Məsələn, Amerikada **insanın bilmək** haqqına çoxdan «düzdür» deyirdilər, ancaq yalnız uzun sürən kampaniyadan sonra 1967-ci ildə Konqres bu haqqı hüquqa çevirdi, yəni **İnformasiya azadlığı haqqında Qanun** çıxardı. Hazırda İnsan haqlarından biri kimi **doğulmaq haqqından** danışılır və bu haqqı hüquqa çevirmək üçün aborta qarşı kampaniya aparılır. Əgər bu kampaniyanın sonucunda abort yasaq edilsə, deməli, doğulmaq haqqı hüquqla doğrulanacaq.

Bütünlükdə demokratik toplumlarda İnsan haqı ilə hüquq arasında bəlli bir gərginlik qalsa da durum hər halda haqların xeyrinədir. Burada nəinki İnsan haqları yüksək dərəcədə hüquqlaşıb, burada İnsan haqları həm də yeni qanunlar yaradılanda onları dəyərləndirmək üçün ölçülərə çevrilib. İnsan haqlarına uyğun gəlməyən, onları pozmaq potensialı daşıyan qanunlar güclü tənqidin hədəfi olur və çox keçmir ki, aradan götürülür.

**Azərbaycanda nə vətəndaşlar, nə də hüquq-mühafizə orqanlarının işçilərinin çoxu çağdaş dünyada İnsan haqlarının hüquq üzərində bu nüfuzunu yaxşı bilmirlər.**

***Halbuki Azərbaycan Respublikasının Konstitusiyasında 151-ci maddədə göstərilir***

***ki, ölkənin qanunvericilik aktları ilə respublikanın tərəfdar çıxdığı beynəlxalq hüquq sənədləri bir-birinə zidd gələndə ikinciyə üstünlük verilir.***

Azərbaycan dövləti, onun prezidentləri, dövlətimizi təmsil edən xüsusi səlahiyyətli şəxslər bizim bu kitabçada İnsan haqları, hüquqları ilə bağlı söykəndiyimiz sənədlərin hamısına qol çəkiblər, deməli, **öz şərəfləri, nüfuzları ilə onlara Azərbaycanda əməl olunacağına söz veriblər.** Bunu ölkə Prezidentinin vəzifə borcları ilə bağlı Azərbaycanın Ana Yasasında yazılanlardan açıq görmək olar. Orada deyilir:

*Madd ə 8. Az ərbaycan dövlətinin başçısı*

*III. Az ərbaycan Respublikasının Prezidenti Az ərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Az ərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.*

*Madd ə 12. Dövlətin ali məqsədi*

*I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir.*
*II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.*
Bütün bunlara görə də hüquq-mühafizə orqanlarının nümayəndələri İnsan haqları, hüquqları ilə bağlı beynəlxalq müqavilələri «uzaq dünyanın» kağızı sayıb əllərini yellədəndə haqqıhaqqı pozulmuş Azərbaycan vətəndaşı hiddətlə bir tezisi ona deməyi bacarmalıdır: Siz bu hərəkətinizlə dövlətin, dövlət başçısının öz qolu, öz şərəfi ilə verdiyi sözü pozursunuz, deməli, onların şərəfinə ləkə vurursunuz. Siz qanunu pozursunuz, deməli, cinayət edirsiniz. Cinayət etmiş adamın isə kiminsə cinayətkar olub-olmaması məsələsi ilə məşğul olmağa ixtiyarı yoxdur.

İnsan haqları ilə bağlı başqa bir özəlliyi də biz yaxşıca yadda saxlamalıyıq. Hakimiyyətdə olanlar əllərindəki imkanlardan «başlarını itirib» (Azərbaycan üçün xarakterik hal) korlananda, özbaşınalıq edəndə demokratiyanın bir prinsipi odur ki, insanın azadlığını qorumaq, fərdə bəlli bir muxtarlıq, asılısızlıq vermək üçün dayaqlar düzmək gərəkdir. Bu, anarxiya deyil. Demokratiyanın həmin prinsipinin öz hikməti var. Vətəndaşlarda bəlli bir asılıqsızlıq, muxtarlıq olanda onlar dövlətin vintciyi olmurlar, onlar iradə göstərib seçkilərdə «yuxarıları» dəyişdirirlər, xoşlamadıqları prezidentləri, hökumət başçılarını, millət vəkillərini başqaları ilə əvəz edirlər. «Yuxarıda olanlar» isə vətəndaşların bu iradəsini bildikləri üçün də çalışırlar, onların xoşuna gəlsinlər ki, yenə seçilsinlər.

Demokratiyada İnsan haqları vətəndaşı hakimiyyətdən, hakimiyyət adamlarının, orqanlarının özbaşınalığından qoruyan dayaqlardan ən başlıcasıdır (maraqlıdır ki, ABŞ-də və bəzi başqa ölkələrdə Ana Yasa, yəni Konstitutsiya məhz onun üçün

yazılmışdı ki, dövlətin imkanlarına, iradəsinə cızıq qoysun, onun insan üzərində tam xaqanlıq etməsinə yol verməsin)

Bu mənada əlinizdə olan kitab hakimiyyət adamları özbaşınalıq edəndə qanunla Sizin dadınıza çatmaq üçündür.

Onu da deyək ki, bu kitabın hazırlanması bəlli dönəmlərdən keçib. Azərbaycan Demokratiya və İnsan haqları Komitəsi öncə «dəyirmi masa», seminar keçirmişdi ki, bəzi məsələləri aydınlaşdırsın. Məsələn, seminarda belə bir sual verilmişdi:

**İnsan haqlarının pozulması ilə, sadəcə, qanun pozuntusunun arasında hansı f ərqlər var?**

Aydın oldu ki, bu fərqi heç də hamı bilmir. Məsələn, qonşunuz Sizə təhqiramiz sözlər deyir, bu haqq pozuntusudur, yoxsa qonşunun qanunu pozmasıdır? Diskussiyalardan aydın oldu ki, qonşunun ədəbiz hərəkəti Sizin haqqınızın pozulması deyil, ona görə də İnsan Haqlarını qorumaqla məşğul olan qurumların bu situasiyada işə qarışmağa xüsusi bir əsası yoxdur. Həmin problem polisin, prokurorluğun, məhkəmənin kompetensiyasına aid bir məsələdir. Ancaq Sizi dövlət başçısı, polis, nazirliyin işçisi təhqir edirsə, bu, artıq, haqqınızın pozulmasıdır, ona görə də İnsan haqlarının qorunması ilə məşğul olan qurumların işə qarışması üçün əsas yaranır.

Başqa cür də ola bilər. Qonşunuz Sizi təhqir edir, polis, məhkəmə isə şikayətinizə məhəl qoymur. Bax, bu, artıq, Sizin haqlarınızın pozulması olur. Çünki İnsan haqları Dövlət orqanları, hakimiyyət nümayəndələri ilə vətəndaş arasındakı haqq-hesablar müstəvisində öz funksiyasını qazanır. İnsan haqları Dövlətin həddi aşmasının qarşısını alaraq insanı qorumaq üçün irəli çıxır, ona görə də bu haqları hakimiyyətlə bağlı tərəflər pazanda dünyaya səs düşür ki, həmin ölkədə haqpozuntusu var.

Əlinizdə olan kitabın bəzi oxucuları ondan cinayət etmiş adamların da istifadə edə biləcəyini düşünüb narazı qala bilərlər. Gizlətmirik, bu, bizi də düşündürür. Ancaq hüquqda suçsuzluq (təqsirsizlik) prezumpsiyası var («prezumpsiya» latınca gümanlamadır) Suçsuzluq prezumpsiyasına görə məhkə mə qərar çıxarmayanacan insanı cinayətkar saymaq olmaz, insan özünün cinayətkar olmamasını sübut etməyə məcbur edilməməlidir və ona qarşı boşa çıxmış hər hansı suçlama onun xeyrinə sayılmalıdır və s. Onun üçün də bircə şübhə etmək əsasında insanı cani saymaq əsl hüquq düşüncəsindən, qanundan qıraq bir şeydir, - bu birincisi. İkincisi isə odur ki, hətta cinayət edənin də İnsan haqlarını tapdalamaq olmaz. Cinayəti araşdıranlardan ona görə yüksək bacarıq tələb olunur ki, onlar məhz İnsan haqlarını pozmadan cinayət etmiş adamın cani olmasını sübut etməlidirlər, onu tutub-dustaq etməyi, sonda cəzasına çatdırmağı bacarmalıdırlar.

Sözsüz, hər hansı hakimiyyət, eləcə də hüquq mühafizə orqanları «Okkam ülgücü»

prinsipi ilə işlə məyə can atır. Vilyam Okkam XIV yüzildə yaşamış ünlü ingilis sxolast filosofudur. O, f əlsəfə yapmaq işində qənaət prinsipi ilə işləməyi önə çəkmişdi. Həmin prinsip latınca belə formulə edilirdi: «non sunt multiplicanda entia praeter necessitatem». Yəni gərəyi olmadan heç bir mahiyyəti çoxlulaşdırma, mürəkkəb hissələrdə göstərmə!

Okkamın bu prinispi yersiz sayılan mürəkkəbliyi kəsib götürdüyü üçün də sonralar ona «Okkam ülgücü» deyildi.

İndi yenidən bizim qoyduğumuz situasiyaya qayıtsaq, deyə bilərik ki, çox vaxt bürokratlaşmağa, çoxpilləli olmağa meyilli olan hakimiyyət, hüquq-mühafizə orqanları bu meyillərində nədənsə nadir hallarda «Okkm ülgücünü» yada salırlar, yəni ixtisar, sadələşdirmək üzərində az düşünürlər. Ancaq onlar öz bürokratiyasından qıraqda duran, qıraqdan duraraq onların hər hansı bir qərarı çıxarmasına əngəl olan, hər hansı qərarı yerinə yetirməsi qarşısına çətinliklər çıxaran gücləri «Okkam ülgücü» ilə kəsib atmağa, ya da hədələməyə çalışırlar («qoymurlar işləməyə», «bizi gecikdirirlər» və s.) Məsələn, hakimiyyət istəyir ki, Baş nazirin aparatında hazırlanmış qanun proyekti Milli Məclisdə «uzun- uzadı» müzakirələr olmadan, «ə mmalar» qoyulmadan keçsin. Prezident aparatı Parlamentə qanunların layihələrini göndərəndə anlaya bilmir ki, niyə Milli Məclis formal borcunu (səs verib keçirməni) yerinə yetirməkdən daha böyük şeylərə iddia edir. Parlamentin özü də onun çıxardığı qanunlara, onunun işlərinə mass-media, həmkarlar birliyi, başqa hökumətdən qıraq qurumlar «yox» deyəndə əsəbləşir, «Okkam ülgücünün» həsrətini çəkir. Eləcə də hüquq- mühafizə orqanlarının işçiləri başa düşmürlər ki, gözündən cinayətkarlıq yağan bu «filankəsin» nazı ilə niyə oynamalıdırlar. Onlar da istəyirlər, «Okkam ülgücünə» əl atsınlar. Bu istək çox qorxuludur, çünki hüquqda «Okkam ülgücü» cinayətkara qarşı boş buraxılsa, çox keçməz ki, xeyli suçsuz adamın da başı bu ülgücdən keçər.

Vəkillər caniləri müdafiə edəndə, əslində, İnsan haqlarından hüquqda «Okkam ülgücünə» qarşı sədlər qoyurlar.

Sayğılı oxucu, Sizə təklif etdiyimiz bu kitaba biz İnsan haqları ilə bağlı bəzi beynəlxalq sənədlərin tərcümələrini də daxil etmişik. Bu tərcümələr dilinə, deyim tərzinə görə başqalarından fərqlənir. Belə bir tərcümə üsuluna bizi yönəldən «Qanun» dərgisinin baş redaktoru Şahbaz Xuduoğlunun bir fikridir. Həmin fikir isə belədir: Bizim hüquqda Azərbaycan dili yoxdur.

Doğrudan da, Azərbaycan hüququnun dilində nəyi görürsən?! Görürsən ki, hərəkəti bildirən «etmək», «almaq» kimi bir iki sözü çıxsan, mətnlər ərəb-fars sözləri ilə maksimum yüklənib. Hüquq ki, ayrı-seçkiliyə qarşıdır, bizdə isə çox asanlıqla Azərbaycan türkcəsinin çox sözlərini ayrı-seçkiliyə düçar edib və edir.

Mədəniyyətimizdə çoxdandır, sanki belə bir vəziyyət yaranıb: öz sözlərimiz hüquqçular üçün cırıq, nimdaş paltarlara çevrilib, onları hüququn «yüksək üslubuna»

layiq saymırlar, ancaq ərəb-fars sözlərinə gələndə hüquqçularımız onlarda nəsə bir yüksək düşüncə mədəniyyəti duyurlar. ƏMəsələn, nə üçünsə belə hesab edirlər ki, «lazımi tədbirləri həyata keçirəcək» təmiz türkcədə olan «gərəkli ölçülərə əl atacaq»dan hüququn dilinə daha çox yaraşır, «bəyənnamə» «bildiri»dən daha yaxşıdır, «məcbur etmək» «zorunlamaq»dan daha uğurludur. Çoxuna elə gəlir ki, hüquqa «boyun olmaq», «üstünə götürmək», «yerinə yetirmək», «umacaqsız olaraq» sözləri yaraşmır, bunların qarşılığı olan ərəb- fars tərkibli deyimlər isə yaraşır.

Bu dediklərimiz məsələnin söz tərəfidir. Azərbaycan türkcəsinə çevirən zaman cümlə quruluşları ilə bağlı da ciddi problemlər var. Bizim kitabda verilən tərcümələrdə çoxvariantlı sintaksis daha çox işlədilir və bu zaman bir məqsəd güdülür: anlaqlı etmək məqsədi.

Sonda deməliyik ki, bu çevrilər (tərcümələr), əslində, Azərbaycan hüququ üçün gərəkli yolun ilk addımlarıdır. İnsan haqları ilə bağlı beynəlxalq sənədlərin çox tərcümələri olmalıdır. Qoy həmin tərcümələrin hüquq gücü olmasın, daha çox maarifləndirmə gücü olsun, eybi yox! Hər halda əvəzində hüquq dilimiz gəlişər, yavaş-yavaş da olsa, çağdaş hüququmuzun bədheybət dilindən qurtularıq. Bu tərcümələrlə biz istəyirik hüquqçuları ona öyrəşdirə k ki, öz türk sözlərimiz də sənədlərin dilində tez-tez yer ala bilər.

Belə sual da verilə bilər: axı, hüququn qəbul etdiyi üslub nə qədər xoşumuza gəlməsə də bu dil, artıq, oturuşub, müəyyən dəqiqlik qazanıb. Yəni bilinir ki, filan sözu filan mənada başa düşmək lazımdır. Hüquqda isə dəqiqlik çox əhəmiyyətlidir. Bəs təklif edilən üslub bu dəqiqliyi necə əldə edə bilər?

Bu suala belə cavab vermək olar: deyin görək, «ittiham etmək»lə «suçlamaq», «həbs etmək»lə «dustaq etmək» arasında hansı f ərq var ki, birini o birindən dəqiq edir?!

Ya da götürək iki cümləni:

A) filankəsin hüquqlarını təmin edəcək.
B) elə edəcək ki, filankəsin hüquqları olsun.

Məna baxımından ərəb sözu olan «təmin» kəlməsini işlətdiyimiz cümlədə dəqiqlik baxımından hansı üstünlük var?!

Bax, bütün bunları düşünərək biz kitabımızda hüququn dili ilə bağlı kiçik islahat yolunu tutmuşuq.

Niyazi Mehdi

**BÖLMƏ 1.**
**Evinizdə oturduğunuz yerdə....**

Evinizdə oturduğunuz yerdə kimlər Sizin haqqınızı poza bilər və belə olanda özünüzü qorumaq üçün hansı addımları atmalısınız? Bunları bilməyiniz çox gərəklidir.

Baxaq, kimlər poza bilər:

a) polislər,
b) Milli iTəhlükəsizlik Orqanlarının işçiləri, v) prokurorluq orqanlarının işçiləri,

q) məhkəmə qərarlarını yerinə yetirən orqanın nümayəndələri (ədliyyə polisi) Hansı

vəziyyətlərdə poza bilərlər:

**SİTUASİYA 1**

***Onlar qapınızı döyürlər***

**Birinci məsləhət:** Əgər qapınızı döyən yuxarıda olan orqanlardan birindən gəldiyini deyirsə,

1) Onu evə buraxmağa tələsməyin, bir az gözləsə, heç nə olmaz.

2) Qabaqca kağız-qələm götürün.

3) Yetgin yaşlı ailə üzvlərini çağırıb toplayın, tapşırın ki, hazır olsunlar və telefonla qonşulara zəng vurub onları da çağırsınlar.

4) Özünüz qapının ağzına çıxın və soruşun: kimsiniz, haradan gəlmisiniz, xidmət vəsiqənizi göstərin.

5) Özlərini necə təqdim edirlərsə, xidmət vəsiqələrində vəzifəsi, adı-soyadı necə yazılıbsa, o cür də kağıza köçürün, evdən kimisə çağırıb kağızı ona verin. Ya da bütün bunları etməyə imkan olmasa, həmin məlumatları yadda saxlayın.

6) Sonra qapınıza gəlmək məqsədini qanuni edən sənədi tələb edin.

7) Əgər bu tələblərinizin cavabında o, şifahi sözlərlə kifayətlənirsə, nə belə sənədi, nə xidmət vəsiqəsini göstərmək istəyirsə, öz paqonlarını, geyim formasını sənədi əvəz edən nişanlar sayırsa, bütün bunları Sizi tutub aparmaq üçün və ya evinizə girib yoxlama aparmaq və s. üçün güclü arqument sayırsa.

8) Onda bilin!
Bu gələn hansı dövlət orqanınını təmsil etsə də özü həm milli qanunu pozur, həm də «İnsan Haqlarının Bütün Dünya üzrə Bəyannaməsi»nin 12-ci maddəsinə qarşı çıxır. Həmin maddədə deyilir:

*Madd ə 12*

*Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla qarışmaq olmaz, heç kimin yaşayış yerinin toxunulmazlığına, yazışma sirlərinə, şərəfinə, nüfuzuna özbaşınalıqla qəsd etmək olmaz.*

Bilin ki, bu gələn heç bir rəsmi sənəd təqdim etmədən evinizə girmək istəyirsə, o, Sizin ailə həyatınıza, yaşayış yerinizin toxunulmazlığına qəsd edir. Rəsmi olaraq sənədləşdirilmiş əsası göstərmədən evə girmək hansı orqandan isə Sizə gələn adamın qanun əsasında yox, özbaşınalıqla davranmasıdır.

Bütün bu deyilənləri «Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt»da doğrulayır:

*Maddə 17*

1. *Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla, ya da qanunsuz olaraq qarışmaq olmaz, heç kimin yaşayış yerinin toxunulmazlığına, yazışma sirlərinə, şərəfinə, nüfuzuna özbaşınalıqla qəsd etmək olmaz.*
2. *Hər kəsin hüququ var ki, qanun onu bu cür işə qarışmalardan, bu cur qəsdlərdən qorusun.*

Qapınıza gələn rəsmi sənədləşdirilmiş əsası göstərmədən Sizi aparmağa, evinizə girməyə cəhd edəndə bu hərəktin özbaşına, qanunsuz hərəkət olmasını ucadan, hamının eşidəcəyi şəkildə ona deməlisiniz. Deməlisiniz ki, sənədləri göstərmirsə, nədən inanmalısınız ki, o, forma geyinmiş soyğunçu, oğru və s. deyil?!

Fürsət tapıb elə edin ki, evinizdən, qonşularınızdan kimsə, gələnlər haqqında yaxınlıqdakı polis bölməsinə telefonla (ya da başqa yolla) xəbər çatdırın.

Bilin!!!

Azərbaycan Respublikasının Konstitutsiyasına görə:

*Madd ə 32. Şəxsi toxunulmazlıq hüququ*

*I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.*
*II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır.*
*III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına,*

*saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.*
*IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.*

*Maddə 33. Mənzil toxunulmazlığı hüququ*

*I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.*
*II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.*

**SİTUASİYA 2**

***Onlar Sizi aparmaq üçün evinizə giriblər***

Məhkəmə, prokurorluq, təhqiqat, istintaq orqanları çağırış vərəqəsi ilə Sizi ya şahid, ya zərər çəkmiş, ya şübhəli şəxs, ya da müttəhim sif ətində dəvət etmişdir. Ancaq dəvət qanunda nəzərdə tutulmuş qaydada Sizə çatdırılmadığı üçün, ya də dəvətə məhəl qoymadığınız üçün hə min orqanlara getməmisiniz. Bundan sonra onlar haqlı olaraq dindirməyə aparılmağınız haqqında qərar çıxarıblar. Polis qararı yerinə yetirmək üçün evinizə gəlib (polis axtarış, götürmə, dustaq etmək və s. qərarlarını yerinə yetirmək üçün də evinizə gələ bilər) Bu zaman polis zorakılıq, qabalıq edərsə, təhqirlərə yol verərsə...

1) O zaman ya ailə üzvlərinə, ya qonşulara deyin ki, mənə qarşı işlədilən zor hərəkətlərini, söyülən söyüşləri bir-bir kağıza yazın, ya da yadda saxlayın.

2) İmkan varsa, şahidlərdən biri həməncə yaxınlıqdakı polis bölməsinə, ora olmasa, ərazinin prokurorluq orqanına telefonla və ya adam göndərməklə xəbər versin, ya da bunu özünüz edin.

BİLİN!!!

«İnsan Haqlarının Bütün Dünya üzrə Bəyannaməsi»nin 5-ci maddəsinə görə insanın şəxsiyyətini alçaltmağa heç kimin ixtiyarı yoxdur:

*Madd ə 5*
*Heç kimə işgəncə vermək olmaz, heç kimi amansız, insana yaraşmaz və ya onun heysiyyatını alçaldan davranışın, cəzanın hədəfi etmək olmaz.*

Eyni prinsipi «Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt»da

doğrulayır:

*Madd ə 7*

*Heç kimə işgəncə vermək olmaz. Amansız, insana yaraşmaz və ləyaqəti alçaldan şəkildə heç kimlə davranmaq olmaz, bu şəkildə heç kimi cəzalandırmaq olmaz.*

Əgər Sizi zorla, söyüşlərlə aparsalar, o zaman

3) Aparıldığınız orqana şikayətlə (yazılı və ya şifahi formada) müraciət edin. Məhkəmədə şikayətiniz iclas protokoluna alınmalıdır. Polisdə, prokurorluqda isə şifahi şikayətiniz haqqında protokol yazılmalıdır, sonra da həmin protokol, ya da yazılı şikayətiniz uyğun qeydiyyat jurnalına salınmalıdır.

Əgər Sizdə şübhə yaransa ki, şikayətinizə məhəl qoymurlar, daha yuxarı prokurorluq, polis orqanlarından birinə şikayət ərizəsi verin.

4) Ailəniz, şahid olmuş qonşularınız nə etməlidir? Onlar ya bir nəfərin adından, ya daha çox imza ilə prokurorluq və ya polis orqanına şikayət verməlidirlər. Yaxşı olar ki, onlar akt da yazsınlar. Şikayətdə, aktda Sizə edilən zorakılığın konkret təsviri, söyüş və təhqirlərin ifadələri bir-bir göstərilməlidir.

5) Şikayətin üzünü çıxarmaq gərək.

6) Şikayətin konkret hansı orqanın hansı vəzifəli şəxsinə verilməsini yazıb saxlamaq gərək. Yaxşı olar ki, şikayətin Sizdə qalan nüsxəsində o qol çəksin, ya da kağız versin ki, şikayəti Sizdən alıb.

7) Burada da şikayət ərizəsinə məhəl qoymasalar, yuxarı vəzifəli şəxslərə məlumat verin, şikayət edin.

Bilin!!!

Şikayət etmək Sizin vətəndaş hüququnuzdur, şikayətinizə məhəl qoymayan orqan bu hüququnuzu doğrulayan «Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt» kimi çox ciddi beynəlxalq sənədi pozur. Hə min sənəddə isə deyilir:

*Madd ə 8*
*Hər bir insanın haqqı var ki, Ana Yasanın, ya da qanunun ona verdiyi başlıca haqları pozularsa, uyğun milli məhkəmə onun hüquqlarını bərpa etsin.*

Bu hüquq Azərbaycan Respublikasının Konstitutsiyasında belə tanınır:

*Madd ə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ*

**II** *Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.*
*IIIHeç kəsə işkəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz.*
**IV**

*Madd ə 60. Hüquq və azadlıqların məhkəmə təminatı*

*I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.*

**Örnək:** Tovuz rayonunda dövlətə qarşı cinayətdə suçlanan E.Ə-nin evində axtarış olanda polis işçiləri onun bacısına qarşı təhqiramiz hərəkətlər edib döyürlər. Bu faktlar haqqında düzgün sənədləşdirilmiş şəkildə prokurorluğa şikayət verilir. Sonda həmin qadının qardaşını məhkəmə cinayətkar sayıb ona cəza kəssə də Daxili İşlər Naziri qarşısında məsələ qaldırır ki, zorakılıq etmiş polis işçiləri ilə bağlı ölçü götürsün.
*(Vəkil Rəsul Yusifbəylinin praktikasından)*

Azərbaycan Respublikasının cari qanunvericiliyi İnsan haqlarının tələblərinə cavab vermir. Ona görə də bütün instansiyalar bu şikayətlərə məhəl qoymasalar, eləcə də Sizin şikayətinizə məhkəmə də baxmasa, onda bir çıxış yolu qalır. Vəziyyət haqqında kütləvi informasiya vasitələrinə, İnsan haqlarını qoruyan qurumlara müraciətlər yayın. Bütün bunlar yuxarıdakı orqanların şikayətə baxmasına və lazımi qərar çıxarmasına təsir göstərə bilər.

## SİTUASİYA 3

***Onlar Sizi tutmaq, ya da dustaq etmək üçün evinizə girirlər***

Məhkəmə, prokurorluq, təhqiqat, istintaq orqanları Sizi cinayət törətməkdə şübhəli şəxs, ya da cinayəti törətmiş şəxs saydıqları üçün tutulmanız və ya həbsiniz barədə qərar verib:

1) Siz onlardan tutulub aparılmağınız haqqında təhqiqat, ya da istintaq orqanının tərtib etdiyi protokolu istəyin ki, orada nə yazıldığı ilə tanış olasınız. Siz iradlarınızı protokola yaza bilərsiniz. Əgər Sizi həbs etmək üçün gəliblərsə, onda məhkəmənin qərardadını (göstərişini) və ya prokurorun sanksiyasını tələb edin.
Hər iki sənəddə möhür olmalıdır.

2) Əgər gələnlər protokol yazmırsa, onlarda qərardad, sanksiya yoxdursa, Sizin tam hüququnuz var ki, onlarla getməyəsiniz. Zorla, təhqir edərək aparsalar, Situasiya 2-nin 1-7-ci bəndlərinə uyğun hərəktələr edin.

3) Əgər həmin sənədlər varsa, o zaman göstərişə əməl etməlisinz.

4) Əgər tutulmanızı, həbsinizi düz saymırsınızsa, təhqiqat-istintaq orqanı vasitəsi ilə bu orqanlara nəzarət edən prokurora şikayət göndərin (ya da olarsa, şikayəti birbaşa özünə verin) Prokurorun hərəkətindən isə yuxarı prokurora şikayət vermək olar.

5) Şikayətinizi prokurora çatdırmaya da bilərlər. Ona görə də evdən aparılanda ya ailə üzvünüzə, ya qonşunuza tapşırın ki, onlar da tutulmağınızın qanunsuzluğu haqqında həmin prokurora şikayət versinlər.

BİLİN!!!

Tutulanda təhqiqat (araşdırma) və ya istintaq orqanı 24 saat ərzində tutulmanız barəsində prokurora yazılı məlumat verməlidir. Prokuror isə 48 saat ərzində ya Sizi buraxmalı, ya da həbsiniz haqqında sanksiya çıxarmalıdır. Əgər Sizi şübhəli şəxs kimi həbs ediblərsə, 10 gün saxlaya bilərlər. daha çox saxlamaq üçün prokurorun yeni sanksiyası olmalıdır.

BİLİN!!!

«İnsan Haqlarının Bütün Dünya üzrə Bəyannaməsi»nə görə insanı əsassız tutmaq, həbs etmək insan haqlarını pozmaqdır:

*Madd ə 9*

*Heç kimi özbaşına dustaq etmək, tutub saxlamaq, qovmaq olmaz.*

«Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt» isə bu halla bağlı daha konkret buyuruqlar verir:

*Maddə 9*

*1. Hər kəsin azadlığa, şəxsi toxunulmazlığa haqqı var. Özbaşınalıqla heç kimi dustaq etmək, ya da qarovul altında saxlamaq olmaz. Heç kimin əlindən azadlığı alınmamalıdır. Azadlıq yalnız qanunun qoyduğu əsaslarla və prosedura uyğun olan bir yolla alına bilər.*

*2. Dustaq edilən adama tutulan zaman nə səbəbdən dustaq edilməsi xəbər verilir və ona qarşı yürüdül ən hər hansı suçlama tezliklə ona çatdırılır.*

*3. Cinayət məcəlləsi ilə dustaq edilən, ya da tutulub saxlanılan hər kəs tez bir qaydada hakimin və ya qanunla məhkəmə hakimiyyətini gerçəkləşdirməyə hüququ çatan başqa vəzifəli şəxsin yanına gətirilir, hər kəsin hüququ var ki, onu ağılabatan vaxt ərzində məhkəmə araşdırmasından keçirsinlər, ya da azadlığa buraxsınlar.*

*Məhkəmənigözləyən adamları qarovul altında saxlamaq ümumi qayda olmamalıdır, azadlığa buraxılmağı isə asılı etmək olar məhkəməyə, məhkəmə araşdırmasına, bu araşıdrmanın istənilən dönəminə çağırılanda, eləcə də hökmün yerin ə yetirilm əsi üçün çağırılanda gəlmək haqqında güvəniş (qarant) verməkdən.*

*4. Dustaq edilməklə, ya da qarovul altında saxlanmaqla azadlığı əlindən alınmış hər kəsin hüququ var ki, işi məhkəmədə araşdırılsın. Araşdırılsın ki, məhkəmə ertələmədən onun tutulmasının qanuniliyi haqında qərar çıxara bilsin, saxlanma qanunsuz olanda isə onun azad dilməsi haqqında göstəriş versin.*

*5. Qanunsuz dustaq edilmənin, ya da qarovul altında saxlanmanın qurbanı olan hər kəsin iddia gücündə olan əvəz almaq hüququ var.*

Azərbaycan Respublikasının Konstitutsiyasında isə deyilir:

*Maddə 28.Azadlıq hüququ*

*I. Hər kəsin azadlıq hüququ vardır.*
*II. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.*

## SİTUASİYA 4

***Onlar axtarış aparmaq üçün evinizə girirlər***

Müstəntiq Sizi cinayət tərətməkdə şübhəli şəxs, ya da cinayət törətmiş şəxs saydığı üçün evinizdə axtarış aparmaq haqqında qərar çıxarıb (müstəntiq evinizdə cinayət yolu ilə əldə edilmiş əmlak olduğunu güman edəndə də axtarış haqqında qərar çıxara bilər):
1) Situasiya 1-in bütün bəndlərinə əməl edin. Əgər polisin, müstəntiqin göstərdiyi sənəddə "axtarış" sözü yazılmayıbsa, bilin ki, onun axtarış aparmağa ixtiyarı yoxdur.

2) Axtarış edənlərin hər birinin yanında çalışın qonşulardan ailə üzvlərindən çox adam gəzsin. Belə olanda onun Sizi cinayətkar kimi göstərəcək şeyləri evinizə atması çətinləşəcək (hər halda dörd yandan baxan gözlər qarşısında şərləmək çətindir) Bilin ki, axtarışa gələnlər evinizə narkotik maddə, patron, silah, hər hansı bir cinayətlə bağlı dəlil ata bilər. Xüsusi ilə fikir verin ki, içəri girəndə dəhlizdə asılmış paltarların ciblərinə, başqa yerlərə «bir şey»atmasınlar.

**Örnək:** 1996-cı ildə Şüvəlan qəsəbəsində Bakı şəhər Baş Polis İdarəsinin müstəntiqinin qərarı ilə müttəhim Y.X-nin evində axtarış aparılmalıydı. Polis işçiləri həyətin qapısına gələndə suçlanan adamın ailəsi qonşularla birlikdə onların qarşısını kəsib içəri buraxmırlar. Tələb edirlər, inandırsınlar ki, evə bir şey atmayacaqlar. Elə

bir vəziyyət yaranır ki, polis işçiləri iblərindəki şeyləri çıxarmağa məcbur olurlar və bu zaman əməliyyata başçılıq edəndən qumbara çıxır. Beləliklə, evə qumbara qoyulması gümanının qarşısı alınır. Sonralar isə istintaq işində bu faktın ortaya çıxması müttəhimin işinin araşdırılmasında ona müəyyən fayda vermiş olur.

*(Vəkil Rəsul Yusifbəylinin praktikasından)*

3) Guya araşdırmaq, ya da işə əlavə etmək üçün nəyisə götürmək istəsələr, tələb edin ki, hamının yanında həmin şeyə hər tərəfli baxaraq onun xüsusi, f ərqləndirici əlamətlərini də göstrəməklə protokol tutsunlar. Protokolu iki nüsxə yazmalıdırlar ki, birini Siz götürə biləsiniz. **Nüsxənin birini Sizə verməyə borcludurlar!** Bir də tələb edin ki, götürdükləri şeyi qablaşdırıb möhürləsinlər.

Protokola axtarışda iştirak edənlərin hamısı qol çəkməlidir.

4) Sizin verdiyiniz tələblərə məhəl qoymasalar, onda onların axtarış protokolunda nəyə etiraz edirsinizsə, onu da mütləq yazın. Axatrış protokolu ilə bağlı BİLİN!!!

Gördükləri işi protokolda "Axtarış" adında bildirməlidirlər. Əgər "Axtarış" yerinə "Baxış", ya da «Müayinə» yazıblarsa, deməli, axtarış sanksiyasız olub. O zaman bu haqda prokurora şikayət verin (son zamanlar belə qanunsuz yollara çox əl atırlar)

Sonraya saxlanılmaz hallarda müstəntiq prokurorun sanksiyası olmadan da axtarış aparmaq üçün qərar çıxara bilər. Ancaq belə etsə, gərək ən çoxu 24 saat içində prokuroru məlumatlandırsın.

5) Əgər protokolu Sizə verməsələr, nəsnələrinizi (əşyalarınızı) sındırsalar, qırıb dağıtsalar, onda axtarışı aparanlara nəzarət edən prokurora şikayət göndərin. Prokurorun hərəkətindən isə yuxarı prokurora şikayət vermək olar.
**Örnək:** 1995-ci ilin mart ayında bir qrup polis heç bir qanuni əsası olmadan Bakı şəhərində vətəndaş B.C-nın evində və qonşusunda axtarış aparıb, əmlak götürmək istəyirlər. Ev yiyəsi onlardan həm axtarışa əsas verən sənədi tələb edir, həm də tələb edir ki, protokol yazsınlar. Bu tələblərin təsiri altında polislər ehtiyat edərək əmlakı geri qaytarırlar, evdən çıxıb gedirlər. B.C.-nin şikayəti sonralar məhkəmədə həmin polislərə cəza kəsilməsinə gətirib çıxarır.

*(Vəkil Vidadi Mahmudovun praktikasından)*

6) Əgər Sizi tutaraq və ya dustaq edərək özləri ilə aparsalar, prokurora şikayəti başqası da edə bilər. Ona görə də evdən aparılanda ya ailə üzvünüzə, ya qonşunuza tapşırın ki, onlar axtarış zamanı yol verilmiş qanunsuzluqlar haqqında həmin prokurora şikayət versinlər. Siz özünüz də dustaq olduğunuz yerdə kağız-qələm istəyib şikayət yazaraq oranın müdiriyyəti vasitəsi ilə həmin şikayətinizi prokurora göndərə bilərsiniz.

BİLİN!!!

«Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt»da deyilir:

*Maddə 17*

*1. Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla, ya da qanunsuz olaraq qarışmaq olmaz, heç kimin yaşayış yerinin toxunulmazlığına, yazışma sirlərinə, şərəfinə, nüfuzuna özbaşınalıqla qəsd etmək olmaz.*

*2. Hər kəsin hüququ var ki, qanun onu qıraqdan bu cür işə qarışmalardan, bu cur qəsdlərdən qorusun.*

Azərbaycan Respublikasının Konstitutsiyası isə qanunla bağlı bu qarantı verir:

*Madd ə 31. Təhlükəsiz yaşamaq hüququ*

*I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.*
*II. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.*

*Madd ə 33. M ənzil toxunulmazlığı hüququ*

*I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.*
*II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.*

**SİTUASİYA 5**

***Onlar əmlakınıza həbs qoymaq, əmlak götürmək və ya əmlakınızı müsadirə etmək üçün evinizə girirlər***

Məhkəmə qətnaməsinə, qərardadına, qanunda göstərilən icra sənədlərinə görə başqa şəxsə konkret əmlakı ödəməlisiniz (pulunuzla, mebelinizlə, eviniz və s. ilə) Ədliyyə polisi gəlib ki, həmin əmlakı Sizdən alsın, ya da məhkəmə qərardadına görə onun üzərinə həbs qoysun. Ədliyyə polisi hökmə əsasən əmlakınızı müsadirə etmək, ya da əmlakınızın hökmdə göstərilən hissəsini almaq üçün də gələ bilər.

**Birinci məsləhət:** Bilin ki, bu qərarlar qanuni olsa belə, həmin orqan nümayəndələrin vəzifələrini yerinə yetirəndə Sizin İnsan haqlarınızı pozmağa ixtiyarları yoxdur. Ona görə də:

1) Bilin ki, yalnız təqdim etdikləri sənəddə onlara tapşırılmış işləri görərək zəruri hallarda Sizin bina və tikililərinizi müayinə edə bilərlər.

Bilin ki, Sizin evdə onların axtarış aparmağa ixtiyarları yoxdur. Onların yalnız sənəddə göstərilən şeyləri götürməyə, hökm edilmiş əmlakı müsadirə etməyə ixtiyarları var. **Artıq şey götürsələr, evdəki başqa əmlakı müsadirə etsələr, bu, qanunsuzluq olar.**

BİLİN!!!

"İnsan Haqlarının Bütün Dünya üzrə Bəyannaməsi»nin 17-ci maddəsinə görə:

*1. Hər bir adamın haqqı var ki, ya bircə özünün, ya da başqası ilə şəriklikdə mülkiyyəti olsun.*

*2. Heç kimin mülkiyyəti özbaşınalıqla əlindən adına bilməz.*

2) Ədliyyə polisi qətnaməni, qərardadı, başqa sənədləri icra edəndə hərəkətləri ilə Sizi narazı salarsa, bu hərəkəti etdiyi gündən, ya da bu hərəkətdən xəbər tutduğunuz vaxtdan yeddi gün keçməmiş həmin polisin olduğu yerin məhkəməsinə şikayət verin.

3) Ədliyyə polisi başqasının ə mlakı əvəzinə Sizin əmlakınıza həbs qoyubsa, ya da hökmü yerinə yetirəndə yanlış olaraq əmlakınızı götürübsə, onda məhkəməyə iddia ərizəsi verin. Bu ərizə əmlakınızın həbsdən azad edilməsi haqqında olmalıdır.

Bir məsləhət: belə hallarda çalışın, vəkil tutun!

**Örnək:** 1997-ci ilin may ayında müstəntiq vətəndaş M.A-nın evində axtarış aparıb başqa vətəndaşa vurduğu zərəri ödə mək üçün onun əmlakını siyahıya alaraq üzərinə həbs qoymalı idi. Eyni zamanda ixtiyarı vardı ki, evdən onun sahibinin pul və daş-qaşlarını alıb saxlanca versin. Ancaq müstəntiq bu ev sahibinin pulu, daş- qaşı ilə yanaşı evdən başqasının qızıllarını da götürür. Sonradan məhkəmədə həmin qızılların başqasına mənsub olduğu sübut edilib geri qaytarılır.
*(Vəkil Vidadi Mahmudovun praktikasından)*

Azərbaycan Respublikasının Konstitutsiyasında mülkiyyət haqqında deyilir:

*Maddə 29.Mülkiyyət hüququ*

*I. Hər kəsin mülkiyyət hüququ vardır.*
*II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.*
*III. H ər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyy ət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.*
*IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyac ları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.*

**BÖLMƏ 2**

**Siz küçədə olanda...**

Kimlər Sizi tuta bilər, dustaq edə bilər, üstünüzü axtara bilərlər:

a) polis orqanlarının vəzifəli adamları,
b) Milli Təhlükəsizliak Nazirliyinin əməkdaşları, v) təhqiqatçılar, müstəntiqlər, q) prokurorlar

hansı vəziyyətlərdə bütün bunları edə bilərlərlər:

## SİTUASİYA 6

***Küçədə olanda xırda pozuntulara görə Sizi tutanda, üstünüzü axtaranda***

Xırda pozuntulara görə (inzibati qaydada), məsələn, kimisə təhqir etməyə görə, mitinqdə iştirak etməyə görə və ya ola biləcək pozuntunun qarşısını almaq məqsədi ilə Sizi tutub üstünüzü axtara bilərlər. Sadalanan pozuntulara inzibati-hüquq pozuntusu deyilir. Atacağınız addımlar:

1) Onların şəxsiyyətini aydın edən sənədi tələb edin, oxuyun.

2) Onların sənəddəki adını, vəzifəsini öz kağızınıza yazın, ya da yadda saxlayın.

3) Nəyə görə tutmaq və ya üstünüzü axtarmaq istədiklərinin səbəbini demələrini tələb edin.

4) Əgər tələbinizə məhəl qoymadan Sizi tutsalar, üstünüzü axtarsalar, özü də bu zaman protokol yazıb Sizə qol çəkdirməsələr, sonrakı şikayətinizdə bu faktı tutulmanın, axtarışın qanunsuz olmasına sübut gətirə bilərsiniz.

5) hər kəsi yalnız öz cinsindən olan axtara bilər (qadını qadın, kişini kişi)

6) Sizi axtaranda cinsinizdən azı iki hal şahidinin iştirakı olmalıdır. Faktlar göstərir ki, Azərbaycanda tez-tez küçədə adamın üstünü şahidlərsiz axtarırlar.

7) Belə də olur ki, Sizi axtaranlar öz adamlarından şahid kimi istifadə edirlər. Bu zaman cibinizə, çantanıza və s.-yə narkotik maddə, silah, döyüş sursatı və b. qanunsuz şeylər qoyub hə min şahidlərin köməyi ilə Sizi şərləyə bilərlər. Bunu çətinləşdirmək üçün utanmayın, səs-küy salıb ətrafdkıları tamaşa etməyə çağırın. Qoymayın ki, başqası əlini cibinizə, əşyalarınıza salsın. Özünüz ciblərinizi çevirin, çantanızı açıb dörd yana göstərin və başqa sübut hərəkətləri edəndən sonra bərkdən bildirin ki, gördüyünüz kimi məndə qanunsuz heç nə yoxdur. Bəlkə dörd yandan baxan gözlərin altında onlar şərlə məkdən çəkindilər.

8) Şikayəti Sizi tutan, axtaran şəxsin tabe olduğu orqana, xeyiri olmasa, ərazinin prokuroruna verə bilərsiniz. İşiniz hakimə gedib çıxsa, şikayətinizi ona verin.

9) Bilin ki, xırda pozuntulara yol vermiş adam olaraq Sizin aşağıdakı hüquqlarınız var:

- məhkəmədə Sizi müdafiə etmək üçün vəkil tuta bilərsiniz,

- iş materialları ilə tanış ola bilərsiniz,

- qanunsuzluğa etiraz olaraq izahat verməkdən boyun qaçıra bilərsiniz (bu, qanunsuzlğun davam etməsinə əngəl ola bilər)

10) Sadaladığımız orqanlar bu şikayətlərə məhəl qoymasalar, bir çıxış yolu qalır: vəziyyət haqqında kütləvi informasiya vasitələrinə, İnsan haqlarını qoruyan qurumlara müraciətlər yayın. Bütün bunlar yuxarıdakı orqanların şikayətə baxmasına və lazımi qərar çıxarmasına təsir göstərə bilər.

## SİTUASİYA 7

***Küçədə olanda hansısa cinayətdə Sizi şübhəli saydıqları üçün həbs edəndə, üstünüzü axtaranda***

1) Situasiya 6-dakı 1-7 bəndlərinə əməl edin.

2) Dustaq edilməniz, üstünüzün axtarılması haqqında prokurorun sanksiyasını gərəkli edin.

3) Qanuna görə həməncə insanın üstünü axtarmağı tələb edən ayrıca vəziyyətlər var. Belə hallarda prokurorun sanksiyası olmadan da üstünüzü axtara bilərlər. Qanunun bu icazəsindən yerli-yersiz tez-tez istifadə edirlər. Ona görə də Sizi sanksiyasız axtarsalar, tələb edin ki, qərarı göstərsinlər. Qərarla tanış olun. Bir də tələb edin ki, protokol tutsunlar, ora nəyə görə sanksiyasız, təxirəsalınmadan axtarıldığınızı yazsınlar. Əgər təxirəsalınmazlığı protokola salmaq istəməsələr, bunu ora özünüz yaza bilərsiniz. Sonradan iş gedib istintaqa, məhkəməyə çıxsa, təxirəsalınmaz axtarış üçün heç bir əsas olmadığını özünüz, ya da vəkiliniz sübut etsə, bu işin xeyrinə olar.

4) Üstnünüzü axtarandan sonra protokol tutmalıdırlar. Çalışın ki, Siz də ora qol çəkəsiniz (buna ixtiyarınız var) Hətta ora narazı qaldığınız hərəkətləri də yaza bilərsiniz. Qol çəkməniz ona görə yaxşıdır ki, sonradan protokolu dəyişə bilməzlər.

Əgər protokol yazmasalar, ya da yazıb Sizə qol çəkdirməsələr, sabah bu faktlardan haqlarınızı qorumaq üçün istifadə edə bilərsiniz.

5) Əgər Sizi döyüb söysələr, Situasiya 2-nin 3-7-ci bəndlərinə, Situasiya 10-nun 1-5-ci bəndlərinə uyğun davranın.

5) Bu bəndlər avtomobilinizin axtarılmasına da aiddir. Qoymayın ki, maşınınızı Sizdən aralayıb qıraqda axtarsınlar.

**Örnək:** 1993-də polis Bakıda şəxsi «Niva» avtomobilində gedən M.R.-i saxlayıb üstünü axtarır, şübhəli heç nə tapmır. Onu polis şöbəsinə aparırlar. M.R. tələb etməliydi ki, maşınını onun gözü qabağında, şahidlərin yanında axtarıb protokol

yazsınlar. Ancaq bu, ağlına gəlmir. Polis isə M.R. şöbədə saxlanılanda axtarış aparıb avtomobildən 40 qr. narkotik maddə «tapır». Sonradan Ali Məhkəmədə çox çətinliklə avtomobilin axtarışında qanunsuzluğa yol verildiyi sübut edilir. Yalnız bundan sonra hə min epizodun ittihamını onun üstündən götürmək olur.

(Vəkil İsmayıl Mirzəzadənin praktikasından)

**SİTUASİYA 8**

***Siz mitinqə, küçə yürüşün ə, nümayişə, piket ə qoşulanda...***

**Birinci məsləhət:** bu aksiyalara hökumət orqanları icazə verməyəndə Azərbaycan qanunları sərt yasaqlar qoyur. Ona görə də həmin tədbirlərin iştirakçılarına, təşkilatçılarına müəyyən cəzalar kəsilir. Mitinq, küçə yürüşü, nümayişlərlə bağlı Azərbaycan qanunçuluğnun belə sərt münasibəti «Vətəndaş Hüquqları və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt»a, insanın vətəndaş, siyasi hüquqları haqqında başqa beynəlxalq sənədlərin tələblərinə cavab vermir. Vəziyyət belə olduğu üçün Azərbaycanda mitinqdə, küçə yürüşlərində, nümayişlərdə insan haqlarının, hüquqlarının pozulaması beynəlxalq təşkilatların diqqətini çəkir və onların qınaqlarına, pisləmələrinə səbəb olur.

1) Xəbərdarlıq verilmədən edilən mitinqlərdə, küçə yürüşlərində, nümayişlərdə, piketlərdə insanı iki qanun pozuntusu növünə görə inzibati qaydada cavabçı edirlər: sadəcə, iştirakçı olmasına görə, ya da təşkilatçı adlandırdıqlarına görə.

2) Sizi, sadəcə, iştirakçı kimi tutsalar, xəbərdarlıq edə bilərlər, pul cəriməsi kəsə bilərlər, ya da 15 günədək dustaq saxlaya bilərlər.

3) Əgər Siz adı gedən aksiyaların təşkilatçısı deyilsinizsə, tutanlar isə saxtakarlıq edib Sizi təşkilatçı kimi qələmə verirlərsə, o zaman qanun pozuntusu haqqındakı protokolda bunu rədd edin. Bilin ki, Sizi təşkilatçı kimi yazmaq istəyirlərsə, məqsəd odur ki, bir daha belə aksiyalarla bağlı tutulanda Sizi təkrar təşkil edənlərdən biri kimi qələmə verib daha ağır cəzaya düçar etsinlər.

4) Bilin ki, iştirakçı kimi Sizi il ərzində ikinci dəfə tutsalar, pul cəriməsi daha artıq ola bilər. Sizə 2 ayacan islah işi verə bilərlər, ya da ixtiyarları var ki, 15 günədək dustaq etsinlər.

5) Bilin ki, Sizi həmin aksiyaları təşkil edən kimi yaxalasalar, pul cəriməsi kəsə bilərlər, 2 ayacan islah işi verə bilərlər, ya da 15 günədək dustaq edə bilərlər.

6) Bilin ki, il ərzində təkrar təşkilatçı olsanız, Sizi cinayət məsuliyyətinə ala bilərlər. Bu, 6 aya qədər azadlıqdan məhrum edilmək deməkdir. Ancaq Sizin azadlığınızı yalnız aşırı (müstəsna) hallarda, məhkəmənin hökmünə qədər ala bilərlər.

7)  Siz mitinqin iştirakçısı və ya təşkilatçısı kimi tutulmusunuzsa, polislə münaqişəyə girsəniz (yəni onu itələsəniz və s.) onda başqa bir maddə ilə tutulub həbsdə saxlanılmanıza, sonradan isə məhkəmə hökmü ilə daha çox müddətə azadlıqdan məhrum edilmənizə tam əsas vermiş olarsınız.

BİLİN!!!

"Vətəndaş Hüquqları və Siyasi Hüquqlar Üzrə Beynəlxalq Pakt"ın iştirakçısı olan dövlətlər (eləcə də Azərbaycan dövləti) maddə 21-də öhdəlik götürüblər ki, vətəndaşların zorakılığa aparmayan toplantılara haqqı var. Orada yazılıb:

*Dinc toplantılara yığışmaq haqqı tanınır. Bu haqdan istifadə etməyi, bəzi məhdudiyyətləri çıxmaq şərti ilə heç bir cızığa salmaq olmaz, həmin məhdudiyyətləri isə demokratik toplumlarda dövlətin, cəmiyyətin təhlükəsizliyi, əhalinin sağlamlığının, mənəviyyatının qorunması, ya da başqa adamların haqq və azadlıqlarının qorunması gərəkli edə bilər.*

BİLİN!!!

Azərbaycan Respublikasının Konstitutsiyasında Maddə 49-a görə:

I *Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.*
II *Hər kəsin başqaları ilə birlikd ə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc , silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.*
*III*
Deməli, Azərbaycan qanunçuluğuna görə də mitinq, yürüş, piket etmək istəyənlər hakimiyyət orqanlarından icazə almağa borclu deyillər. Sadəcə, tədbirləri haqqında onlara soraq göndərmək bəs edir (Hərçənd, İnzibati Hüquqpozmalar haqqında Məcəllənin 175-2-ci maddəsində deyilir ki, mitinq, yürüş, piketlərə görə dövlət orqanlarından icazə alınmalıdır. Bu isə gördük ki, Ana Yasanın 49-cu maddəsini pozur. Konstitutsiya o biri qanunlardan üsttündür, ona görə də polisin vətəndaşı icazəsiz mitinq, piket, yürüş keçirmək üstündə tutması Ana Yasanın pozulmasıdır. **Bütün bunları Sizi tumaq istəyən polis işçilərinə, işinizə baxan məhkəməyə deyin)**

**BÖLMƏ 3**

## SİTUASİYA 9

***Siz tutulanda və ya dustaq ediləndə***

1) Özünüz özünüzü də müdafiə edə bilərsiniz, ancaq ən yaxşısı vəkil çağırmaqdır.

2) Müstəntiqin təklif etdiyi vəkilə razılaşmayın. Sizin hüququnuz var ki, tanıdığınız vəkili tələb edəsiniz. Onda müstəntiq bu tələbiniz əsasında Sizin müdafiənizə həmin vəkili qoşmağa borcludur (vəkil təyinatla işə qoşulanda pulunu dövlət ödəyir) İstəsəniz ailəniz, qonum-qonşunuz pullu müqavilə ilə də vəkil tuta bilər.

3) Əgər müstəntiq vəkillə bağlı istəklərinizə məhəl qoymasa ixtiyarınız var ki, izahat, ifadə verməyəsiniz.

4) Sizi məcbur etmək istəyə bilərlər ki, bu məzmunda ərizə yazasınız: «öz hüquqlarımı özüm müdafiə edəcəm, ona görə də müdafiəçidən imtina edirəm. Müdafiəçidən imtina etməyim maddi vəziyyətimlə bağlı deyil».

**Beld tdklmfd qdtmyydn razn olmaynn!!!**

5) Əgər 24 saat bitənədək vəkil çağırmaq tələbinizə məhəl qoymurlarsa, o zaman prokurora yazılı şikayətinizi çatdırmaq müstəntiqin vəzifə borcudur.

BİLİN!!!

Azərbaycan Respublikasının Konstitutsiyasında bu haqda yazılır:

*Maddə 61. Hüquqi yardım almaq hüququ*

*I. Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.*
*II. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.*
*III. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.*

6) Sizi dustaq edənlər üç gün içində ailənizə, iş yerinizə xəbər verməlidirlər. Yabançı vətəndaş dustaq ediləndə isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məlumat çatdırılmalıdır.

7) Bilin ki, şübhə edilən şəxs kimi Sizin aşağıdakı hüquqlarınız var:

- tələb edə bilərsiniz ki, nədə suçlandığınızı Sizə bildirsinlər,

- təhqiqət aparandan, müstəntiqdən, prokurodan şikayət edə bilərsiniz,
- ifadə verə bilərsiniz (izahat adi kağızda yazılır və onun sübut gücü olmur, ifadə isə protokola yazılır və sübut gücünü daşıyır),

- vəsatət (yəni iş üzrə istəklər, təkliflər) verə bilərsiniz,

Bilin ki, müttəhim kimi aşağıdakı hüquqdarınız var:

- nədə suçlandığınızı öyrənə bilərsiniz,

- Sizə qarşı elan olunan ittihama dair ifadə verə bilərsiniz (arvadınızı, ata-ananızı, uşaqlarınızı, bacı-qardaşınızı Sizə qarşı ifadə verməyə məcbur edə bilməzlər. Eləcə də Sizi özünüzə, onlara qarşı ifadə verməyə zorunlaya bilməzlər, Ana Yasanın 66- cı maddəsi bunu yasaqlayır),

- sübutlar təqdim edə bilərsiniz,

- vəsatət verə bilərsiniz,

- ilkin istintaq və ya təhqiqat bitəndən sonra onun materialları ilə tanış ola bilərsiniz,

- işinizə mahiyyəti üzrə məhkəmə baxışında iştirak edə bilərsiniz,

- müstəntiqə, prokurora, hakimə, ekspertə və b. etirazlar edə bilərsiniz,

- təhqiqatçının, müstəntiqin, prokurorun, hakimin, məhkəmənin hərəkətlərindən, qərarlarından şikayət edə bilərsiniz,

- son söz söyləyə bilərsiniz (ola bilər ki, son sözdə açdığınız yeni faktlar məhkəmə istintaqının təzələnməsinə səbəb olsun. Hərçənd belə vəziyyət çox nadir hallarda baş verir)

- işinizə qanunla müəyyən edilmiş məhkə mədə baxılmalıdır (yəni işinizə rayon məhkəməsində baxılmalıdırsa, razılığınız olmadan, tutalım, Ali Məhkəməsi ona baxa bilməz. Bilin!!!! Azərbaycanda Ana Yasanın 62-ci maddəsində olan bu qaydanı tez-tez pozurlar və nəticədə kassasiya şikayətini vermək hüququ itirilir) )
BİLİN!!!

"İnsan Haqlarının Bütün Dünya Üzrə Bəyannaməsi»nin 6-cı maddəsinə görə hər bir insan harada olur-olsun haqqı var ki, o, hüquqi subyekt kimi tanınsın. Ona görə də şübhəli şəxs kimi tutulmuş adamı, dustaq edilmiş adamı yuxarıda sadalanan

hüquqlardan istifadə etməyə qoymayanda bu maddə pozulur.

Azərbaycan Respublikasının Konstitutsiyasında bu haqda yazılır:

*Maddə 67. Tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları*

*Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.*

Beynəlxalq aktlara və ölkə Ana Yasasına görə insanın azadlıq hüququ yalnız qanunda göstərilən qaydada cızığa salına (məhdudlaşdırıla) bilər. Azərbaycan Respublikasının Konstitutsiyası insan azadlıqlarına bu təminatları verir:

*Madd ə 60. Hüquq və azadlıqların məhkəmə təminatı*

*I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.*

***Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı***
***XVII. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.***

## SİTUASİYA 10

***Tutulduqda, dustaq edildikdə Sizi təhqir edərlərsə, işgəncə verərlərsə...***

1) Bu haqda vəkilinizə şifahi, müstəntiqə, prokurora yazılı xəbər verin. Dindirmə protokoluna da bu haqda ya özünüz yazın, ya da müstəntiqə yazdırın.
Yaxşı olar ki, yol tapıb qohumlarınıza da Sizə edilən təhqirlər, işgəncələr haqqında soraq çatdırasınız.

2) Aldığınız zədələrlə bağlı ə məhkəmə-tibbi ekspertiza tələb edin.

3) Əgər bu hal davam etsə, yol tapın ki, mətbuat, haqqoruyucu qurumlar xəbər tutsunlar.
4) Sizə qarşı zorakılıq izlərini daşıyan faktları saxlayın və onlardan istintaqda, məhkəmədə istifadə edin. İşgəncələri göstərən fotoşəkillər, videoyazılar, işgəncə, təhqir prosesini yazmış audiolentlər Sizin haqqınızı qorumaq üçün güclü dəlillər ola bilər. Ona görə də vəkilin köməyi və başqa yollarla bu dəlilləri əldə etməyə çalışın.

**Örnək:** 1996-ci ildə İ.İ. polis orqanları tərəfindən narkotik maddəni əldə edib saxlamaq üstündə tutulmuşdu. Ona fiziki işgəncələr verərək məcbur edirlər, boynuna

alsın ki, narkotik satmaq istəyirmiş. Müttəhim satmaq işini boynuna alandan sonra ona 3 il əvəzinə 10 ilə qədər cəza nəzərdə tutan maddə verilir. Ancaq irəlicədən imkan yaranmışdı ki, onun bədəni, üz-gözü işgəncənin izləri ilə videolentə alınsın. Məhkə mədə bu materiallar ortaya çıxarılır və müttəhimin xeyrinə işləyir. Nəticədə o, onillik ağır cəzadan yaxa qurtarır. İşgəncəni edənlər haqqında isə müdafiəçinin tələbi ilə məhkəmə qərar çıxarır.

*(Vəkil Vidadi Mahmudovun praktikasından)*

5) Bilin ki, dustaq ediləndə polis bölmələrinin, idarələrinin tutulanları saxlama yerlərində Sizi yalnız üç sutka saxlaya bilərlər (tutulanlara ən çox məhz burada zorakılıq edirlər) Sizi yolun uzaqlığına, aparmaq üçün uyğun maşın olmadığına görə təcridxanaya götürmək çətindirsə, ən çoxu 10 sutka saxlanıla bilərsiniz. Daha çox saxlasalar, bu, qanunsuzluq olacaq. Ona görə də müstəntiqdən tələb edin ki, Sizi təcridxanaya keçirsin. Bunun xeyri olmasa, saxlandığınız idarənin rəhbərinə, prokurora, şikayət edin. Bilin ki, Sizi qanunun göstərdiyindən artıq tutulanları saxlama yerində saxlasalar, bu, Sizə qarşı mə nəvi, fiziki təzyiq məqsədi güdə bilər.

BİLİN!!!

"İnsan Haqlarının Bütün Dünya Üzrə Bəyannaməsi»nə görə heç kimə işgəncə vermək, heç kimi ləyaqətini alçaldan şəkildə cəzalandırmaq olmaz:

*Madd ə 5*

*Heç kimə işgəncə vermək olmaz, heç kimi amansız, insana yaraşmaz və ya onun heysiyyatını alçaldan davranışın, cəzanın hədəfi etmək olmaz.*

«İşgəncələrə, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərinə qarşı Konvensiya»da isə deyilir:

*Madd ə 2*

*1. Konvensiyaya qoşulmuş dövlətlərin hər biri öz yurisdiksiyasında olan istənilən bölgədə işgəncə əməllərinin qarşısını alan effektiv qanunvericilik, məhkəmə ölçülərinə, adminstrativ və başqa öldçülərə əl atır.*
*2. Heç bir istisna şarit, nə müharibə, nə müharibə qorxusu, nə içəridə siyasi stabilliyin olmaması, nə hər hansı fövq əladədurum işgəncə verməyi təmizə çıxara bilməz.*

*3. Yuxarıda duran rəisin, dövlət hakimiyyətinin əmri işgəncə verməyi təmizə çıxara bilməz.*

Bu situasiya ilə bağlı maraqlı məsləhətləri "Beləliklə, azadlıqda olun...(Şərqi Avropa. Müxalif ət, qeyri-leqallıq tarixindən)" broşuru verir. Broşuru haqqoruyucu dərgi olan "Karta" buraxıb. Görün, orada işgəncəyə salınanda necə davranmaqla, şikayət verməklə bağlı hansı məsləhətlər verilir:

6) Əgər Sizi döyürlərsə, yalvarmayın, xahiş etməyin! Ağrını diş ağrısı kimi qəbul edin. Çalışın həyati baxımdan önə mli orqanlarınızı qoruyasınız. Bu zaman üzünüzə dəyən zədələrə əhəmiyyt verməsəniz də olar. Əgər özünüzü qorumaq üçün yıxılıb uzanmanız yaxşıdırsa, uzanın. Durmadan qışqıra-qışqıra alə mə car çəkin ki, Sizi döyürlər. Nə qədər çox adam bunu eşitsə, o qədər yaxşıdır. Qışqıra-qışqıra tibb yardımı istəyin, gəlib bədəninizdə olan xəsarətləri qeydə götürə bilərlər.

Bütün bunlar hamısı Sizə işgəncə verənlərə qarşı sübutlardır, sabah Sizə işgəncə verənlərin cinayətini göstərmək üçün işləyə bilər. Ona görə də Sizin aləmə car çəkməniz onların işgəncə vermək həvəsini xeyli azalda bilər.

Sizə heç kim hay verməsə də həvəsdən düşməyin, işgəncə haqqında qışqırdıqlarınız kiməsə çatacaq və sabah o şahidlik edə bilər.

Şikayətlərinizi verməkdən çəkinməyin, həvəsdən düşməyin, prokurorun mənfi cavabları gəlsə belə, hər dəfə yenisini yazın. Çünki şikayətə ara verməsəniz, onları ört-basdır etmək olmayacaq və prokuror şikayətə baxmağa məcbur olacaq

BİLİN!!!

«İşgəncələrə, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərinə qarşı Konvensiya»da deyilir:

*Madd ə 4*

*1. Konvensiyaya qoşulmuş hər dövlət elə edir ki, onun qanunvericiliyinə uyğun olaraq bütün işgəncə əməllərinə cinayət kimi baxılsın. Eyni sözləri işgəncə etmək cəhdinə, eləcə də hər hansı bir adamın o hərəkətlərinə aid etmək olar ki, ya birgə işgəncə vermək kimi, ya da işgəncədə iştirak kimi görünür.*

*2. Konvensiyaya qoşulmuş hər dövlət belə cinayətlərə onların ağır xarakterini nəzərə almaqla uyğun cəza kəsir.*
Azərbaycan Respublikasının Konstitutsiyası bu haqda bildirir:

*Madd ə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ*

*III. Heç kəsə işkəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya c əzaya məruz qala bilməz.*

**BÖLMƏ 4**

**Siz iş yerində olanda...**

**Birinci məsləhət:** iş yerində Sizin insan haqlarınızı hakimiyyəti tə msil edən müdriyyət poza bilər.

## SİTUASİYA 11

***İşdə Sizə qarşı müdriyyət ayrı-seçkilik salanda***

1) Əgər belə hesab edirsiniz ki, Sizə qarşı ayrı-seçkilik edilib, o zaman Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsinə və əmək hüququ ilə bağlı başqa qanunlara baxın. Oradan tapın, görün, ayrı-seçkilik saydığınız hərəkət hansı maddədəki hansı pozuntuya uyğun gəlir. Əgər heç birinə uyğun gəlmirsə, deməli, ayrı-seçkilik yoxdur. Əgər hansısa maddəyə uyğun gəlirsə, oradan necə hərəkət etməklə bağlı bilgi də ala bilərsiniz.

2) Sizə qarşı ayrı-seçkilik olduğu aydınlaşandan sonra hara şikayət etməyi tapmalısınız. Siz aşağıdakı instansiyalara şikayət edə bilərsiniz:

- əmək mübahisələri komissiyasına
- həmkarlar Komitəsinə
- məhkəmələrə
- yuxarı orqanlara
- prokurora

3) Şikayətinizlə bağlı əsaslandırıcı materiallar toplayın (məsələn, xəstə olub işə gələ bilmədiyiniz halda işdən çıxarılıbsınızsa, tibbi arayışı, maddi ziyan vurmusunuzsa və bu ziyan qat-qat artıq hesablanıbsa, həmin ziyanın qədərini dəqiq göstərən sənədi) Məhkəmədə Sizin dediklərinizi təsdiq edəcək şahidləri aydınlaşdırın.

4) Şikayət vermək üçün qanunun qoyduğu müddəti buraxmayın (məsələn, işdən çıxarılıbsınızsa, şikayətinizi məhkə məyə bir ay içində verin, qalan hallarda isə şikayət üçün üç ay vaxtınız var, pul tələbi ilə bağlı hallarda isə 1 ilədək müddət verilir) Daha konkret məlumat üçün «Fərdi Əmək Mübahisələrinin Həlli Haqqında Qanun»a baxın. Əgər göstərilən müddətdə çatdıra bilməmisinizsə, ruhdan düşməyin, gecikmənizi üzürlü edən sənədləri təqdim edin.

Məhkəməyə müraciət edəndə vəkil tutsanız yaxşı olar.

BİLİN!!!

"İnsan Haqlarının Bütün Dünya Üzrə Bəyannaməsi»nin 23-cü maddəsinə görə iş yerində insanı ədalətsiz münasibətə düçar etmək olmaz:

*Madd ə 23*

*1. Hər bir insanın işləmək haqqı var, haqqı var ki, iş yerini azad seçsin, haqqı var ki, iş şəraiti ədalətli, əlverişli olsun, haqqı var ki, işsizlikdən qorunsun.*

*2. H ər bir insanın haqqı var ki, onun zəhmətinə bərabər olan zəhmətə görə başqalarına verilən əmək haqqı ayrı-seçkilik salınmadan ona da verilsin.*

*3. hər bir işləyən adamın haqqı var ki, işinə görə ədalətli, təminedici zəhməthaqqı alsın, bu zəhməthaqqı elə olmalıdır ki, həm ona, həm ailəsinə insana layiq yaşayış versin və bu zəhmətaqqına gərəksə, sosial təminatın başqa vasitələri də artırılmalıdır.*

Azərbaycan Respublikasının Konstitutsiyası bunu belə yazır:

Maddə 35. Əmək hüququ

*I Əməkf ərdivə ictimai rifahın əsasıdır.*
*II*
*IIHər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə f əaliyyətnövü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.*
*IV*
*VHeç kəs zorla işlədilə bilməz.*
*VI*
*VI Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.*
*VIII*
*VI. H ər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı*

*miqdarından az olmayan haqq almaq hüququ vardır.*

***SİTUASİYA 12***

***Sizi siyasi baxışlarınıza, partiya, ictimai birliklərə mənsubiyyətinizə görə müdriyyət təqib edir***

**_Birinci məsləhət:_** *Azərbaycan şəraitində bu motivlərə ggörə təqib olunanda Situasiya 11-də göstərilən bəndlər vasitəsi ilə insan haqlarını bərpa etmək xeyli çətin olur. Amma yenə də həmin bəndlər üzrə qorunmanızı qurmağa çalışın. Əlavə olaraq:*

1) Sizi yuxarıda sadalanan motivlərə görə təqib edəndə, işdən azad edəndə haqlarınızı qorumağa sübutlar verən bu materialları toplayın:

a) siyasi baxışlarınızı əks etdirən faktları, partiya, həmkarlar və ya başqa birliyə mənsubiyyətinizi bildirən sənədləri;

b) İnsan haqları, vətəndaşların siyasi hüquqları ilə bağlı beynəlxaq sənədləri, Azərbaycan Respublikasının uyğun qanunvericilik aktlarını;

v) İnsan haqlarını qoruyan qurumları düçar olduğunuz olayla bağlı bilgiləndirin. Sonra bu fakta onların münasibətini bildirən sənədləri yığın;

2) Həmin materiallarla və onların əsasında yazdığınız şikayətlə prokurora müraciət edin. Əgər burada şikayətinizə məhəl qoyulmasa, eyni qaydada yuxarı prokurora, respublikanın rəhbər icra orqanlarına müraciət edin.

3) həmin instansiyalardan müraciətlərinizə aldığınz cavabları toplayın.

4) Sizin pozulmuş haqqınız bütün instansiyalarda bərpa olunmayanda və bununla bağlı yetərincə sübut toplayanda Sizin hadisəniz ölkə miqyasında xarakterik vəziyyətin simvoluna çevrilir. Əlinizdə olan materiallar, artıq, İnsan haqlarının pozulması faktlarına yönəlmiş kütləvi informasiya vasitələrini və haqqoruyucu qurumları ciddi şəkildə maraqlandıracaq.

*BİLİN!!!*

*”İnsan Haqlarının Bütün Dünya üzrə Bəyannaməsi»nin 19-20-ci maddələrinə görə hər bir insanın birliklərə qoşulmaq azadlığı, fikir, əqidə azadlığı var:*

*Maddə 19*

*Hər bir insanın haqqı var ki, inamlarına görə azadlığı olsun, inamlarını azad*

*şəkildə bildirsin; bu haqqda insanın əngəlsiz olaraq öz inamında qalması da var, bu haqq eləcə də insanın hər hansı vasitə ilə, dövlətin sərhədlərindən asılısız informasiya, ideyalar axtarmaq, almaq, yaymaq azadlığını da özünə qatır.*

*Madd ə 20*

1. *Hər bir insanın dinc toplantılara, birliklərə azadlıq haqqı var.*

2. *Heç kimi hər hansı birliyə qoşmaq üçün zor etmək olmaz.*

Azərbaycan Respublikasının Konstitutsiyasında isə bu haqda deyilir:

*Madd ə 47. Fikir və söz azadlığı*
*I. Hər kəsin fikir və söz azadlığı vardır.*
*II. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.*

*Madd ə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı*

*IU. Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz.*

## BÖLMƏ 5

**Sizin şərəf və ləyaqətinizə qəsd ediləndə...**

## SİTUASİYA 13

***Dövlət nümayəndələri Sizin şərəf və ləyaqətinizə qəsd edib***

(Sizi ləkələyən yalan məlumatların qəsdən yayılması, yəni Sizə böhtan atılması, Sizin qəsdən alçaldılmanız, yəni təhqir edilməniz şərəf və ləyaqətinizə qəsddir)

1) Tabe olduğunuz şəxs işlərin yerinə yetirilməsi ilə bağlı Sizi təhqir edibsə, üstünüzə böhtan atıbsa, bilin ki, prokurorluq qarşısında məsələ qaldıra bilərsiniz, çünki hə min vəzifə adamı vəzifə səlahiyyətini aşaraq Sizi təhqir edib, Sizə böhtan atıb.

2) Prokurorluğa şikayət yazın. Əgər Sizə təhqir və ya böhtan olanlar əmrdə, çıxışda olubsa, həm də bunların tekstləri Sizdə varsa, şikayətinizə əlavə edin. Əgər

tekstləri əldə edə bilmirsinizsə, ya da təhqir, böhtan şifahi şəkildə başqalarının yanında edilibsə, şikayətinizdə hadisənin təsvirini dəqiq verin, hansı sözləri, hərəkəti təhqir, böhtan sayırsınızsa, göstərin. Şikayətinizdə şahidlərinizi də bildirin (adlarını, soyadlarını, telefonlarını, iş yerlərini, ünvanlarını və s.)

3) Bu prosesdə Siz vəkillə bağaşma bağlayıb onun da köməyindən istifadə edə bilərsiniz.

4) Əgər tabe olduğunuz vəzifəli şəxs işlə bağlı olmayan məsələdə Sizi təhqir edibsə, üstünüzə böhtan atıbsa, o zaman bu adamı qanunun başqa maddələri ilə suçlaya bilərsiniz. Həmin maddələr bunlardır: Cinayət Məcəlləsində böhtanla bağlı 121-ci, təhqirlə bağlı 122-ci maddə lər.

5) Bu vəziiyətdə yalnız prokurorluğa yox, məhkəməyə də müraciət edə bilərsiniz.

6) Bu situasiyanın 1-3-cü bəndləri əsasında hərəkt edib haqqınızı qoruyun.

7) Sizi tabe olmadığınız vəzifəli şəxs təhqir etsə, üstünüzə böhtan atsa, bu situasiyanın 1-5-ci bəndləri üzrə hərəkt edin.

Bilin!!!

Azərbaycan Respublikasının Konstitutsiyasına görə:

*Madd ə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ*

*I. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.*
*II. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.*

## SİTUASİYA 14

***Dövlət və müstəqil kütləvi informasiya vasitələri Sizin i şərəf və ləyaqətinizə qəsd edəndə***

1) Dövlət informsiya vasitələrində Sizin şərəf və ləyaqətinizə qəsd olunubsa, birinci addımda aydınlaşdırmalısınız ki, doğrudan da gəstərilənlər, deyilənlər, yazılanlar Sizə qarşı böhtandır, təhqirdir?

İkinci addımda aydınlaşdırmalısınız ki, kimi şərəf və ləyaqətinizə qəsd etiməkdə suçlaya bilərsiniz.
2) Bilin ki, aşağıdakı hallarda İnformasiya vasitəsini suçlaya bilməzsiniz:

a) şərəfinizə, ləyaqətinizə qəsd saydığınıx məlumat rəsmi xəbərlərdə gedibsə,

b) informasiya agentliklərindən və ayrı-ayrı qurumların mətbuat xidmətlərindən götürülübsə,

v) Milli Məclisdə deputatların çıxışında, vəzifəli şəxslərin rəsmi çıxışlarında, ictimai birliklərin toplantılarında Sizə qarşı səslənmiş fikir dəyişmədən verilibsə,

q) canlı efirdə səslənmiş fikir olubsa, KİV haqqında qanunda redaktəsi yasaqlanmış tekstlərdə verilibsə

Bu hallarda Siz İnformasiya vasitələrini yox, həmin fikirlərin, çıxışların müəlliflərini qanun yolu ilə suçaya bilərsiniz.

3) Bilin ki, əgər beləcə şərəf və ləyaqətinizi alçaldıblarsa, iki yolla öz haqqınızı bərpa edə bilərsiniz:

a) cinayət işi açmaq üçün prokurora və ya məhkəməyə müraciətlə,

b) şərəf və ləyaqətinizi alçaldanı təkzib etməyə, üzr istə məyə, cərimə verməyə məcbur etmək məqsədi ilə məhkəməyə iddia ərizəsi verməklə.

4) Həmin orqanlara müraciət etməzdən öncə Sizi alçaldan məqaləni, həmin məqaləni vermiş qəzet və ya jurnalı əldə edib saxlayın. Əgər bu alçaldılma televizyon, radio verilişində olubsa, verilişin adını, tarixini, müəlliəflrini yazıb saxlayın. Həmin verilişi audio-video lentə köçürə bilsəniz lap yaxşı olar.

5) Əgər haqqınızın tez bərpa olunmasını istəyirsinizsə, o zaman bu Situasiyanın 3-cü bəndinin -a)- yarımbəndində göstərilən yolla gedin. Bunun üçün qəzetin, jurnalın baş redaktoruna, tele-radionun başçısına tələb məktubu yazmağa ixtiyarınız var.

6) Məktubda nəyi böhtan, nəyi təhqir hesab etmənizi göstərin. Tələb edin ki, həmin böhtan, təhqir verilmiş səhifədə, eyni şriftlə, televiziya və radioda isə həmin verilişdə, həmin vaxtda təkzib verilsin, üzr istənilsin (təkzib və üzr üçün bir ay möhlət verin. Əslində Ana Yasanın 60-cı maddəsinə görə bu bir ay vacib deyil, ancaq məhkəmə praktikasında elə vəziyyət yaradıblar ki, «bir ay» məsələsinə əməl etməyəndə işinizə baxılması əngəllərlə üzləşə bilir)

7) Məktubun bir nüsxəsini özünüzdə saxlayın, o biri nüsxəsini isə rabitə şöbəsi ilə sifarişli məktub kimi ünvana göndərin.

8) Əgər tələbinizə məhəl qoyulmasa, haqqınız pozulduğu gündən 6 ay keçənəcən məhkəməyə iddia ərizəsi ilə müraciət edin (geciksəniz, məhkəmədə bunun səbəbini tutarlı dəlillərlə göstərməlisiniz) Ərizədə necə, harada, kimlər tərəfindən Sizə böhtan atılmasını, təhqir olunmağınızı göstərin. Bu ərizədə şərəf və ləyaqətinizi alçaldanın Sizin xeyrinizə hansı məbləğdə cərimə olunmasını istəyirsinizsə, onu da yazın. Əgər cavabçıdan təkzib verməsini və ya üzr istə məsini tələb edirsinizsə, bunu da ora yazın. Ərizənizə hadisə ilə bağlı topladığınız materialları, təkzib tələbinə dair göndərdiyiniz məktubun üzünü, oradan "yox" cavabı gəlibsə, həmin cavabın

ksereksdən çıxarılmış üzünü əlavə edin.

9) Sizin şərəf və ləyaqətinizin qorunması ilə bağlı ciddi çəkişmə gözlənirsə, vəkil tutun.

**BÖLMƏ 6**

**Qadınların haqqı pozulanda**

**SİTUASİYA 15**

***Qadının vətəndaş haqları, siyasi hüquqlar üzrə kişilərlə bərabərliyi pozulanda***

1) Sizin siyasi ictimai, mədəni yönümlü çalışmalarınıza əngəllər qoyub kişilərə baxanda Sizə qarşı ayrı-seçkilk salırlar (məsələn, ailə üzvləriniz, mənsub olduğunuz icma və s. zor edib seçkilərdə səs verməyə və ya seçilməyə Sizi qoymurlar, qoymurlar ki, referendumda iştirak edəsiniz, siyasi partiyalara, ictimai birliklərə və s. qoşulasınız)

2) Bilin ki, bununla Cinayət Məcəlləsinin 131 -ci maddəsini pozurlar. Belə pozuntunu etmiş adamı 3 ilədək azadlıqdan məhrum edə bilərlər.

3) Şikayət etmək istəsəniz, prokurorluğa müraciət edin.

Bilin ki, "Qadınlrla bağlı bütün ayrı-seçkilik formalarının yox edilməsi haqqında Konvensiya»da yazılıb:

*Madd ə 1*

*Bu Konvensiyanın məqsədi baxımından «qadınlara qarşı ayrı-seçkilik» anlayışı bunları bildirdirir: bildirir cins baxımından hər-hansı f ərqi istisnanı, ya da məhdudiyyəti ki, kişilərlə qadınların bərabərliyi əsasında, ailə vəziyətindən asılı olmayaraq qadınların insan haqlarından istifadə etməsini, həmin haqları yerin ə yetirm əsini, eləcə də bu insan haqlarının tanınmasını zəiflədir və ya heçə endirir, bütün bunlar həm də qadınların siyasi, iqtisadi, sosial, mədəni sahələrdə, vətəndaşlıqda və başqa sahələrdə başlıca azadlıqlardan istifadə etməsini, onları yerinəyetirməsini, eləcə də bu azadlıqların tanınmasını zəiflədir və ya heçə endirir.*

*Madd ə 2*

*Bu Konvensiyaya qoşulmuş dövlətlər bütün formalarda qadınların ayrı- seçkiliyə salınmasını pisləyirlər, razılaşırlar ki, qadınların ayrı-seçkiliyə salınmasını sonraya saxlamadan, bütün uyğun vasitələrlə yox etmək siyasətini yeridəcəklər və ona görə*

*də bunları üstlərinə götürürlər:*

*a kişilərlə qadınların bərabərlik prinsipini; Konvensiyaya qoşulmuş dövlətlər əgər bu prinsipi indiyəcən götürməyiblərsə, onu öz milli Ana Yasalarına və ya uyğun qanunvericiliklərinə salacaqlar, özü də qanunun, bir də başqa gərəkli vasitələrin köməyi ilə bu prinsipi praktiki şəkildə gerçəkləşdirəcəklər; b qadınlara qarşı hər-hənsı ayrı-seçkiliyi yasaq etmək üçün bütün gərəkli qanunvericilik ölçülərinə və başqa ölçülərə, - sanksiyalar da onların içində olmaqla, - əl atacaqlar;*
*c kişilərlə bərabərlik əsasında qadınların hüquq qoruntusunu quracaqlar, eləcə d ə kompetentli milli məhkəmələr və başqa dövlət idarələri asitəsi ilə hər-hansı ayrı-seçkilikdən qadınları efektiv şəkildə qoruyacaqlar; d qadınlara qarşı hər hansı ayrı-seçkilik aktından, davranışından çəkinəcəklər, həm də güvəniş (qarant) verəcəklər ki, dövlət orqanları, idarələri bu öhdəliklərə uyğun hərəkət edəcək;*
*e hansısa şəxs, qurum, müəssisə tərəfindən qadınların ayrı-seçkiliyə salınmasını yox etmək üçün bütün gərəkli ölçülərə əl atacaqlar; f bütün gərəkli ölçülərə, eləcə də qanunvericilik ölçüsünə əl atacaqlar ki, qadınlara qarşı ayrı-seçkiliyə gətirib çıxaran qüvvədə olan qanunlar, qərarlar, adətlər, praktikalar dəyişsin, ya da aradan çıxsın; öz cinayət məcəllələrindən qadına qarşı ayrı-seçkilik salan bütün maddələri götürəcəklər.*

Azərbaycan Respublikasının Konstitutsiyasında qadınla kişinin bərabərliyi haqqında buyurulur:

*Madd ə 25. Bərabərlik hüququ*

*II Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.*
*III*
*III. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə,*

*siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.*

**SİTUASİYA 16.**

***Qadının kişilərə baxanda əmək hüquqları üzrə bərabərliyi pozulanda***

1) Kişilərə baxanda Sizin hüquq bərabərliyiniz bu hallarda pozula bilər:

a) qadın olduğunuz üçün Sizi işə götürmürlər,

b) qadın olduğunuz üçün Sizi işdən çıxarırlar,

v) kişi ilə bərabər zəhmətin əvəzində ondan az əmək haqqı alırsınız,

q) kişilərə yaradılmış iş şəraitini Sizə vermirlər,

2) Bilin ki, bütün bunlar Sizin qadın kimi əmək hüquqlarınızın pozulmasıdır və bunu bilərəkdən pozanlara Cinayət Məcəlləsinin 136-cı maddəsi cəza göstərir (məhkəmə onları 1 ilə qədər azadlıqdan məhrum edə bilər)

3) Əgər Sizə qarşı belə ayrı-seçkilik edilibsə, prokurorluğa şikayət yazın. Şikayətinizə ayrı-seçkiliyi sübut edən sənədləri əlavə edin, faktları yazın (məsələn, işə girmək üçün verdiyiniz ərizəyə rədd cavabını, işdən çıxarılmanız haqqında əmrin üzünü, əmək haqqı barədə arayışı və s.)

4) Bu prosesdə Siz vəkillə bağaşma bağlayıb onun da köməyindən istifadə edə bilərsiniz.

5) Həmin sənədlərin çıxarılmış üzünü İnsan haqlarını, Qadın haqlarını qoruyan qurumlara çatdırın, fakt haqqında KİV-də çıxış edin, səbəbkarların adlarını çəkin.

6) Bilin ki, Sizin qadın olaraq bəzi hallarda başqa qadınlarda olmayan bu hüquqlarınız da ola bilər:

a) hamiləsinizsə və ya yaş yarımlıq körpəniz varsa, Sizi işdən çıxaramağa qanun əsas versə belə, müdriyyət Sizə başqa iş verməlidir,

b) iki yaşına çatmamış uşağınız varsa, Sizi gecə işinə, iş vaxtından artıq işə göndərə bilməzlər. Sizi istirahət günləri də işlədə bilməzlər, ezamiyyətə göndərməyə də ixtiyarları yoxdur. İki yaşından səkkiz yaşınacan uşağınız varsa, artıq işləməyə məcbur etmək, ezamiyyətə göndərmək olmaz.

v) əgər hamiləsinizsə, əmək haqqınızı saxlamaqla iş normanızı ya azaltmalıdırlar,

ya da Sizi daha yüngül işə keçirməlidirlər.

q) Sizin hamiləlik, doğum, körpə uşağa qulluq etmək üçün məzuniyyət almaq hüququnuz var.

d) Əmək Qanunvericiliyi Sizə bəzi hallarda başqa hüquqlar da verir. Bu hüquqları yaxşı bilməniz gərək. Onun üçün də Əmək Qanunları Məcəlləsinin 12-ci f əslinin 173-190-cı maddələrini yaxşıca öyrənin.

Əgər 6-cı bənddə göstərilmiş hüquqlarınız pozulsa, pozanlara qarşı həm intizam, həm də cinayət cəzaları var (Cinayət Məcəlləsinin 138-ci maddəsi)

7) Əgər hamiləliyinizə, uşaq əmizdirdiyinizə görə Sizi işə götürməyiblərsə və ya işdən çıxarıblarsa, əməkhaqqınızı aşağı salıblarsa, şikayətlə prokurorluğa müraciət edin (Situasiya 16-nın 3-5-ci bəndlərinə uyğun hərəkət edin)

BİLİN!!!

"Qadınlrla bağlı bütün ayrı-seçkilik formalarının yox edilməsi haqqında Konvensiya»da yazılıb:

*Madd ə 11*

*1. Konvensiyaya qoşulmuş dövlətlər bütün gərəkli ölçülərə əl atırlar ki, məşğulluq sahəsində qadınlara qarşı ayrı-seçkilik aradan götürülsün və beləliklə, kişilərlə qadınların bərabərliyi əsasında qadınlara bir çox hüquqlar, eləcə də bu hüquqlar verilsin:*

*a bütün insanların alınmaz haqqı olan işləmək hüququ; b işə götürüləndə bərabər imkanları olmaq hüququ, eləcə də işə götürülmək üçün seçiləndə bərabər ölçülərlə yanaşılma hüququ; c azad olaraq peşəni, ya da iş soyunu seçmək hüququ, vəzifədə irəliləmək, məşğulluq güvənişində (qarantında) olmaq hüququ, eləcə də bütün güzəştlərdən, iş şəraitlərindən istifadə etmək hüququ, eləcə də peşə hazırlığı, ya da peşəni dəyişdirmək üçün hazırlıq hüququ; bu axırıncıların içində şəyirdlik, səviyyəni yüksəltmək üçün peşə hazırlığı, vaxtaşırı başqa peşəyə hazırlaşmaq hüquqları da durur;*

*d bərabər mükafat almaq hüququ; bunun içində güzəşt almaq, bərabər dəyərli işə görə bərabər şəraitdə olmaq hüququ da, işin çeşidinin dəyərləndirilmə sinə yanaşılark ən bərabər dəyər verilməsi hüquqları da durur;*

*e sosial təminat almaq haqqı, məsələn, pensiyaya çıxanda, işsiz olanda, xəstələnəndə, şikəst olanda, qocalıqda və işləmək bacarığını itirməyin ayrı- ayrı hallarında sosial təminat almaq haqqı, eləcə də pullu ödənişi olan məzuniyyətə çıxmaq hüququ;*

*sağlamlığın qorunması, işin qorxusuz şəraitdə olması hüququ, eləcə də soyu davam*

*etdirmək funksiyasının qorunma hüququ;*

*2. Ərdə olanda, analıq hallarında qadınlara qarşı yeridil əcək ayrı-seçkiliyi qabaqlamaq, qadınlara işləmək üçün effektli güvənişlər vermək məqsədi ilə Konvensiyaya qoşulmuş dövlətlər gərəkli ölçülərə əl atırlar ki, a*
*b hamiləlik üstündə, ya da hamiləliyə, doğuma görə alınmış məzuniyyətdən qayıdanda işdən çıxarılmanı və ya ailə vəziyyətinə görə ayrı-seçkilik yeridilməsini sanksiyaların hədəsi ilə yasaqlasınlar; c pulla ödənilən, ya da elə başqa məzuniyyətlər versinlər ki, öncəki iş yerini, tutduğu başçı mövqeyini, ya da başqa sosial yardımları itirməmək şərti ilə hamiləliyə, doğuma görə verilən sosial pul yardımlarına bərabər olsun; d gərəkli əlavə sosial xidmətləri həvəsləndirsinlər ki, ata-ananın ailə öhdəliklərini işlə, toplumun həyatına qoşulmaqla bir araya sığışdırmaq imkanları olsun (belə bir həvəsləndirmə, məsələn, uşaqlara baxan qurumları yaratmaq, genişləndirmək vasitəsi ilə edilsin); qadınların sağlamlığına ziyanı danılmaz olan iş növlərində hamiləlik zamanı qadınlar ayrıca olaraq qorunsunlar.*
*3*
*Bu maddədə sözü ged ən haqlarla bağlı qanunvericilik vaxtaşırı elmi-texniki biliklər işığında gözdən keçirilir, eləcə də nə qədər gərəkdirsə, o qədər də yenidən gözdən keçirilir, aradan götürülür, ya da dəyişdirilir.*

*Madd ə 12* **1**
*Konvensiyaya qoşulmuş dövlətlər bütün gərəkli ölçülərə əl atırlar ki, sağlamlıq sahəsində qadınlara qarşı ayrı-seçkiliyi yox etsinlər və beləliklə, kişilərlə qadınların bərabərliyi əsasında qadınların tibbi xidmətə əlləri çatsın, bu deyilənə ailənin sayını planlaşdırmaq da aiddir.*

*2. Bu maddənin 1-ci bəndindən asılı olmayaraq Konvensiyaya qoşulmuş dövlətlər hamiləlik, doğum, doğumdan sonrakı vaxtlarda qadınları uyğun qulluqlarla təmin edirlər, özü də gərək olanda bu qulluları pulsuz edirlər, həm də hamiləlik, uşağı əmizdirmə vaxtlarında uyğun qidanı pulsuz verirlər.*

## BULMD 7

## Smzmn haqlarnnnzn düvldt mdardetmd orqanlarn, vdzmfdlm edxsldr pozanda...

**Smtuasmya 17.**

***Düvldt mdardetmd orqanlarn, vdzmfdlm edxsldr Smzmn haqlarnnnzn aeaxndakn hallarda pozurlar:***

a) Qanunun, normatmv aktlarnn verdmym hğquqlarn tam, ya qmsmdn yermnd

yetmrmdyd Smzm qoymayanda,

b) Ğzdrmnmzd qanunsuz olaraq vdzmfd qoyanda,

1) Beldcd Smzmn hğquqlarnnnzn pozsalar, hdmmn orqannn, ya vdzmfdlm edxsmn tabe
olduxu mnstansmyaya emkaydt vermn.

2) Cavab ğzğn dn zoxu bmr ay güzldymn.

3) Aldnxnnnz cavabdan narazn qalsannz, ya da hez bmr cavab almasannz bmr ay mzmndd mdhkdmdyd mğracmdt edmn. Bu mdhkdmd hğquqlarnnnzn pozan mdardetmd orqannnnn, yerldedmym, vdzmfdlm edxsmn melddmym rayon mdhkdmdsm olmalndnr.

Bmlmn km, Smzmn hğquqlarnnnzn pozmue orqandan, vdzmfd adamnnnn hdrdkdtmnddn emkaydt etmdk ğzğn qanunla baeqa qaydalar qoyulubsa, o zaman hdmmn qaydalara uyxun davranmalnsnnnz.

4) Emkaydtmnmzdd güstdrmn km, hdmmn orqannn, vdzmfdlm edxsmn hansn hdrdkdtmnm pozuntu saynrsnnnz, bu hdrdkdtld hansn hğquqlarnnnzn, azadlnqlarnnnzn pozulmue hesab edmrsmnmz. Emkaydtmnmzdd hansn yuxarn orqana, vdzmfdlm edxsd mğracmdt etmdnmzm, hansn cavabn almaxnnnzn (ya cavab almadnxnnnzn) da güstdrmn. Yaxen olar km, mğracmdtldrmnmzld baxln bğtğn sdnddldrmn ğzğnğ znxarnb emkaydtmnmzd qoeasnnnz.

5) Emkaydtmnmzm mdhkdmdyd vermdyd üzğnğzğn mmkann olmasa, bunu dvdzmnmzddn etmbarnamd verdmymnmz adam da edd bmldr.

6) 1-3-cğ bdndldrddkm qaydalarn pozsannz, mdhkdmdnmn mxtmyarn var km, emkaydtmnmzm gütğrmdsmn. Dgdr emkaydtmnmzd baxnlanda aydnn olsa km, hdmmn qaydalarn pozmusunuz, emkaydtmnmz baxnlmamne saxlannlacaq.

7) Mdhkdmd emkaydtmnmzd 10 gğn mzmndd baxmalndnr.

Azərbaycan Respublikasının Konstitutsiyasında yazılır:

*Maddə 60. Hüquq və azadlıqların məhkəmə təminatı*

*I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.*
*II. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.*

## BÖLMƏ 8

## Başqa haqlar pozulanda...

## SİTUASİYA 18.

***Sizin aşağıdakı başqa haqlarınız da pozula bilər:***

a) sosial təminat hüququnuz (məsələn, Sizə düşən əlillik dərəcəsini vermirlər, ona görə də uyğun əlillik pensiyası ala bilmirsiniz, ailə başçısını itirsəniz də buna görə pensiya kəsmirlər və s.),

b) mədəniyyət hüququnuz (məsələn, Sizin bəstələdiyiniz musiqini siyasi və başqa motivlərə görə Dövlət TV-də, Radiosunda səslənməyə qoymurlar, çəkdiyiniz rəsm əsərlərinin sərgisini təşkil etməyə İcra Hakimyyəti əxlaqı bəhanə edərək imkan vermir və s.),

v) sağlamlıq hüququnuz (məsələn, Siz dövlət müəssisəsində zərərli sexdə işləməyə məcbursunuz, ancaq qorunmanız üçün gərəkli vasitələri ala bilmirsiniz, yaşadığınız ərazinin poliklinikası bütün xidmətləri pullu etməklə maddi cəhətdən Sizin üçün tibbi yardımı əlçatmaz edir və s.),

q) təhsil hüququnuz (məsələn, siyasi aksiyalarda iştirak etdiyinizə görə Sizi ali məktəbdən qovurlar, cinsi, milli mənsubiyyətinizə görə istədiyiniz ixtisas üzrə təhsil almanıza əngəllər qoyurlar),

ğ) sağlam ekoloji mühitdə yaşamaq hüququnuz (məsələn, ətraf mühiti zəhərləyən müəssisəyə qarşı keçirdiyiniz etiraz aksiyalarına hakimiyyət orqanları məhəl qoymur, yaşadığınız ərazidə radiasiyanın dərəcəsi haqqında dövlət orqanlarından informasiya tələb edirsiniz, tələbiniz cavabsız qalır və s.),

d) mülkiyyət hüququnuz (məsələn, Siz evinizi başqa şəhərdən gəlmiş adama satmaq istəyirsiniz, İcra Hakimiyyətinin isə qanunsuz qərarı buna imkan vermir,
Siz həyətinizdə qanunun qoyduğu çərçivədə tikinti aparmaq istəyirsiniz, polis sahə

müvəkili isə tikinti işini dayandırır və s.),

e) azad sahibkarlıq hüququnuz (məsələn, Siz yaratdığınız müəssisəni qeydiyyatdan keçirmək istəyirsiniz, Ədliyyə Nazirliyi isə müxtəlif bəhanələrlə qeydiyyatdan boyun qaçırır, dövlət orqanı Bankda açdığınız hesabı qanunsuz dondurur və s.),

ə) seçki hüququnuz (Seçkilərdə namizədliyiniz heç bir qanuni əsas olmadan qeydə alınmır və ya namizədsiniz, ancaq Seçki kampaniyasında təbliğat aparmaq üçün Sizə rəqiblərinizlə bərabər şərait yaradılmır və s.),

j) istehlakçı hüququnuz (Siz ərazinizdə satılan hansısa malların zərəri haqqında İcra hakimiyyətindəki İstehlakçıların hüquqlarını müdafiə etməli olan orqan qarşısında məsələ qaldırırsınız, ancaq bu şikayətə maraq göstərilmir, İcra orqanı sertifikatlaşdırılmamış malların satışına icazə verir və s.)

1) Siz bilməlisiniz ki, a-j- bəndləri üzrə uyğun qanunlar var. Bu qanunlar nələrin pozuntu olmasını göstərir, ona görə də ilk öncə həmin qanunlara baxıb narazı qaldığınız faktın pozuntu olub-olmamasını bilin.

2) Bu qanunlar həm də pozuntulardan qorunmaq yollarını göstərir, ona görə də həmin yolları tapın. Qanunda göstərilə bilər ki, filan pozuntuya görə məhkəməyə, digərinə görə isə hər hansı yuxarı icra orqanına üz tutmaq gərəkdir.

3) Ölkədə Hüquqları qorumaq işini daha da gücləndirmək istəyirsinizsə, haqqoruyucu qurumları, kütləvi informasiya vasitələrini pozuntu ilə bağlı bilgiləndirin. Bilin, həmin qurumlarda pozuntular haqqında təsirli statistika toplananda vəziyyətin dəyişməsi üçün kritik kütlə yaranır.

## BÖLMƏ 9

**Haqoruyucu qurumlar qorumaq işi üçün nə etməlidirlər..**

**Situasiya 19**

***Haqqoruyucu qurumlara jurnalistin haqqı, mətbuat azadlığı ilə bağlı müraciət ediləndə***

Bu haqda məsləhətlərə aşağıda göstərilən kitabda rast gəlmək olar:
**Practical Guide**
***(for journalists investigating infringements ofpress freedom)***
Reporters Sans Frontieres, 1996

**Praktiki göstəriş**

***(Mətbuat azadlığının pozulması üzrə jurnalist araşdırması aparanlar üçün)***

(Bu kitabın bir bölməsində atışma gedən, minalar basdırılan bölgələrdə jurnalistin necə davranması göstərilib. Başqa bölmələrdə mətbuat azadlığını, jurnalist etikasını açıqlayan beynəlxəlq sənədlərin bəndləri, haqpozuntusunu yazıya almağın prinsipləri verilib. Kitabımız üçün biz bu axırıncının ingiliscədən tərcüməsini veririk)

**Fəsil 4**

***Mətbuat azadlığının pozulmasını araşdırmaq üçün göstərişlər və prosedurlar***

Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı Hüquq Məsələləri üzrə Qərargahı, eləcə də Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki İnsan Haqları Mərkəzi o beynəlxalq qurumlardandır ki, İnsan haqlarının pozulmasından dəqiq soraqcalar (raportlar) vermək üçün yaxşı detallaşdırılmış göstərişləri var. Bu f əslin bəzi materialları 1995-ci ildə Esseks Universitetində İnsan Haqları Mərkəzinin çapdan çıxardığı kitabçadan götürülüb. Həmin kitabça «İnsan Haqları üçün əl kitabı» adlanır.

**1. Ümumi göstərişlər**

Hər hansı araşadırmanın yazılı soraqcası (raportu) olmalıdır. Faktlar yazıya alınmalıdır ki, informasiya dəqiq qalsın, şaiyələrdən yayınmaq olsun, detallar toplanılıb saxlanılsın. Əgər olay ciddi, sonralaşdırılmaz olsa, gizliliyi saxlamaq dərəcəsində radio, telefon xətti ilə soraq göndərmək olar. Ancaq belə olsa da sonra informasiyanı yazıya almaq gərəkdir.

- Araşdırıcı topladığı informasiyanı gizli saxlmalıdır. Bu qaydaya əməl olunmaması haqpozuntusunun qurbanı, şahidi, araşdırıcısı üçün pis sonuclarla qurtara bilər. Əgər şahidin açıqlamalarından istifadə etmək, sitat gətirmək olarsa, o aydınca sorğulanmalıdır. Şahidə deyilməlidir ki, araşdırıcı bağımsız (müstəqil) qurum üçün işləyir, polis, ya rəsmi qurum üçün işləmir, bir də araşdırıcının işi milli və ya beynəlxalq hüquq araşdırmasını əvəz etmir.

- Görüntülü təsvirlər ayrıca göstərişlərə uyğun olaraq edilməlidir. Olanların fotoşəklinin çəkilməsi, ya da filmləşdirilməsi gözlənməz, xüsusi ilə, düşmən reaksiyalar doğura bilər, ona görə də onlara çox az əl atmaq gərək. Nə qədər mümkünsə, vəhşiliyin qurbanının fotosu xəlvət saxlanmalıdır. İşgəncə, insanı pis günə qoyma hallarında onu çətin tanıdacaq və ya pis əllərə düşəcək şəkli çəkməmək daha yaxşıdır.

## 2. Araşdırmanın dörd pilləsi

- Birinci pillədə sübutlar, ərizələr toplanmalıdır. Əgər durum qoyursa, araşdırıcılar kimləri tə msil etdiklərini bildirməlidirlər. Tanışlıq verməlidirlər ki, haqqı pozulanlar kimlə danışıdıqlarını bilsinlər. Qurbanlara araşdırıcıların dəqiq statusu deyilməlidir. Araşdırıcılar isə arxayın olmalıdırlar ki, sonralar görüş təşkil edə biləcəklər, ya da heç olmasa biləcəklər ki, haqpozuntusunun qurbanı olmuş adamla harada kontakta girmək olar. Haqpozuntusunun qurbanlarına deyilməlidir ki, sonrakı informasiyaları kim alıb ötürəcək, eləcə də faktları verəndən sonra onların başının üstünü alacaq qorxu və qorxutmalar haqqında təşkilatı kim xəbərləyəcək.

Araşdırmaya başlamazdan öncə üstün tutulan məqamların siyahısı tutulmalıdır. Mətbuat azadlığını ən ciddi pozan o əməllərdir ki, jurnalisti, onun ailəsini hədəf götürür: qanunsuz, özbaşına edam etmə, ya da belə öldürməyə çalışmaq. **«Vətəndaş** Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt»ın Maddə 6-da bildirilib ki, hamının yaşamaq hüququ var və bu hüquq qanunla qorunur. Heç kimin diriliyini əlindən özbaşınalıqla almaq olmaz («İnsan Haqlarının Bütün Dünya üzrə Bəyənnaməsi»ndə Maddə 3-ə də baxın) Hökumətlər beynəlxalq qanunlar qarşısında üstlərinə götürüblər ki, İnsan haqlarının pozulması faktlarını araşdıracaqlar, ona görə də müstəqil qurumlar tərəfindən aparılan araşdırma heç cürə hökumətləri boyunlarına götürdükləri bu işdən azad etməməlidir. Həmin məsələ ilə bağlı hökumətlərin nələri üstlərinə götürdükləri «Qanunsuz, özbaşına, cəm halında öldürmələri effektiv öncələmək üçün Prinsiplər, eləcə də belə öldürmələrin araşdırılma yolları» adlanan sənəddə göstərilib. Bu sənəd Birləşmiş Millətlərin İqdisad və Sosial Şurasının qərarının (1989)65) bir bölümüdür.

**Vəhşicəsinə, insana yaraşmaz, ya da insanı alçaldan davranışlar, cəzalar, işgəncələr. «**İnsan Haqlarının Bütün Dünya üzrə Bəyənnaməsi»ndə Maddə 5- də şəxsiyyətin ləyaqət haqqı tanınır: *«Heç kimə işgəncə vermək olmaz, heç kimi amansız, insana yaraşmaz və ya onun heysiyyatını alçaldan davranışın, cəzanın hədəfi etmək olmaz».*

İnsanın şəxsi ləyaqəti alçalır o zaman, nə zaman ki, dövlət diqtə edərək, ya da açıqca razılıq verərək öz vəzifəlisinin, rəsmi sifətdə çıxış edən hər hansı adamının vasitəsi ilə insanı işgəncəyə salır, onun başına vəhşi, insana yaraşmaz, ləyaqəti alçaldan işlər gətirir və bunların hamısı fiziki, psixoloji, mənəvi əzablarla sonuclanır.

**Qanunsuz dustaqlamaq, ya da saxlamaq.** İnsanın şəxsi ləyaqəti alçalır o zaman, nə zaman ki, dövlət diqtə edərək, ya da açıqca razılıq verərək öz vəzifəlisinin, rəsmi sif ətdə çıxış edən hər hansı adamının vasitəsi ilə heç bir əsası olmadan, dustaq etməklə, ya hansı bir yerdəsə saxlamaqla, ya da ev dustağı etməklə insanın azadlığını əlindən alır. Bu praktika «İnsan Haqlarının Bütün Dünya üzrə Bəyənnaməsi»nin 9-cu maddəsində tanınmış insan azadlığına, toxunulmazlığına qarşıdır. Orada bildirilib: *«Heç kimi özbaşına dustaq etmək, tutub saxlamaq, qovmaq*

*olmaz».* Bu maddə həm də **«Vətəndaş** Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt»ın Maddə 9-nun 1-ci bəndinin əsasında durub. Bundan başqa Birləşmiş Millətlərin İnsan Haqları üzrə Komissiyasının verdiyi və 1992-ci ildə çap etdirdiyi soraqcada yazılıb: *«düşüncəni azad bildirmək üstündə cəzalandırmağın bir vasitəsi kimi insanı tutub saxlamaqq zorla dinməzlik yaratmaqdır, ona görə də çox qınanılası bir metoddur və insan haqlarının ciddi pozuntusudur».*

**Düşücə azadlıqlarından, düşüncələrini bildirmə azadlıqlarından, birliklərə qoşulmaq azadlıqlarından istifadə etmək üstündə insanlara hücum etmək, onları qorxutmaq.** Mətbuatla bağlı informasiya haqqının başqa növ pozuntusu bunlardır:

- iş yerlərinə saldırı-hücum (redaksiyaya, nəşr yerlərinə saldırılar),
- hüquqi, adminstrativ basqılar-təzyiqlər,
- yurdiçi informasiyanın azad gəzməsinə əngəllər qoymaq;
- beynəlxalq informasiyanın azad gəzməsinə əngəllər qoymaq.

Haqqpozuntuları üzrə soraqcanı sonda yaxşı yazmaq çox vaxt yuxarıdakı bölgüləri göz qabağında saxlamaqdan asılı olur. Onu da bilmək gərəkdir ki, dövlətin diqtəsi, ya da açıqca razılığı ilə onun vəzifəlisinin, rəsmi sif ətdə çıxış edən hər hansı adamının törətdiyi işlər haqqında araşdırıcı soraqca yazmalıdırsa, o, silahlı müxalif ətin diqtəsi, ya da açıqca razılğı ilə hər hansı adamın törətdiyi əməllərə də eyni diqqətlə yanaşmalıdır.

- İkinci pillədə araşdırıcılar haqqpozuntusunun qurbanlarından gələn informasiyanı yoxlamalıdırlar. Eləcə də bütün əlavə sübutlar toplanmalıdır. Sonralar haçan ələ düşsə, suçlanan hakimiyyət orqanı ilə həmin sübutlarla bağlı sorğu aparılmalıdır...

- Üçüncü pillə soraqcanı hazırlayıb yazmaqdır.

Məsləhətdir ki, araşdırmanın gedişində araşdırıcı haqpozuntusunun qurbanını, ailəsini qorumaq üçün bütün uyğun ölçüləri götürsün.

### 3. Fərdi şahidlərin verdiyi sübutların toplanması

Bu, araşdırma prosesinin önəmli pilləsidir. İmkan olanda araşdırıcılar söhbətləşmə aparıb şahidlər haqqında olanları toplamalıdırlar, məsələn, adları nədir, inamlarını nə ilə qazanmaq olar, baxışları nədir, dönməz inancları hansılardır? Bu pillədə araşdırıcı öyrənməlidir ki, soruşdurduğu adam haqpozuntusunun qurbanıdır, şahiddir, yoxsa haqqı pozmaqda gümanlanan canidir.

Şahidlər azad şəkildə sorğulanmağa razılıq verməlidirlər. Yaxşı olar ki, eyni cinsdən olan adam onları sorğu-sual etsin. Görüşdən sonra soraqca (raport) yazılanda şahidin necə davranması anılmalıdır (jestləri, sinirli, acıqlı olması və s.) Tekstdə bildirmək

gərəkdir ki, sorğu zamanı audio, vidio yazmaları, foto çəkilişləri olub ya olmayıb. İdeal durum odur ki, şahidin soruşulmasında iki araşdırıcı olur. Şahid yanında dostunun, ya qohumunun durmasını istəyə bilər.

Tərcüməçilər (çeviricilər) hə m araşdırıcının, həm şahidin dilini yaxşı bilməlidir. Onlar sübutları dəyişdirməməlidirlər, məsələn, şahidin söylədiklərini yuvarlaq edərək, ya onun verdiyi sübutlarda boşluq duyub başqa əldən alınmış informasiya ilə bu boşluğu doluraraq, ya da aydın görünməyən, ziddiyyətli yerlərdə «yaxşılaşdırmaq» üçün «düzəlişlər» edərək şahidin söylədiklərini dəyişdirmə məlidirlər.

İmkan olan kimi araşdırıcı standart suallar dəstindən istifadə etməlidir. Bu, kömək edər ki, araşdırıcı sorğunu yaxşı aparsın, əldə edilmiş bilgiləri növlərə düzsün, arxayın olsun ki, önəmli şeyləri unutmayacaq. Eyni zamanda bu suallar araşdırmaya əngəllər də qoymamalıdır.

Aşağıda verdiyimiz suallar dəsti Birəşmiş Millətlərin Reporters Sans Frontieres-in Soraqcasından götürülüb. Bu sənədlər toplanası sübutların necəliyi, dəqiqlik dərəcəsi haqqında təsəvvür yaradır. Ancaq araşdırıcılar yadda saxlamalıdırlar ki, həmin sualların əldə olması həm onlar üçün, həm də haqpozuntusunun qurbanı üçün bəlli bir qorxu daşıyır. Onun üçün də bu suallar çox gizli saxlanmalıdır.

Müsahibələrin götürüldüyü durum yazı ilə, ya da başqa vasitə ilə fiksə olunmalıdır.

- müsahibə zamanı arada bulunan bütün adamların adlarını yazın, onların bu işdə yerlərini göstərin,
- istəyin ki, soruşulan adam aydınca bildirsin ki, dindirilməyə razıdır,
- soruşun ki, suallanan adam müsahibə alınması yolu ilə razıdırmı,
- müsahibənin gizlilik baxımından qoyduğu cızıqları bilin (üçüncü tərəfin iştirakının vacib olub-olmaması),
- soruşun ki, suallanan adam tərcüməçini yaxşı anlayır, ya yox, onun cavablarının tərcüməsindən razıdırmı.

ArAraşdırıcı müsahibəni dirənişlə aparmalıdır və bunlara əməl etməlidir:

- hər dəfə yalnız bir sual verməlidir,
- yönəldici sorulardan qaçmalıdır,
- sadə suallar verməlidir,
- elə soruşmalıdır ki, cavablar detallaşdırıcı olsun («hə», «yox» cavablarını oyadan suallar olmasın),

sualı pozitiv şəkildə verməlidir (məsələn, «Həmin gün harada olmusan?» şəklində, «Hadisənin gedişində sən də vardın, düzdür?» şəklində yox)

**Sənəd 1**

**Birləşmiş Millətlərin suallarından seçmələr**

***Gizlidir***

*İnsan haqlarının pozulmasmının f ərdiolayları ilə bağlı suallar*

№:

Tarix:
**1**
**Haqpozuntusunun qurbanı**

- Soyadı:
- Adı:
- Cinsi:
- Anadan olduğu tarix və yer:
- Göstərdiyi sənədin düzlüyü: (tipi, nömrəsi, verilmə tarixi, bitmə vaxtı)
- İşi:
- Öncəki işi:
- Təhsili (məktəbin adı):
- Siyasi partiyanın və ya həmkarlar birliyinin üzvü olması:
- İndiki ünvanı:
- Həmişəki ünvanı:

**(2) Haqpozuntusu**

- Günü ayı, ili:
- Yeri (ölkə, bölgə, şəhər, olarsa dəqiq yeri):
- Hansı şəraitdə olması (necə baş verdiyini göstərin):
- Saxlanmanın gümanlanan yeri:
- Buraxılmanın günü:
- İşgəncə, əzab vermə (dustaq edilmənin, aparılmanın, dustaq saxlanmanın, dindirilmənin, buraxılmanın haçan olduğunu göstərin, eləcə də əzab vermənin təbiətini, davamlığını, utezliyini göstərin, nə qədər adamın buna cəlb olunmasını, olarsa, onların adlarını da yazın, əzab verərəkən onlardan hər birinin etdiklərinin sonucunu təsvir edin, bu sonucların nə vaxt bilinməsini göstərin):
- Sizcə, hakimiyyət orqanının motivləri nə idi? Sizcə nə etsəniz haqpozuntusunun baş vermə faktını boyunlarına alarlar?
- Şəraiti göstərin (aayrıca saxlanma, yanına buraxılmağa ixtiyar verilməsi, yemək):
- Haqpozuntusu üçün birbaşa suçlu olan adamlar haqqında nə bilirsiniz?

**3 İnformasiya qaynaqları (əgər haqpozuntusunun qurbanından başqa adam da varsa)**

- Soyadı:
- Adı:
- Ünvanı:
- Haqpozuntusunun qurbanı ilə ilişgisi:

**(4) Şahidlər (əgər haqpozuntusunun qurbanı, haqpozuntusunu xəbər verəndən başqa adam varsa)**

- Soyadı:
- Adı:
- Ünvanı:
- Haqpozuntusunun qurbanı ilə ilişgisi:

**(5) Araşdıranın informasiya qaynaqları ilə bağlı hər hansı önəmli açıqlamanız var?**

**(6) Araşdırıcının məsələ ilə bağlı birbaşa etdikləri (siyasi, hərbi, hüquqi hakimiyyət adamları ilə kontakta girməsi, məsələn, aldığı bilgiləri yoxlamaq üçün)**

**1 İnformasiya qaynağı (haqpozuntusunun qurbanı), şahid araşdırandan nəyi xahiş edir?**
**İnformasiya qaynağı (haqpozuntusunun qurbanı), şahidlər öz adları ilə onlara istinad edilməsinə razıdırlar? Razıdırlar ki, onların verdiyi informasiyadan hakimiyyət nümayəndələri ilə ilişgidə, ya da çap olunan soraqcada istifadə edilsin?**

**Sənəd 2**

**Sans Frontieres soraqcalarının işlətdiyi standart sorğular**

***Gizlidir***
**(1) Sorğunun necə aparılması haqqında bilgi**

- Sorğu (hansı tarixdə, hansı yerdə):
- (soyad, ad, titul, qurumda rolu) tərəfindən aparılıb.
- Sorğuda bulunan adamlar:
- Sorğulanan şəxs könüllümü cavab verir və sorğunun aparılma metodu ilə razıdırmı (aşağıdakı sənədin altından qol çəkərmi: «Mən, bu sənədi qollayan şəxs inandırıram ki, könüllü buradayam, sorğunun aparılma metodu ilə razıyam»)
- Sorğulanan şəxs tərcüməçini yaxşı anlayırmı? Onun sözlərinin tərcüməçi

tərəfindən çevrilməsindən razıdırmı? (aşağıdakı sənədin altından qol çəkərmi: «Mən, bu sənədi qollayan şəxs inandırıram ki, bu sorğulamada bulunan tərcüməçini anlayıram və məni necə tərcümə etməsindən razıyam»)
- Sorğunun gizliliyinə uyğun olan mümkün məhdudiyyətlər:

**(2) Haqpozuntusunun qurbanı haqqında bilgi**

- Soyadı, adı:
- Anadan olduğu tarix və yer:
- Cinsi:
- İndiki ünvanı:
- Həmişəki ünvanı:
- Əsl millətinin və indiki millətinin ölkəsi:
- Dini və etnik kökü (əgər olarsa):
- Ailə durumu, əlinə baxanlar (soyadlarını, adlarını, yaşlarını, işlərini, ünvanlarını verin):
-Hərbi statusu (hərbi xidmətə çağrıla bilər, indi hərbi xidmətdədir, ehtiyat hissəsindədir, öncədə peşəkar əsgər olub):
- İşi, öncəki işi, sonrakı vəzifəsi:
- Siyasi partiyanın və ya həmkarlar birliyinin üzvü olması:
- Yada salınmasını istədiyiniz başqa bioqrafik faktlar (haqpozuntusu ilə bağlı başınıza, işçilərinizin, ya da ailənizin başına gələn işlər, Sizin siyasi, sosial, dini və ya etnik ilişgiləriniz...):

**(3) Dustaq edilən vaxt**

- Günü, ayı, ili:
- Yer (ev, iş yeri, başqa yerlər):
- Kim dustaq edib (polis, hərbçilər, başqaları):
- Dustaqlamaq haqqında sənəd ya da göstərilmiş başqa sənəd:
- Soruşmusunuz ki, niyə Sizi dustaq edirlər?
- Dustaq edilən zaman Sizin haqlarınızı pozublar?
- Bu zaman şahidlər olub?
- Sizin şəxsi şeyləriniz, peşə nəsnələriniz (yazı dəftərçəniz, ünvan kitabçanız, sənədləriniz, kameranız, maqnitafonunuz, kassetləriniz, qəzetləriniz) götürülüb və Siz onları qaytarmaq haqqında ərizə vermisiniz?
- İcazə veriblər ki, ailənizə, vəkilinizə, müdriyyətinizə xəbər verəsiniz?
- Tutulduğunuz vaxt evinizdə, ofisinizdə axtarış aparıblar?
- Ailə üzvlərinizi hədəliyiblər?

**(4) Dustaq saxlananda**

- Türmənin adı və yeri:
- Dustaqlıq nə qədər çəkib:

- Dustaqlığın kateqoriyası və tipi (siyasi, cinayətkarlıq, ruhi xəstəlik, cins, yaş, etnik kök, din):
- Hansı şərait (kamerada saxlanma, kameradakıların sayı, yataq, pəncərə, ventilyasiya, temperatura, işıqlılıq, su verilməsi, sanitariya, dustaqların hamısının sayı və s.):
- Yemək (yeməyin çeşidi, qədəri, dini orucluğa sayğı, insanın gərəklərinə fikir verilməsi):
- Fiziki yoxlanılmaq üçün şərait yaradılması, dustaqların bütünlükdə sağlamlıq vəziyyəti:
- Qohumların, dostların, hə mkarların, vəkillərin, həkimlərin baş çəkməsinə icazə verilməsi:
- Bağlı, poçt, qəzet, kitablar almağa icazə verilməsi:
- Türmənin ştatı ilə münasibət (cəzalandırma hallarının tipi, tezliyi, sonucları):
- Sizi dindiriblər?
- Əgər dindiriblərsə, kim onu aparırdı, nə qədər çəkirdi, hansı şəraitdə sorğu edirdi, hansı mövzuda?
- Siz hədələnirdiniz, istəyirdilər ki, hansısa bildiriyə (bəyanata) qol çəkəsiniz?
- Başqa bildirmək istədikləriniz:

**(5) Məhkəmə araşdırmalarında**

- Araşdırmanın vaxtı və yeri:
- Araşdırma zamanı Siz məhkə mə zalında idiniz?
- Araşdırma kamerada aparılırdı?
- Nə üstündə suçlanırdınız?
- Orada Sizi müdafiə edən başqa adam olurdu?
- Yabançı müşahidəçilər iştirak edirdi?
- Mülkü, yoxsa hərbi məhkə mə gedirdi?
- Qanunlara söykənirdilər?
- Prosesə sədrlik edən hakimin adı:
- Nə hökm verilib?
- Müdafiəçiniz iş aparılanda məhəkəmə zalında bulunurdu?
- Müdafiəçinizin soyadı, adı, ünvanı:
- Müdafiəniz nədən ibarət idi?

- Apelyasiyanız olub?
- Hesab edirsiniz ki, Sizinlə bağlı araşdırma, apelyasiyanız haqqında məhkəmə qərarı qanunidir (açıqlayın):
- Türməyə hökmdən sonra aparılmısınız (əgər məhkəmə araşıdırmasından qabaq saxlandığınız yerdən ayrı yerə aparılırsınızsa):

**(6) İşgəncə verilən, əzaba salınan hallarda**

- Harada Sizə işgəncə veriblər, ya da vəhşi, əzabverici əməllərə hədəf ediblər?
- İşgəncə vermələrini nə iləsə təmizə çıxarmağa çalışıblar?
- Sizcə işgəncə vermələrinə, vəhşi, əzabverici əməllərə hədəf etmələrinə səbəb nə olub?
- İşgəncə haçan olub? (tutulan zaman, aparılan zaman, sorğu ediləndə, buraxılmamışdan öncə)
- Sizə əzab verilməsində neçə adam iştirak edib?
- Onları tanıya bilərsinizmi?
- Onlardan hər birisinin etdiklərini göstərin:
- Orada həkim olub?
- Həkimin rolunu göstərin (öncələr onu görmüşdünüzmü, işgəncədə iştirak edirdimi)?
- Sizi zorla kağıza qol çəkdirmək istəyirdilər ki, guya Sizə işgəncə verilməyib?
- Orada başqa adamlara da işgəncə verilirdi?
- İşgəncənin, vəhşi hərəkətlərin, əzab vermələrin xarakterini, nə qədər çəkməsini, tezliyini, sonuclarını göstərin:
- İşgəncədən, vəhşi hərəkətdən, əzab vermədən sonra Sizə tibbi yardım edilib?

**(7) Mediyanın işlərinə əngəllər qoyulanda**

Sübutlar verdiyiniz mediyanın adı, ünvanı, tipi:

Müşahidə etdiyiniz əngəlləri göstərin:
Əgər hücum, yağmalama, yandırma olubsa, necə baş verdiyini və ziyanın dərəcəsini göstərin:

Qəzet saxlanılıbsa, yayıma cızıq qoyulubsa, bunların tipini, dərcəsini göstərin:

Hüquqi, adminstrativ, iqtisadi yolla basqılar edilibsə, basqıların tipini və dərəcəsini göstərin:

**Fəsil 5**

Mətbuat azadlığının pozulması haqqında bilgi qısa və anlaqlı olmalıdır. Reporters

Sans Frontieres haqpozuntusu araşdırıcılarının istifadəsi üçün on başlıq üzrə istiqamətləri göstərir, bu istiqamətlər üzrə toplanmış bilgi onun İllik Raportunun bəndlərini əmələ gətirir. Həmin istiqamətlərin verdiyi kateqoriyalar ildən-ilə ayrı-ayrı ölkələr üzrə toplanmış soraqları tutuşdurmağı asanlaşdırır.

**Öldürülümüş jurnalistlər.** Götürülmüş ölkədə milli və beynəlxalq jurnalistl ərin öldürülməsi. Bu sıraya yalnız iş başında peşələrinə, ya da düşüncələrinə görə öldürülülmüş jurnalistl ər düşür. Mümkün olduğu qədər «öldürülmüş» və «ölmüş» jurnalistləri ayırmaq gərək.

Öldürülmüş jurnalistl ər o jurnalistl ərdir ki, ayrıca hazırlanmış, hədəfli saldırının, hücumun şəxsən tuşa götürülmüş qurbanı olurlar. Edam qanunsuz sayılır, əgər o, ictimai qurumun rəsmiləri tərəfindən verilmiş göstərişlə, ya rəsmi sif ətdə çıxış edən, ya da dövlətin diqtəsi, açıq razılığı ilə hərəkət edən hər hansı adamın əli ilə yerinə yetirilmirsə. Məhkə mənin hökmü ilə yerinə yetirilmiş bəzi edamlar da özbaşınalıq sayılır. O zaman sayılır, nə zaman ki,
«Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt»ın Maddə 14, 15- də göstərilmiş müdafiə hüquqlarına sayğı göstərilmir. Ancaq Reporters Sans Frontieres Məhkəmə qərarı ilə kəsilmiş ölüm cəzasının da yerinə yetirilməsinə qarşı çıxır, necə ki bütün vəhşi, insana yaraşmaz, alçaldıcı cəzalara qarşı çıxır. Bu zaman «Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt» da verilmiş müdafiə hüquqlarına sayğı göstərilməsi onu bu mənfi münasibətdən daşındırmır.

Ölmüş jurnalistlər o jurnalistlərdir ki, qatillər tərəfindən şəxs olaraq hədəfə götürülmədən, sadəcə, yerinə yetirdikləri işlər zamanı müharibə vəziyyətində ölüblər.

**Jurnalistin itgin düşməsi.** O jurnalist itgin sayılır ki, harada olması bilinmir, ailəsi, dostları, həmkarları hesab edir ki, yox olması peşəsi, düşüncəsi ilə bağlıdır. Öz azad istəkləri ilə gizlinə çəkilmiş, özlərindən soraq verməmək qərarını çıxarmış jurnalistlər itgin sayılmırlar. O biri yandan olay «zorla jurnalisti yoxa çıxarmış» sayılır, əgər jurnalist dustaq edilibsə, oğurlanıbsa, saxlanıbsa, azadlığı əlindən alınıbsa və bütün bunlar dövlət rəsmiləri, təşkil olunmuş qrup, ya da ayrıca hərəkət edən adam tərəfindən dövlətin, birbaşa ya dolayı diqtəsi ilə, açıq razılığı ilə yerinə yetirilibsə və eyni zamanda əgər hakimiyyət jurnalistin harada olmasını açmırsa, juranlistin başına nə gəldiyini bildirmirsə, ya da tanımaq istəmir ki, jurnalistin azadlığı əlindən alınıb. Haqpozuntusunun araşdırıcısı bunları tapmalıdır: jurnalist tutulub, yoxsa dövlət rəsmiləri, ya rəsmi sifətdə çıxış edən, ya da dövlətin diqtəsi, açıq razılığı ilə hərəkət edən hər hansı adamın əli ilə aradan götürülüb?

**Jurnalistə işgəncə verilməsi:** jurnalist işinə, düşüncəsinə görə aşırı psixoloji, fiziki təsirlərə uğradılır. İşgəncə olayalırnda müstəqil həkimin soraqcasına ehtiyac yaranır, soraqcada həkim pis davranışları, onların sonuclarını spesifikləşdirməyə çalışmalıdır.
**Jurnalist dustaq ediləndə:** Türmədə, polis yerində, dustaq düşərgəsində, eləcə də

tutub saxladılmanın başqa yerlərində 48 saatdan çox saxlanılan jurnalist dustaq sayılır. Qanuni, ya da özbaşınalıqla türməyə salınma, ev dustağı edilmə halları yazıya alınmalıdır. Araşıdırıcı imkan olduqca jurnalistin hansı durumda tutulmasnı yadda saxlamalıdır. Hə min kateqoriya üçün yeganə f ərqləndirici ölçü 48 saatlıq vaxtdır. Bu kateqoriya jurnalistin dustaq edilməsi haqqında bildiri haçan verilirsə, o an işə düşür. Jurnalist preventiv məqsədlə saxladılanda, göz altına alınanda və başqa hallarda vaxt 48 saatı keçibsə, fakta bu kateqoriyadan baxılır.

**Jurnalist tutulanda: jurnalist** 48 saatdan az vaxtda türmədə, polis idarəsində, dustaq düşərgəsində, hər hansı başqa saxlanma yerlərində saxlanılanda tutulmuş sayılır.

**Jurnalistə salıdın (hücum) ediləndə:** peşəsinə, ya da düşüncəsinə görə jurnalist işini görəndə ona hücum edirlər, onu vururlar, yaralayırlar. Bu kateqoriyaya yalnız və yalnız jurnalisti xəbərdarlıq etmək məqsədi ilə onun qohumlarına, dostlarına, qonşularına hücum edilməsi də girir. Özbaşına edam və ya edamı yamsılama da bu kateqoriyadan sayılır (eyni zamanda edamı yamsılamaya işgəncə kimi də baxılır)

**Jurnalistə qorxu gəlirlər, onu təşvişə salırlar:** bu zaman jurnalist dövlət, siyasi partiya, yaraqlı qruplar, dini icmalar tərəfindən birbaşa, ya dolayı gələn qorxunun şəxsi, ya da kollektiv qurbanı olur, bütün bunların, eləcə də hər hansı anonim hədənin məqsədi jurnalisti azad şəkildə öz işini yerinə yetirməkdən çəkindirmək olur.

**Adminstrativ, hüquqi, iqtisadi basqı:** istənilən vaxt jurnalisti, ya da mediyanı məhkəməyə çəkirlər. Məhkəməyə çəkmək olayına bəzən əsas olsa da, mətbuat azadlığına basqı anlayışı böhtana görə cavabdeh etməyi də, siyasi motivləri aydın olan və ya məhkəmə qərarları açıqca qondarma olan başqa hüquqi basqıları da özünə qatır.

**Yurd içində informasiyanın azad gəzməsinə əngəllər qoyulur:** buna aiddir çapa yasaqlar qoyulması, qəzetin çıxmasını hələlik saxlamaq, elektron mediyanın (televizyonun, radionun, elektron kommunikasiyanın) yayınına əngəllər qoyulması, yazıların, audio, vidio maqnitafonların, filmlərin, başqa informasiya materiallarının müsadirə edilməsi və s.

**Beynəlxalq informasiyanın gəzməsinə əngəllər qoyulması:** buna yabançı reportyorların, müxbirlərin dustaq edilməsi, saxladılması, onlara viza verilməməsi, gətirdikləri qəzetlərin, başqa mediya materiallarının alınması aiddir. Dövlətin, siyasi, hərbi qrupun ölkəyə girən, ölkədən çıxan informasiyanın qarşısını almaq üçün yeritdiyi bütün metodlar bu bəndə aiddirlər.

(İngiliscədən çevirəni Niyazi Mehdidir) **(«Sizin üçün yaddaş kitabı»nı hazırlayanlardan: bu bölmədəki məsləhətlər söz azadlığı ilə bağlı olsa da onlar işini yaxşı qurmaq istəyən Haqoruyucu qurumların hamısına gərəkli ola bilər. Eləcə də, Sənəd 1 və Sənəd 2 başqa haqların pozuntusunu da sənədləşdirmək**

**üçün uyğun formalardır. O biri yandan, qurumlara haqlarının pozulmasından bilgi vermək istəyən vətəndaş da bilgini həmin formalarda yazıya ala bilər)**

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

## İnsan haqları ilə bağlı beynəlxalq sənədlər

(Sənədləri rus dilindən Niyazi Mehdi çevirib)

### İnsan Haqlarının Bütün Dünya üzrə Bəyənnaməsi

### Ön söz

*Tanıyaraq ki,* insan ailəsində hər kəsin ləyaqəti, bərabər və alınmaz haqları var, bunu qəbul etmək azadlığın, ədalətin, eləcə də dünya barışının təməlidir,

*tanıyaraq ki,* insan haqlarına vecsizliklə, nifrətlə yanaşmaq vəhşi əməllərdə sonuclanıb, bu isə bəşər vicdanını hiddətləndirir, *tanıyaraq ki,* insanların ucalıqla can atdığı dünya məqsəd olaolaraq elə bir aləmdir ki, orada adamların söz, inam azadlığı olacaq, onlar qorxudan, ehtiyacdan azad olacaqlar; və bir də

*tanıyaraq ki*, insan haqları qanunun hökmü ilə qorunmalıdır, belə olanda insan əlacsız qalıb müstəbidə, zülmə qarşı axırıncı vasitə olaraq qiyam qaldırmağa zorunlanmır; və bir də

*tanıyaraq ki,* xalqlar arasında dostluq ilişgilərinə yayardım gərək; və bir də

*tanıyaraq ki*, insanın başlıca haqlarına, şəxsiyyətin heysiyyatına, dəyərinə, kişilərlə qadınların bərabər haqlarına inamı Birləşmiş Millətlərin xalqları təsdiq ediblər, daha çox azadlıq çərçivəsində sosial gəlişməyə, yaşama şəraitini yaxşılaşdırmağa yardım göstərməyi qət ediblər; və bir də

*tanıyaraq ki*, Birləşmiş Millətlər Təşkilatına qoşulmuş dövlətlər üstlərinə götürüblər ki, insan haqlarına, eləcə də başlıca azadlıqlara sayğı göstərmək və əməl olunmaq işinə yardım edəcəklər, özü də həmin işdə Birləşmiş Millətlər Təşkilatı ilə birgə çalışacaqlar; və bir də

*tanıyaraq ki*, bu haqların, azadlıqların necəliyinin hamıya anlaqlı olması həmin öhdəliyi tam yerinə yetirmək baxımından çox önəmlidir,

**Baş Assambleya**
indiki
**İnsan Haqlarının Bütün Dünya üçün Bəyənnaməsini**
bəyan edir,

bəyan edir elə bir vəzifə kimi ki, bütün xalqlar, bütün dövlətlər ona can atmalıdırlar, can atmalıdırlar ki, hər kəs, toplumdakı hər bir qurum indiki Bəyənnaməni düşünərək çalışsın, çalışsın ki, biliklendirmə, təhsil yolu ilə bu haqlara, azadlıqlara sayğı olmasına yardım etsin, çalışsın ki, milli və beynəlmiləl qatda irəliçi işlər vasitəsi ilə bu haqların həm Təşkilata qoşulmuş dövlətlərin xalqları arasında, həm də bu dövlətlərin yurisdiksiyasında olan xalqlar arasında hamılıqca, effektiv şəkildə tanıdılmasını, gerçəkləşdirilməsini təmin etsin.
Bütün insanlar azad, heysiyyat və haqlar baxımından bərabər doğulurlar. Onlara zəka ilə vicdan verilib, onlar bir-biri ilə qardaş kimi davranmalıdırlar.

*Madd ə 2*

Hər bir insanda bu Bəyənnamədə səsləndirilmiş haqların, azadlıqların hamısı olmalıdır, olmalıdır heç bir ayrı-seçkilik salınmadan, olmalıdır nə irq, nə dərinin

*Madd ə 1*

rəngi, nə cins, nə dil, nə din, nə siyasi və ya başqa inamlar baxımından ayrı- seçkilik salınmadan olmalıdır, nə milli, nə sosial, nə sinif, nə mülkiyyət və ya digər yöndən kimlərdən olması baxımından ayrı-seçkilik salınmadan.

Bundan başqa, insanın mənsub olduğu ölkənin, bölgənin siyasi, hüquqi, yaxud beynəlxalq statusu necə olsa da bunun əsasında onun haqqında heç bir ayrı-seçkilik salınmamalıdır və bu zaman heç bir f ərq qoyulmalıdır ki, həmin ölkə, bölgə müstəqildir, himayədədir, özünü idarə etmir və ya öz suverenliyində nəsə başqa cızığa salınıb.

*Madd ə 3*

Hər bir insanın yaşamağa, azadlığa, şəxsi toxunmazlığa haqqı var.

*Madd ə 4*

Heç kim qul edilə bilməz, heç kimi əsarətdə saxlamaq olmaz, qul etmək və qul alveri bütün formalarda yasaqdır.

*Madd ə 5*

Heç kimə işgəncə vermək olmaz, heç kimi amansız, insana yaraşmaz və ya onun heysiyyatını alçaldan davranışın, cəzanın hədəfi etmək olmaz.

*Madd ə 6*

hər bir insan harada olur-olsun, haqqı var ki, hüquq subyekti kimi tanınsın.

*Madd ə 7*

Bütün insanlar qanun qarşısında bərabərdirlər və hamının haqqı var ki, qanun ayrı-seçkilik salmadan onları bərabər qorusun. Bu Bəyənnaməni pozan hər hansı ayrı-seçkilikdən və ayrı-seçkiliyə sürüklənmədən qorunmağa hamının bərabər haqqı var.

*Madd ə 8*

Hər bir insanın haqqı var ki, Ana Yasanın, ya da qanunun ona verdiyi başlıca haqları pozularsa, uyğun milli məhkəmə onun hüquqlarını bərpa etsin.

*Madd ə 13*

*Madd ə 9*

Heç kimi özbaşına dustaq etmək, tutub saxlamaq, qovmaq olmaz.

*Maddə 10*

Hər bir insanın haqqı var ki, onun haqlarını bəlli etmək üçün, ona qarşı sürülmüş cinayət suçlamasının əsaslı olub-olmamasını aydınlaşdırmaq üçün asılısız, tərəfkeşsiz məhkəmə keçirilsin, tam bərabərlik çərçivəsində aydınlıq işığında, ədalətin bütün tələbləri ilə onun işi araşdırılsın.

*Maddə 11*

1. Hər bir insanın haqqı var ki, cinayətdə suçlanarsa, məhkəmə aydınlıq işığında onun işinə baxıb qanun qaydaları çərçivəsində onun suçunu sübuta yetirənəcən günahsız sayılsın, həm də bu məhkəm elə olmalıdır ki, insanın özünü qoruması üçün ona bütün imkanlar verilsin.

2. Heç kim cinayətdə suçlana bilməz, əgər buna əsas verən nəyisə etdiyi, ya etməkdən çəkindiyi zaman milli qanunlar, eləcə də beynəlxalq hüquq o hərəkəti və ya hərəkətsizliyi cinayət bilməyibsə. Eləcə də cinayət edilən zaman veriləsi cəzadan sonralar həmin cinayətə daha ağır cəza kəsmək olmaz.

*Madd ə 12*

Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla qarışmaq olmaz, heç kimin yaşayış yerinin toxunulmazlığına, yazışma sirlərinə, şərəfinə, nüfuzuna özbaşınalıqla qəsd etmək olmaz.

1. Hamının haqqı var ki, azad şəkildə yerini dəyişə bilsin, hər bir dövlətin sərhədləri içində özünə yaşayış yeri seçə bilsin.

2. Hər bir insanın haqqı var ki, istənilən ölkədən, eləcə də öz ölkəsindən qopub getsin və haqqı var ki, öz ölkəsinə qayıtsın.

*Madd ə 14*

1. Hər bir insanın haqqı var ki, təqiblərdən yaxa qurtarmaq üçün başqa ölkələrdə sığınacaq axtarsın, eləcə də başqa ölkələrdəki sığınacaqdan istifadə etsin.

2. Əgər siyasi olmayan cinayətə, ya da Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə qarşı duran işlərə görə insan təqib edilirsə, o bu haqlardan istifadə edə bilməz.

*Madd ə 15*

1. Hər bir insanın haqqı var ki, vətəndaşlıq alsın.

2. heç kimin vətəndaşlığını, ya da vətəndaşlığını dəyişdirmək haqqını özbaşınalıqla almaq olmaz.

*Maddə 16*

1. Ərsəyə çatmış kişi və qadınların haqqı var ki, irqi, milli, dini baxımdan heç bir məhdudiyyət olmadan evlənsinlər, ailə qursunlar. Həm evlənəndə, həm evlilik vaxtında, həm də boşananda onların bərabər haqları var.

2. Hər iki evlənənin azad, eləcə də tam razılığı olarsa, evlənmə baş tutmalıdır.

3. Ailə toplumun təbii, başlıca özəyidir və toplum, dövlət tərəfindən qorunmağa haqqı var.

*Maddə 17*

1. Hər bir adamın haqqı var ki, ya bircə özünün, ya da başqası ilə şəriklikdə

*Madd ə 13*

mülkiyyəti olsun.

2. Heç kimin mülkiyyəti özbaşınalıqla əlindən adına bilməz.

*Madd ə 18*

Hər bir insanın haqqı var ki, düşüncə, vicdan, din azadlığı olsun; bu haqlar sırasında dinini, inancını dəyişmək azadlığı da durur, bu haqlar sırasında eləcə də insanın ya təklikdə, ya başqaları ilə birlikdə, ya camaat arasında, ya da özünə çəkilərək dindarlığını yerinə yetirmək azadlığı da durur, özü də bu dindarlığı yerinə yetirmək təlim, sitayiş və ayinlər formasının hər hansı birində ola bilər.

*Madd ə 19*

Hər bir insanın haqqı var ki, inamlarına görə azadlığı olsun, inamlarını azad şəkildə bildirsin; bu haqqda insanın əngəlsiz olaraq öz inamında qalması da var, bu haqq eləcə də insanın hər hansı vasitə ilə, dövlətin sərhədlərindən asılısız informasiya, ideyalar axtarmaq, almaq, yaymaq azadlığını da özünə qatır.

*Madd ə 20*

1. Hər bir insanın dinc toplantılara, birliklərə azadlıq haqqı var.

2. Heç kimə hər hansı birliyə qoşulmaq üçün zor etmək olmaz.

*Madd ə 21*

1. Hər bir insanın haqqı var ki, ya birbaşa, ya azad seçilmiş nümayəndələrin araçılığı ilə ölkəsinin idarə edilməsinə qoşulsun.

2. Hər bir insanın haqqı var ki, başqaları ilə bərabər o da ölkəsinin dövlət xidmətinə buraxılsın.

3. Xalqın iradəsi hökumətin hakimiyyətinin özülündə durmalıdır; bu iradə vvaxtaşırı olan, saxtalaşdırılmayan seçkilərdə özünü bildirməlidir, həm də bu seçkilər hamılıqca, bərabər seçki hüququ şəraitində, gizli və ya səsvermə azadlığına tən gələn başqa formalarda keçirilməlidir.
Hər bir insanın toplum üzvü kimi haqqı var ki, sosial baxımdan tə min olunsun, haqqı var ki, ləyaqətini saxlayan, şəxsiyyətinin azad gəlişməsinə gərəkli olan iqtisadi, sosial, mədəni hüquqlar, ya milli çalışmalar, ya beynəlxalq əməkdaşlıq vasitəsi ilə gerçəkləşdirilsin, özü də bütün bunlar hər ölkənin öz strukturuna, sərvətlərinə uyğun olmalıdır.

*Madd ə 22*

*Madd ə 23*

1. Hər bir insanın işləmək haqqı var, haqqı var ki, iş yerini azad seçsin, haqqı var ki, iş şəraiti ədalətli, əlverişli olsun, haqqı var ki, işsizlikdən qorunsun.

2. Hər bir insanın haqqı var ki, onun zəhmətinə bərabər olan zəhmətə görə başqalarına verilən əməkhaqqı ayrı-seçkilik salınmadan ona da verilsin.

3. hər bir işləyən adamın haqqı var ki, işinə görə ədalətli, təminedici zəhməthaqqı alsın, bu zəhməthaqqı elə olmalıdır ki, hə m ona, həm ailəsinə insana layiq yaşayış versin və bu zəhməthaqqına gərəksə, sosial təminatın başqa vasitələri də artırılmalıdır.

4. Hər bir insanın haqqı var ki, həmkralar birlikləri yaratsın və ya öz maraqlarını qorumaq üçün həmkarlar birliyinə qoşulsun.

*Madd ə 24*

Hər bir insanın haqqı var ki, dincəlsin, boş vaxtı olsun, bütün bunlara iş vaxtının ağılabatan şəkildə azaldılması, ödənişi olan vaxtaşırı məzuniyyət də aiddir.

*Madd ə 25*

1.hər bir insanın elə yaşayış səviyyəsinə haqqı var ki, - bura yemək də, geyim də, sağlamlıq xidməti də, gərəkli sosial qulluqlar da aiddir, - şəxsi sağlamlığını, özünün, ailəsinin yaxşı durumunu saxlaya bilsin, hər bir insanın haqqı var ki, işsiz, xəstə, şikəst, dul olanda, onu qocalıq haqlayanda və ya ondan asılı olmayan hallara görə dolanışığı olmayanda təmin edilsin.

2. Analıq və körpəlik özəl himayəyə, yardıma haqq verir. Bütün uşaqlar evlilikdə, ya evlisizlikdə doğulmalarından asılı olmayaraq sosial baxımdan bərabər qorunmalıdır.

1. hər bir insanın haqqı var ki, təhsil alsın. Təhsil, özü də heç olmasa, başlanğıc və ümumi təhsil pulsuz olmalıdır. Başlanğıc təhsil vacib olmalıdır. Texniki və peşə təhsili hamıya açıq olmalıdır, yuxarı təhsil isə hər kəsə bacarığından asılı şəkildə açıq olmalıdır.

2. Təhsil yönəlməlidir insan şəxsinin tam gəlişməsinə, insan haqlarına, başlıca azadlıqlara sayğının artmasına. Təhsil xalqlar arasında, irqi ya dini qruplar arasında anlaşmaya, dözümə, dostluğa yardım etməlidir, Birləşmiş Millətlər Təşkilatının barış uğranda çalışmasına yardım etməlidir.

3. Ata-ananın üstün haqqı var ki, azyaşlı uşaqlarına təhsil növünü özləri seçsinlər.

*Maddə 27*

1. hər bir insanın haqqı var ki, azad şəkildə toplumun mədəni həyatına qoşulsun, incəsənətdən həzz alsın, elmi gəlişmədə iştirak etsin, onun xeyirlərindən istifadə etsin.

2. Hər bir insanın haqqı var ki, onun elmi, ədəbi və ya bədii yaradıcılığının sonucu olan mənəvi, maddi maraqları qorunsun.

*Madd ə 28*

Hər bir insanın haqqı var ki, sosial həyatda, beynəlxaq həyatda qayda-qanun olsun, elə bir qayda-qanun ki, bu Bəyannamədə açıqlanan haqlar, azadlıqlar tam yerinə yetirilsin.

*Madd ə 29*

1. Hər bir insanın toplum qarşısında vəzifələri var, özü də yalnız və yalnız toplum çərçivəsində insan şəxsinin azad, tam gəlişməsi ola bilər.

3. İnsan öz haqlarını, azadlıqlarını gerçəkləşdirəndə yalnız beynəlxalq qanunun qoyduğu çərçivə ilə cızığa salına bilər. Bu məhdudiyyət isə yalnız başqalarının haqq və azadlıqlarını tanımaq, saymaq üçün qoyula bilər. Bu məhdudiyyət eyni zamanda əxlaqın, ictimai qayda-qanunun, demokratik toplumda hamı üçün rifahın təmin olunması uğranda qoyula bilər.

4. Bu haqların, azadlıqların yerinə yetirilməsi heç cürə Birləşmiş Millətlər Təşkilatının məqsədinə, prinsiprlərinə qarşı çıxmamalıdır.

*Maddə 26*

*Madd ə 30*

Bu Bəyannamədə verilənlərin heç biri elə yozula bilməz ki, hər hansı dövlət, insan qrupu və ya ayrıca adama ondan çıxış edib onlar Bəyannamədə söylənmiş haqq və azadlıqları yox edəcək hər hansı bir iş görsün.

## Vətəndaş Hüquqları və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt

(BMT-nin Baş Assambleyasının 1966-cı il dekabrın 16-da 3200 A (XXI) qərarı ilə qəbul olunub və bu ildən başlayaraq qollamaq , ratifikasiya edilmək, qoşulmaq üçün açıqdır)

1976-cı il, Martın 23-də 49-cı maddəyə əsasən gücə minib

### Ön söz

Bu Pakta qoşulan dövlətlər,

*gözə alırlar ki,* Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin prinsiplərinə uyğun olaraq insan ailəsində hər kəsin ləyaqəti var və onların bərabər, alınmaz haqları azadlığın, ədalətin, dünya barışının özülüdür,

*tanıyırlar ki,* bu haqlar insan şəxsiyyətinə xas ləyaqətdən doğur,

*tanıyırlar ki,* İnsan haqlarının Bütün Dünya üzrə Bəyənnaməsinə uyğun olaraq vətəndaş azadlıqlarından, siyasi azadlıqlardan, eləcə də ehtiyacdan və qorxudan iraq olmaq azadlıqlarından istifadə edən azad insan idealını xüsusi şərait yaratmaqla gerçəkləşdirmək olar, həm də bu şərait elə olmalıdır ki, hər kəs özünün iqtisadi, sosial, mədəni hüquqlarından və vətəndaş, siyasi hüquqlarından istifadə edə bilsin,

*gözə alırlar ki,* Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə görə dövlətlər insan haqlarına və azadlıqlarına hamılıqca sayğının olmasını bəyənib həvəsləndirməlidirlər,

*gözə alırlar ki*, hər bir insan başqa adamların yanında, içində bulunduğu kollektivdə öz vəzifələrindən elə istifadə etməlidir ki, bu Paktın tanıdığı hüqüqlara əməl etməyi hamıya bəyəndirib, hamını həvəsləndirsin,

bütün bunları gözə alaraq dövlətlər aşağıdakı maddələr üzrə anlaşmaya gəlirlər:

Ş

**Bölmə I**

*Madd ə 1*

1. Bütün xalqların haqqı var ki, necə olmaları özlərindən asılı olsun. Bu haqqa görə də onlar azad şəkildə siyasi statuslarını qururlar, elə edirlər ki, azad şəkildə iqtisadi, sosial, mədəni sahələrdə gəlişsinlər.

2. Bütün xalqlar məqsədlərinə çatmaq üçün öz təbii sərvətlərindən, ehtiyatlarından azad istifadə edə bilərlər. Bu zaman onlar, yalnız, qarşılıqlı gəlirə, beynəlxalq hüquq prinsipinə söykənmiş beynəlxalq iqtisadi əməkdaşlığın doğurduğu öhdəliklərə zərər vurmamalıdırlar. Heç bir xalqın əlindən, heç bir halda varlığı üçün gərəkli vasitələr alına bilinməz.

3. Bu Pakta qoşulmuş dövlətlər, eləcə də özü idarə olunmayan və himayələrindəki bölgələrə görə məsuliyyət daşıyan dövlətlər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq xalqların necəliklərinin özlərindən asılı olması hüququnun gerçəkləşməsini bəyənib həvəsləndirməlidirlər və bu hüquqa saygı göstərməlidirlər.

**Bölmə II**

*Madd ə 2*

1. Bu Pakta qoşulan hər bir dövlət üstünə götürür ki, bölgəsində bulunan və onun hüquqi güvənişləri (qarantları) altında olan hər kəsin haqlarına saygı göstəriləcək və hər kəsin bu Paktda verilən hüquqları olacaq. Bu zaman heç bir ayrı-seçkiliyə yol verilməyəcək, nə irqinə, nə dərisinin rənginə, nə cinsinə, nə dilinə, nə dininə, nə siyasi və ya başqa inanışına, nə milli və sosial baxımdan kimlərdən olmasına, nə mülkiyyət məsələsində durumuna, nə doğumuna, nə də başqa vəziyyətlərə görə onlar arasında ayrı-seçkilik salınmayacaq.

2. Əgər hələlik bu haqlar ortada olan qanunvericilik ölçüləri və ya başqa ölçülərlə gözə alınmayıbsa, bu Pakta qoşulan hər bir dövlət üstünə götürür ki, öz Ana Yasa prosedurlarına və bu Paktın ortaya qoyduqlarına uyğun olaraq elə qanunvericilik tədbirləri və ya başqa tədbirlər yerinə yetirəcək ki, bütün bunlar sonucda Paktda qəbul olunmuş hüquqların gerçəkləşməsi üçün gərəkli olacaq.

3. Bu Paktda qoşulan hər bir dövlət aşağıdakıları üstünə götürür:
bu Paktda hər kəs üçün qəbul edilmiş hüquqlar və azadlıqlar pozularsa, hüququ

qorumağın effektli vasitələrini insanlara verəcək, hətta pozuntuya rəsmi hərəkt edən kəslər yol versələr belə;

a) elə edəcək ki, hər hansı bir insanın tələb etdiyi hüququ qorumaq haqqı kompetentli məhkəmə, inzibati hakimiyyət orqanı və ya qanunvericilik hakimiyyəti tərəfindən qurulsun, özü də bütün bunlar dövlətin hüquqi sistemində gözə alınan şakildə olsun. Eyni zamanda məhkə mə müdafisini gəlişdirəcək.
b) elə edəcək ki, kompetentli hakimiyyət orqanı tərəfindən hüququ qorumaq veriləndə, bu, yerinə yetsin.

*Madd ə 3*

Bu Pakta qoşulan dövlətlər üstlərinə götürürlər ki, kişilərlə qadınların Paktda verilən bütün vətəndaş hüquqlarından və siyasi hüquqlardan bərabər istifadə etməsinə arxa duracaqlar.

*Madd ə 4*

1. Millətin yaşaması təhlükə altında olanda və bu, rəsmi bildiriləndə ortaya çıxan fövqəlaldə vəziyyətdə Pakta qoşulan dövlətlər bu Paktda üstlərinə götürdükləri öhdəliklərdən geri çəkilən tədbirlərə əl ata bilərlər. Ancaq bunu bir şərtlə edə bilərlər: gərək geri çəkilmənin dərəcəsi vəziyyətin kəskinliyinin gərəkcələdiyi qədər olsun və beynəlxalq hüquq üzrə ötürülmüş öhdəliklərlə bir yerə sığışmaz olmasın, eləcə də irq, dərinin rəngi, cins, dil, din və ya sosial vəziyyətlə bağlı ayrı seçkiliyə gətirib çıxarmasın.
2. Bu vəziyyət 6, 7, 8 (1 və 2-ci bəndlər), 11, 15, 16-cı maddələrdən geri çəkilmək üçün əsas ola bilməz.

3. Bu Pakta qoşulan hər hansı dövlət geri götürmə hüququndan istifadə edərsə, həməncə Pakta qoşulmuş başqa dövlətləri Birləşmiş Millətlər Təşkilatının Katibi vasitəsi ilə xəbərləməlidir ki, hansı müddəalardan geri çəkilib, hansı səbəblər belə davranmağı gərəkli edib. Eləcə də həmənki araçı ilə bildirməlidir ki, nə vaxt geri çəkilməsinə son qoyacaq.

*Madd ə 5*

1. Bu Paktdan heç nəyi elə yozmaq olmaz ki, guya aşağıdakıları bildirir: guya hər hansı dövlətin, qrupun və ya şəxsin elə işlərlə məşğul olmağa, elə hərəkətlər etməyə ixtiyarı var ki, onların sonucunda Paktda qəbul edilmiş hər hansı hüquqlar, azadlıqlar yox ola bilər və ya Paktda gözə alınandan daha çox cızığa salına bilər.

2.  Hər hansı bir başlıca insan haqqının cızığa salınmasının bu Pakta qoşulmuş dövlətdə qanunlar, konvensiyalar, qaydalar, ənənələr sayəsində tanınması və ya oluşması yol verilməzdir. Hətta belə bir bəhanə olsa da ki, Paktda həmin haqq tanınmır, ya da az ölçüdə tanınır

**Bölüm III**

*Madd ə 6*

1.  Yaşamaq haqqı hər kəsin alınmaz haqqıdır. Bu haqq qanunla qorunur. Heç kimin həyatını özbaşınalıqla almaq olmaz.

2.  Ölüm cəzası aradan götürülməmiş ölkələrdə ölüm hökmü ən ağır cinayətlərlə bağlı irəli sürülə bilinər. Bu hökmü cinayət zamanı ortada olan qanunlara uyğun vermək gərəkdir. Özü də həmin qanunlar bu Pakt və Konvensiyada Soyqırımı cinayətini qabaqlamaq, bu cinayətə görə cəzalandırmaq hüququ ilə bağlı qərarlara qarşı durmamalıdır. Deyilən cəza kompetentli məhkəmənin son hökmünü yerinə yetirmək kimi gerçəkləşə bilər.

Kiminsə həyatını əlindən almaq soyqırım cinayətinin tərkib hissəsi olanda Paktda qoşulmuş dövlətlərə bu maddədən heç nə hüquq vermir ki, hər hansı yolla soyqırım cinayətini qabaqlamaq və bu cinayət üstündə cəzadlandırmaq haqqında Konvensiyanın qərarlarına uyğun olan hər hansı öhdəlikdən yayınsın.

3.  Ölüm cəzasını almış hər kəsin hüququ var ki, bağışlanmaq və ya cəzanın yumşaldılması haqqında sorğu versin. Bütün hallarda amnistiya, bağışlanma və ya ölüm cəzasının dəyişdirilməsi ərmağan oluna bilər.

4.  On səkkiz yaşından gənc olan kəslərə ölüm cəzası kəsilmir, hamilə qadınlarla bağlı isə yerinə yetirilmir.
5.  Bu maddədən heç nə ona əsas ola bilməz ki, Pakta qoşulmuş dövlət ölüm cəzasını aradan götürməyi sonralaşdırsın və ya aradan götürməyə yol verməsin.

*Madd ə 7*

Heç kimə işgəncə vermək olmaz. Amansız, insana yaraşmaz və ləyaqəti alçaldan şəkildə heç kimlə davranmaq olmaz, bu şəkildə heç kimi cəzalandırmaq olmaz.

1.  Heç kim qul edilə bilməz, qul etmə və qul alveri bütün formalarda yasaqdır.
2.  Heç kimi əsarətdə saxlamaq olmaz.
3)  Hez kmmm zorlu vd ya mdcburm med zorunlamaq olmaz;

a)  cinayət üstündə cəza kimi azadlıq əldən alınanda azadlığın əldən alınması katorqa əməyi ilə bağladılmış ölkələrdə 3 a - bəndi kompetentli məhkəmənin

*Madd ə 8*

hökmü ilə verilmiş katorqa əməyini yerinə yetirməyə əngəl ola bilməz;

b) bu bənddə «zorlu və ya məcburi əmək» termini aşağıdakıları özünə qatmır:

i) _

j) i) b- alt bəndində nəzərdə tutulmamış hər hansı bir iş və xidməti; bu iş və xidmətləri, adətən, dustaqda olan, ya da dustaqlıqdan şərti buraxılan kəslər məhkəmənin qanuni göstərişi ilə yerinə yetirirlər;

ii) hər hansı hərbi xarakterli xidməti, siyasi, dini-etnik motivlərə görə hərbi xidmətdən imtina edən insanlara qanun tərəfindən həmin motivlərə görə hərbi xidmətdən imtina edən adamlar üçün göstərilmiş işləri;

iii) fövqəladə vəziyyətdə və ya əhalinin sağlığına, rifahına qorxu törədən fəlakətdə mütləq gərəkli olan hər hansı işi;
adi vətəndaş öhdəliyinə aid hər hansı iş və ya xidməti.

*Madd ə 9*

1. hər kəsin azadlığa, şəxsi toxunulmazlığa haqqı var. Özbaşınalıqla heç kimi dustaq etmək, ya da qarovul altında saxlamaq olmaz. Heç kimin əlindən azadlığı alınmamalıdır. Azadlıq yalnız qanunun qoyduğu əsaslarla və prosedura uyğun olan bir yolla alına bilər.

2. Dustaq edilən adama tutulan zaman nə səbəbdən dustaq edilməsi xəbər verilir və ona qarşı yürüdülən hər hansı suçlama tezliklə ona çatdırılır.

3. Cinayətdə suçlamaqla dustaq edilən, ya da tutulub saxlanılan hər kəs tez bbir qaydada hakimin və ya qanunla məhkəmə hakimiyyətini gerçəkləşdirməyə hüququ çatan başqa vəzifəli şəxsin yanına gətirilir, hər kəsin hüququ var ki, onu ağılabatan vaxt ərzində məhkəmə araşdırmasından keçirsinlər, ya da azadlığa buraxsınlar. Məhkəməni gözləyən adamları qarovul altında saxlamaq ümumi qayda olmamalıdır, azadlığa buraxılmağı isə asılı etmək olar məhkəməyə, məhkəmə araşdırmasına, bu araşıdrmanın istənilən dönəminə çağırılanda, eləcə də hökmün yerinə yetirilməsi üçün çağırılanda gəlmək haqqında güvəniş (qarant) verməkdən.

4. Dustaq edilməklə, ya da qarovul altında saxlanmaqla azadlığı əlindən alınmış hər kəsin hüququ var ki, işi məhkəmədə araşdırılsın.

Araşdırılsın ki, məhkəmə ertələmədən onun tutulmasının qanuniliyi haqında qərar çıxara bilsin, saxlanma qanunsuz olanda isə onun azad edilməsi haqqında göstəriş versin.

5. Qanunsuz dustaq edilmənin, ya da qarovul altında saxlanmanın qurbanı olan hər kəsin iddia gücündə olan əvəz almaq hüququ var.

*Maddə 10*

1. Azadlığı əlindən alınmış hər kəsin haqqı var ki, onunla insani davransınlar, insan şəxsiyyətinə yaraşan ləyaqətinə sayğı göstərsinlər.

a) Suçlananlar, istisna vəziyyətləri çıxmaqla, mühakimə olunmuş adamlardan ayrı saxlanılır, onlara mühakimə olunmamış adamlar statusuna uyğun rejim verilir;
b) ərsəyə çatmamış suçlananlar, ərsəyə çatmışlardan ayrı saxlanılırlar, eləcə də ən qısa zamanda hökmün çıxarılması üçün məhkəməyə aparılırlar.

2). Penitensiar (cəzayla bağlı) sistem dustaqlara irəlicədən elə bir rejim nəzərdə tutur ki, başlıca məqsədi onları düzəltmək, başqa cür sosial tərbiyə etməkdir. Ərsəyə çatmamış qanunpozucularını ərsəyə çatmışlardan ayırırlar, onlara elə bir rejim verirlər ki, yaşlarına, hüquqi statuslarına cavab versin.

*Maddə 11*

Yalnız bircə ona görə ki, bağlaşmada üstünə götürdüklərini yerinə yetirməyə halı olmayıb, bunun üstündə heç bir insanın azadılığını əlindən almaq olmaz.

*Madd ə 12*

1. Hər hansı dövlətin bölgəsində qanuni olaraq bulunan hər kəsin haqqı var ki, bu bölgənin sınırları içində yerini azad dəyişsin, yaşayış yerinə azad seçənəyi olsun.

2. hər kəsin haqqı var ki, istənilən ölkədən, eləcə də öz ölkəsindən qopub getsin.

3. Yuxarıda sadalanan haqları heç bir cızığa salmaq olamaz, bircə, dövlət təhlükəsizliyi üçün qanunla gözə alınanlar, eləcə də ictimai asayişi, əhalinin sağlamlığını, əxlaqını qorumaq üçün gərəkli olanlar, ya da başqalarının bu Paktda tanınan digər haqlarla bir araya sığışan haqq və azadlığını qorumağa lazım olanlar o haqları cızığa sala bilər.

4. Heç kimin öz ölkəsinə gəlmək haqqı özbaşınalıqla əlindən alına bilməz.

*Madd ə 13*

Bu Pakta qoşulmuş ölkələrdən birinin bölgəsində qanunla bulunan yabançı ancaq qanuni əsasda verilmiş qərarın yerinə yetirilməsi kimi ölkədən çıxarıla bilər, özü də bu o zaman ola bilər ki, dövlət təhlükəsizliyi üzrə düşüncələrin gərəkli etdiklərinə görə başqa çıxış yolu qalmasın. Ancaq belə olarsa yabançının da hüququ var ki, ölkədən çıxarılmasına qarşı sübutlar qoysun, kompetentli hakimiyyət orqanları, ya da bu orqanların özəl olaraq qoyduğu şəxslər onun işinə yenidən baxsınlar, yabançı adamın həm də hüququ var ki, bu məqsədlə həmən kompetentli hakimiyyət oranlarının, ya da onların xüsusi olaraq qoyduqları şəxsin, eləcə də şəxslərin qarşısında dursun.

*Madd ə 14*

1. Məhkəmələr, tribunallar qarşısında bütün insanlar bərabərdir. Hər kəsin hüququ var ki, ona qarşı irəli sürülmüş cinayət üzrə hər hansı suçlamaya baxılanda kompetentli, asılısız, tərəfkeşsiz, qanun əsasında yaradılmış məhkəmə onun işini ədalətlə, camaatın gözü qarşısında araşdırsın. Hər kəsin haqqı var ki, hər hansı mülki prosesdə onun hüququ, öhdəlikləri təyin ediləndə də işi beləcə araşdırılsın. Mətbuat, camaat bütün məhkəmə araşdırmasına, ya da onun hissəsinə buraxılmaya bilər. Bu, demokratik toplumda ya əxlaqın, ya ictimai asayişin, ya da dövlət təhlükəsizliyinin ortaya çıxartdığı səbəblərdən ola bilər. Başqa səbəb tərəflərin özəl hayatının gərəklərindən doğa bilər. Eləcə də ayrıca hallarda, məhkəmənin fikrincə, camaatın gözü qabağında həmin araşıdırmanın aparılması, qaçınılmaz olaraq ədalət məhəkəməsinin maraqlarını nə dərəcədə pozarsa, o dərəcədə də mətbuat, camaat oraya buraxılmaya bilər; ancaq necə də olsa, cinayət və mülki işlər üzrə hər hansı məhkə mə qərarı camaat qarşısında oxunmalıdır, yalnız o vəziyyətləri istisna etmək olar ki, ərsəyə çatmamış şəxsin maraqları ayrısını tələb etsin, ya da iş matrimonial (evliliyə aid) dartışmalarla və ya uşaqlar üzərində qəyyumluqla bağlı olsun.
2. Cinayət işlərinə görə suçlanan hər kəsin haqqı var ki, qanuna uyğun olaraq onun suçu sübut olunmayanacan, günahsız sayılsın.

3. Hər hansı cinayət ittihamı kimə qarşı irəli sürülübsə, bu ittihama baxılan zaman onun bərabərlik əsasında ən azı aşağıdakı güvənişlərə (qarantlara) hüququ var:

a) tez bir qaydada, anladığı dildə nədə suçlanmasının xarakteri, əsasları haqqında xırdalığınacan ona bilgi verilməlidir;

b) vaxtı yetərincə olmalıdır ki, öz müdafiəsini hazırlasın, özünün seçdiyi müdafiəçi ilə əlaqəyə girsin;

c) məhkəmə əsassız olaraq dayandırılmadan getməlidir;

d) özünün məhkəmədə bulunşu ilə məhkəməsi getməlidir, bu zaman ya özü-özünü müdafiə etmlidir, ya da özünün seçdiyi müdafiəçi ilə qorunmalıdır; əgər müdafiəçisi yoxdursa, eşitməlidir ki, buna hüququ var və beləcə, ədalət məhkəməsinin gərəkləri tələb edən hər hansı durumda onun üçün qoyulmuş müdafiəçi olmalıdır və eləcə də bu müdafiəçini tutmağa pulu olmadığı vəziyyətdə ona umacaqsız müdaifəçi ayrılmadlıdır.

e) üzünə duran şahidləri sorğulaya bilər, hüququ var ki, həmən şahidlər sorğulanacaq, eləcə hüququ var ki, də üzünə duran şahidlər necə çağırılırsa, necə sorğulanırsa, o şəkildə də onun şahidləri çağırılacaq, sorğulanacaq;

f) məhkəmədə işlədilən dili bilməsə, ya da bu dildə danışmasa, pulsuz tərcüməçinin yardımından istifadə edəcək;

g) özü-özünə qarşı şahidlik etməyə, ya da suçunu boynuna almağa zorlanmayacaq.

4)Ərsəyə çatmamış uşaqlar üçün proses elə olmalıdır ki, onların yaşı, tərbiyə olunmaları haqqında arzular gözə alınsın.

5)Hər kim ki hansısa cinayətə görə suçlanıb, hüququ var ki, daha yuxarı məhkəmə qanuna uyğun olaraq onun suçlanmasına, onun haqda hökmə yenidən baxsın.

6)Əgər kimsə son qərarla cinayət əməli üstündə suçlanıbsa, əgər onun haqqında oxunmuş hökm sonradan geri götürülübsə və əgər bundan sonra nəsə yeni, ya da yenicə aydın olmuş şərait ortada məhkəmə yanlışlığı olmasını şəksiz sübut edibsə, o zaman belə bir hökmün sonucunda cəza çəkmiş adam əvəz alır, ancaq bunun üçün şərt var: gərək qanun əsasında sübut edilməsin ki, öncə bilinməz qalmış bu şərait vaxtında tamamilə, ya da qismən onun özünün suçuna görə aydın olmayıb.

7. Hər hansı ölkənin cinayət-prosesual hüququna uyğun olaraq kimsə son qərarla suçlandığı cinayətə görə cəza alandan sonra, ya da həmin ittiham qarşısında təmizə çıxarılandan sonra bu cinayətə görə ikinci dəfə məhkəməyə çəkilə bilməz.

*Madd ə 15*

1. Heç kim cinayətdə suçlana bilməz, əgər buna əsas verən nəyisə etdiyi zaman, ya da buna əsas verən xətaya yol verdiyi zaman həmin cinayət dövlətin özündəki qanunvericiliyə, eləcə də beynəlxalq hüquqa görə cinayət sayılmayıbsə. Eləcə də cinayət edilən zaman veriləsi cəzadan

sonralar həmin cinayətə daha ağır cəza kəsmək olmaz. Əgər cinayət ediləndən sonra keçən vaxtlarda daha yüngül cəza kəsilirsə, bu qanunun həmin cinayəti etmiş cinayətkara da aid olur.

2. Hər hansı bir adam nəyisə etdiyi zaman, ya da nəsə xətalara yol verdiyi zaman dünya birliyinin tanıdığı hüququn ümumi prinsiplərinə görə bütün bunlar cinayət əməli olubsa, bu maddədə heç nə həmin adamın məhkəməyə verilməsinə, cəzalandırılmasına əngəl ola bilməz.

*Maddə 16*

Hər kəsin harada olur-olsun, hüququ var ki, hüquq subyekti kimi tanınsın.

*Maddə 17*

1. Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla, ya da qanunsuz olaraq qarışmaq olmaz, heç kimin yaşayış yerinin toxunulmazlığına, yazış ma sirlərinə, şərəfinə, nüfuzuna özbaşınalıqla qəsd etmək olmaz.

2. Hər kəsin hüququ var ki, qanun onu bu cür işə qarışmalardan, bu cur qəsdlərdən qorusun.

*Madd ə 18*

1. Hər bir insanın haqqı var ki, düşüncə, vicdan, din azadlığı olsun; bu haqlar sırasında öz seçənəyinlə dinini, inancını saxlamaq, ya da özünə din, inanc götürmək azadlığı da durur, bu haqlar sırasında eləcə də insanın ya təklikdə, ya başqaları ilə birlikdə, ya camaat arasında, ya da özünə çəkilərək dindarlığını yerinə yetirmək azadlığı da durur, özü də bu dindarlığı yerinə yetirmək təlim, sitayiş və ayinlər formasının hər hansı birində ola bilər.

2. hər kəsin öz seçənəyi ilə din, inanış yiyəsi olmaq ya da dinə, inanışa keçmək azadlığı var, bu azadılığı kiçildən zorunlamalara heç kimi hədəf etmək olmaz.

3. Dindarlığı, inanışları yerinə yetirmək azadlığını yalnız bir halda cızığa salmaq olar, o halda ki itctimai təhlükəsizliyi qorumaq, qayda-qanunu, sağlamlığı, əxlaqı saxlamaq, eləcə də başqa adamların başlıca haqq və azadlıqlarını müdaif ə etmək bütün bunu gərəkli edir, eyni zamanda deyilən azadlıq qanunla qoyulan cızığa salınır.

4. Bu Pakta qoşulan dövlətlər üstlərinə götürürlər ki, ata-anaların, uyğun hallarda

isə qanuni qəyyumların öz inamlarına uyğün olaraq uşaqlarına dini, əxlaqi tərbiyə vermək azadlığına sayğı göstərəcəklər.

*Madd ə 19*

1. Hər adamın haqqı var ki, əngəlsiz öz düşüncələrində qalsın.
2. Hər adamın haqqı var ki, düşüncələrini azad şəkildə bildirsin; insanın şifahi, yazılı, bədii formalarla, çap şəklində, ya da hər hansı başqa vasitələrlə, özünün seçdiyi kimi, dövlətin sərhədlərinə baxmadan informasiya, ideyalar axtarmaq, almaq, yaymaq azadlığı da bu haqqın içindədir.
3. Bu maddənin 2-ci bəndində deyilmiş haqlardan istifadə etmək insanın üstünə ayrıca öhdəliklər, ayrıca məsuliyyət qoyur. Deməli, bütün bunlar bəzi məhdudiyyətlərlə bağlana bilər, ancaq belə olanda həmin məhdudiyyətləri qanun qoymalıdır, özü də onlar aşağıdakı şəkildə gərəkli olmalıdır:

a) başqa adamların haqqını, nüfuzunu qorumaq üçün;
b) dövlətin təhlükəsizliyini, ictimai asayişi, əhalinin sağlamlığını, əxlaqını qorumaq üçün.

*Madd ə 20*

1. Müharibənin hər hansı təbliği qanunla yasaqlanmalıdır.
2. Milli, irqi, dini nifrət yağdıran, ayrı-seçkilik salmağa, düşmənçilik, zorakılıq etməyə çağıran istənilən çıxış qanunla yasaqlanmalıdır.

*Madd ə 21*

Dinc toplantılara yığışmaq haqqı tanınır. Bu haqdan istifadə etməyi, bəzi məhdudiyyətləri çıxmaq şərti ilə heç bir cızığa salmaq olmaz, həmin məhdudiyyətləri isə demokratik toplumlarda dövlətin, cəmiyyətin təhlükəsizliyi, əhalinin sağlamlığının, mənəviyyatının qorunması, ya da başqa adamların haqq və azadlıqlarının qorunması gərəkli edə bilər.

*Madd ə 22*

1. Hər bir insanın başqaları ilə birliyə girmək haqqı var, bu haqqın içində həmkralar birlikləri yaratmaq və bununla öz maraqlarını qorumaq haqqı da durur.
2. Bu haqlardan istifadə etməyi bəzi məhdudiyyətləri çıxmaq şərti ilə heç bir cızığa salmaq olmaz, həmin məhdudiyyətləri isə demokratik

toplumlarda dövlətin, cəmiyyətin təhlükəsizliyi, ictimai asayişin, əhalinin sağlamlığının, mənəviyyatının qorunması, ya da başqa adamların haqq və azadlıqlarının qorunması gərəkli edir, özü də bu məhdudiyyətlər qanunda gözə alınmış məhdudiyyətlər olmalıdır. Bu maddə hərbi güclərdə, polisdə olan şəxslərin göstərilən haqlardan istifadə etməsini cızığa salmağa əngəllər törətmir.

3. 1948-ci il Beynəlxal əmək Konvensiyasına qoşulmuş dövlətlərə bu maddədə heç nə hüquq vermir ki, birliklər üzrə azadlıqla əlaqədar və qurumlar yaratmaq haqqı ilə bağlı göstərilən Konvensiyada gözə alınmış güvənişlərə (qarantlara) ziyan vura biləcək qanunvericilik aktlarına yol versinlər, ya da qanunları elə qəbul etsinlər ki, sonucda bu güvənişlərə ziyan dəysin.

*Madd ə 23*

1. Ailə toplumun təbii və bşlıca özəyidir, ona görə də hüququ var ki, toplumla dövlət onu qorusun.

2. Evlilik yaşına çatmış kişi ilə qadının evlənmək, ailə qurmaq hüquqları tanınır.
3. Heç bir evlənmə evlənənlərin hər ikisinin azad və tam razılığı olmadan baş tuta bilməz.
4. Bu Pakta qoşulanlar elə etməlidirlər ki, evlənməklə bağlı, evlilikdə olan zaman, boşananda ər-arvadın hüququ, öhdəlikləri bərabər olsun. Boşanma olanda uşaqları qorumaq gərəyi gözə alınmalıdır.

*Madd ə 24*

1. İrqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə baxmayaraq, milliyətcə, sosialca kimlərdən olmasından, mülkiyyətindən, doğumundan asılı olmayaraq, heç bir ayrı-seçkiliyə yol vermədən hər bir uşağın qorunma hüququ var, azyaşlı olmasına görə bu hüquq ailədən, toplumdan, dövlətdən onun qorunması üçün ölçülər götürməyi tələb edir.

2. Hər bir uşaq doğulan kimi qeydiyyatdan keçib ad almalıdır.

3. Hər bir uşağın hüququ var ki, vətəndaşlıq alsın.

*Madd ə 25*

Maddə 2-də göstərilən ayrı-seçkilik olmadan, hər hansı məhdudiyyət

qoyulmadan hər bir vətəndaşın bu hüququ, imkanları olmalıdır: a həm birbaşa, həm də azad seçilmiş təmsilçilər vasitəsi ilə dövlət işlərinin aparılmasına qoşulmalıdır;
b vaxtaşırı təkrarlanan, əsl seçkilərdə səs verməlidir, seçilməlidir, bu seçkilər hamılıqca, gizli səsvermə, bir də bərabər seçmə hüququ əsasında yerinə yetirilməlidir, həm də bu seçkilər elə etməlidir ki, seçicilərin azad şəkildə iradələrini bildirmələrinə yol verilsin; öz ölkəsində dövlət vəzifələrinə bərabərliyin ümumi prinsipləri əsasında buraxılmalıdır.

*Maddə 26*

Qanun qarşısında bütün insanlar bərabərdir, hamının heç bir ayrı-seçkilik salınmadan qanun tərəfindən bərabər qorunmağa hüququ var. Bu baxımdan hər hansı ayrı-seçkilik qanunla yasaqlanmalıdır, qanun hər kəsə ayrı-seçkiliyə qarşı bərabər, effektli güvənişlər verməlidir, asılı deyil bu ayrı-seçkilik insanın irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi, ya başqa inamlarına görə olsun, yoxsa milliyətcə, sosialca kimlərdən olmasına görə, mülkiyyətinə, doğumuna və başqa səbəblərə görə olsun.

*Maddə 27*

Etnik, dini azlıqları olan ölkələrdə bu azlıqlardan çıxan adamların belə bir hüququ danıla bilməz ki, onaların öz qruplarının başqa üzvləri ilə birlikdə öz mədəniyyətlərindən istifadə etməyə, öz dininin yolunu tutmağa, dininin bütün ayinlərini yerinə yetirməyə, doğma dilini işlətməyə ixtiyarları var.

(Maddə 27-dən bu Pakt əsasında qurulacaq Komitə və onun iş prinsipləri haqqında danışılır)

**İşgəncələrə, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərinə qarşı**
**Konvensiya**

*(Baş Assambleyanın qərarı (39)46, 10 dekabr 1984-cü il)*

**Baş Assambleya**

*söykənərək* o Bəyənnaaməyə ki, bütün adamları işgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq üçün verilib (Bəyənnamə 1975-ci il, dekabrın 9-da Baş Assambleyanın verdiyi 3452 (XXX) qərar ilə bildirilib)

*eləcə də ona söykənərək ki,* 1977-ci il, dekabrın 16-da verdiyi 32)62 (XXX) qərarda insan haqları üzrə Komissiyaya təklif edib ki, Bəyənnamədə söylənmiş prinsiplərin işığında işgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq haqqında Konvensiyanın proyektini hazırlasın,

*eləcə də ona söykənərək ki,* 1983-ci il dekabrın 16-da verdiyi 38)119-cu qərarda insan haqları Komissiyasından xahiş edib ki, Komissiya qırxıncı sessiyasında tez bir qaydada Konvensiyanın proyektini, eləcə də onun effektiv yerinə yetirilməsi üçün göstərişləri işləyib bitirsin ki, Baş Assambleyanın otuz doquzuncu sessiyasına onu göndərə bilsin,

*bəyənişlə* insan haqları Komissiyasının 1984-cü il, martın 6-da verdiyi 1984)21-ci qərarı vurğulayaraq (həmin qərarda isə göstəriş budur ki, Komissiya İşçi qrupun məruzəsinə əlavədə verdiyi işgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq haqqında

Konvensiya proyektinin tekstini Baş Assambleyada baxılmağa yönəltsin),

*çalışaraq ki,* beynəlxalq, eləcə də milli hüquqa uyğun olaraq işgəncə, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq haqqında yasağın daha effektiv gerçəkləşdiriliməsinə yetişilsin,

1. işgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq haqqında Konvensiya proyektinin tekstini hazırlamaqda gördüyü işlərə görə insan haqları üzrə Komissiyaya təşəkkürünü bildirir,

2. işgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq haqqında Konvensiyanı götürərərk qollamaq, ratifikasiya etmək, qoşulmaq üçün açıq saxlayır,

3. bütün dövlətləri ona çağırır ki, birinci növbəli məsələ kimi Konvensiyanı qollamaq, ratifikasiya etmək, ona qoşulmaq məsələsinə baxsınlar.

**İşgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq haqqında Konvensiya**

**Bu Konvensiyaya qoşulmuş dövlətlər**

*göz qabağında saxlayaraq ki,* Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində səslənmiş prinsiplərə uyğun olaraq insan ailəsinin bütün üzvlərinin bərabər, alınmaz haqları azadlığın, ədalətin, bütün dünya üzrə barışın təməlidir,

*tanıyaraq ki,* bu haqlar insan şəxsinin ləyaqətindən doğur,

*göz qabağında saxlayaraq ki,* dövlətlər Nizamnaməyə, konkret olaraq maddə 55-ə uyğun olaraq üstlərinə götürüblər ki, insan haqlarına, başlıca azadlıqlara hamının sayğı göstərməsinə, onları yerinə yetirməsinə yardım edəcəklər,

*gözə alaraq ki,* Bütün dünya üzrə insan haqlarının Bəyənnaməsinin maddə 5- də, Vətəndaş hüquqları, siyasi hüquqlar haqqında Paktın maddə 7-də irəlicədən məsələ qoşalıqda elə qoyulur ki, heç kimə işgəncə vermək olmaz, heç kimi başqa cür amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranışların hədəfi etmək olmaz, heç kimə belə bir cəza vermək olmaz,

*eləcə də gözə alaraq* 1975-ci il dekabrın 9-da işgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən bütün adamları qorumaq haqqında Baş Assambleyanın bildirdiyi Bəyənnaməni, *istəyərək ki,* işgəncədən, başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranış, cəza növlərindən qorumaq uğranda mübarizənin effektliyini bütün dünyada yüksəltsin,

aşağıdakılar üzrə anlaşıblar:

**Bölmə 1**

*Madd ə 1*

1. Bu Konvensiyanın məqsədləri baxımından «işgəncə» aşağıdakıları bildirir: bildirir, dövlətdə vəzifə tutan, ya da rəsmi sifətdə çıxış edən kiminsə hər hansı insandan və ya üçüncü şəxsdən nəsə söz almaq, onların boynununa nəyisə qoymaq üçün həmin insanı qəsdən bərk ağrıya, əzaba salmasını və ya başqasını onu bərk ağrıtmağa, əzaba salmağa yönəltməsini, eləcə də bildirir həmin vəzifəlinin ya xəbəri olması, ya da dinməz razılığı ilə bütün bu əməllərin edilməsini, bildirir kimisə ya öz etdiyi, ya da üçüncü şəxsin etdiyi üstündə, ya da nəyisə etməkdə şübhə doğurduğuna görə beləcə cəzalandırmasını, bildirir insanı, ya da üçüncü şəxsi qorxuzmaq, ya da nəyisə etməyə zorunlamaq üçün bərk ağrıya, əzaba düçar etməsini, bildirir istənilən xarakterli ayrı-seçkilikdən gələn səbəbə görə hər hansı insanı qəsdən bərk ağrıya, əzaba salmasını. Ancaq qanuni sanksiyanın sonucunda yaranan, özü də bu sanksiyadan ya qopmaz olan, ya da təsadüfən doğan ağrılar, əzablar bu «işgəncə» anlayışına girmir.

2. Daha geniş şəkildə yerinə yetirilmək üçün göstərişləri özündə saxlayan hər hansı beynəlxalq bağlaş maya, milli qanunvericiliyə bu maddə ziyan vermir.

*Madd ə 2*

1. Konvensiyaya qoşulmuş dövlətlərin hər biri öz yurisdiksiyasında olan istənilən bölgədə işgəncə əməllərinin qarşısını alan effektiv qanunvericilik, məhkəmə ölçülərinə, adminstrativ, və başqa öldçülərə əl atır.

2. Heç bir istisna şarit, nə müharibə, nə müharibə qorxusu, nə içəridə siyasi stabilliyin olmaması, nə hər hansı fövqəladə durum işgəncə verməyi təmizə çıxara bilməz.

3. Yuxarıda duran rəisin, dövlət hakimiyyətinin ə mri işgəncə verməyi təmizə çıxara bilməz.

*Madd ə 3*

1. Əgər hər hansı bir ölkədə işgəncə veriləcəyinə ciddi güman varsa, Konvensiyaya qoşulmuş dövlətlərdən heç biri kimisə ora nə sürgün edə bilər, nə qaytara bilər, nə də verə bilər.

2. Belə bir gümanın ciddiliyini tapmaq üçün kompetentli hakimiyyət orqanları

işə dəxli olan bütün hallara diqqət edir, eləcə də gərəkli vəziyyətlərdə diqqət edir ki, uyğun dövlətdə insan haqlarının pozulmasının kobud, bütün hədləri aşan, kütləvi və durmadan sürən praktikası var, ya yoxdur.

*Madd ə 4*

1. Konvensiyaya qoşulmuş hər dövlət elə edir ki, onun qanunvericiliyinə uyğun olaraq bütün işgəncə əməllərinə cinayət kimi baxılsın. Eyni sözləri işgəncə etmək cəhdinə, eləcə də hər hansı bir adamın o hərəkətlərinə aid etmək olar ki, ya birgə işgəncə vermək kimi, ya da işgəncədə iştirak kimi görünür.

2. Konvensiyaya qoşulmuş hər dövlət belə cinayətlərə onların ağır xarakterini nəzərə almaqla uyğun cəza kəsir.

*Madd ə 5*

1. Maddə 4-də göstərilən cinayətlərlə bağlı öz yurisdiksiyanını qurmaq üçün Konvensiyaya qoşulmuş dövlətlər gərəkli ölçülərə əl atır. Onlar bunu aşağıdakı hallarda da edirlər:

a yurisdiksiyaları altında olan istənilən bölgədə, ya da özlərində qeydiyyatdan keçmiş dəniz, hava gəmilərində cinayət ediləndə; b güman edilən cinayətkar onların vətəndaşı olanda; cinayətin qurbanı onların vətəndaşı olanda və onlar bunu məqsədəuyğun sayanda.

2. Güman edilən cinayətkar Konvensiyaya qoşulmuş dövlətin istənilən bölgəsində olanda və Konvensiyaya qoşulmuş dövlət 8-ci maddəyə uyğun olaraq həmin cinayətkarı bu maddənin 1-ci bəndində göstərilən hər hansı dövlətə verməyəndə, o həmin cinayətlərlə bağlı öz yurisdiksiyasını qurmaq üçün gərəkli olan oxşar ölçülərə əl atır.

*Madd ə 6*

1. Konvensiyaya qoşulmuş istənilən dövlət 4-cü maddədə göstərilən cinayətlərdən birini etməkdə gümanlanan şəxs onun ərazisində bulunarsa, əldə olan informasiyanı öyrənəndən sonra inananda ki, vəziyyət bunu tələb edir, həmin şəxsi ya dustaq edir, ya da işə baxılanda onun göz qabağında olmasını təmin edən başqa hüquqi ölçüləri götürür. Dustaq etmə, ya da başqa hüquqi ölçüləri götürmə həmin dövlətin qanunvericiliyi əsasında yerinə yetirilir, ancaq bütün bunlar cinayət-prosesual hərəkətlərin, ya da təhvil vermə işinin olması üçün gərəkli olan vaxtacan çəkməlidir.

2. Belə ölkə faktların həməncə araşdırılmasını aparır.

3. Bu maddənin 1-ci bəndinə əsasən dustaq edilmiş istənilən şəxsə yardım edilir ki, vətəndaşı olduğu ölkənin yaxındakı
nümayəndəliyi ilə tezliklə əlaqəyə girə bilsin. Əgər o heç bir vətəndaşlığı olmayan şəxsdirsə, hansı ölkədə yaşayırsa, oranın nümayəndəliyi ilə tezcə əlaqəyə girməsinə yardım edilir.

4. Dövlət bu maddə əsasında kimisə dustaq edəndə 5-ci maddənin 1-ci bəndində bildirilən Dövlətə onun dustaqlanması haqqında xəbər verir. Xəbərdə onun göz altında saxlanması faktı, buna səbəb olan hallar göstərilir. Bu maddənin 2-ci bəndində göstərilən ilkin araşdırmanı aparmış Dövlət əldə etdiyi faktlar haqqında həməncə yuxarıda anılmış dövlətlərə soraq göndərir, öz yurisdiksiyasını yerinə yetirməyi istəyib-istəməməsi haqqında onları xəbərləyir.

*Maddi 7*

1. Konvensiyaya qoşulmuş dövlətin yurisdiksiyası altında olan bölgədə maddə 4-də sadalanan cinayətlərdən hər hansı birini etməsi gümanlanan adam tapılıbsa və bu cinayətkarı o, maddə 5-in göstərdiyi hadisələrə görə vermək istəmirsə, o zaman məhkə məyə çəkmək üçün bu işi özünün kompetentli hakimiyyət orqanına verir.

2. Bu hakimiyyət orqanları ciddi xarakterli hər hansı adi cinayətlə bağlı öz Dövlətlərinin qanunvericiliyinə uyğun olaraq çıxardıqları qərar kimi qərarları burada da çıxarırlar. Maddə 5-in 2-ci bəndində sadalanan olaylarda məhkə məyə çəkmək üçün, məhkəmə suçlamasına gərəkli olan sübutlar üçün qoyulan tələblər heç cürə maddə 5-in 1-ci bəndində göstərilən olaylarda yerinə yetirilən tələblərdən daha az ciddi ola bilməz.

3. Maddə 4-də göstərilən cinayətlərdən hər hansı biri ilə bağlı kimin əməli araşdırılırsa, araşıdırmanın bütün pillələrində onunla ədalətli davranmaq haqqında güvəniş (qarant) verilir.

*Madd ə 8*

1. Maddə 4-də göstərilmiş cinayətlər öz ardınca canini qarşı tərəfə təhvil verməni gətirən cinayətlərdən sayılır, ona görə də hesab olunur ki, Konvensiyaya qoşulmuş dövlətlər arasında təhvil vermə haqqında yapılmış hər hansı bağlaşmaya onlar da düşür. Konvensiyaya qoşulmuş dövlətlər üstlərinə götürürlər ki, öz aralarında təhvil vermə haqqında istənilən bağlaşma yapanda belə cinayətləri ardınca təhvil verməni gətirən cinayətlər kimi ora salacaqlar.

2. Təhvil verməni bağlaşma yapılmasından asılı edən Konvensiyaya qoşulmuş dövlət, aralarında belə bağlaşma olmayan Konvensiyaya qoşulmuş başqa dövlətdən təhvil vermə haqqında xahiş alarsa, bu Konvensiyaya belə cinayətlərlə bağlı təhvil vermə üçün hüquqi əsas kimi baxa bilər. Təhvil vermə bu haqda xahiş yönəldilmiş Dövlətin qanunvericiliyindəki başqa şərtlərə uyğun olaraq

yerinə yetirilir.

3. Təhvil verməni bağlaşmadan asılı etməyən Konvensiyaya qoşulmuş dövlətlər öz aralarında bu cinayətə ardınca təhvil verməni gətirən cinayət kimi baxırlar, eyni zamanda bilirlər ki, təhvil vermə haqqında xahiş yönəldilmiş dövlət bu işi öz qanunvericiliyinə uyğun olaraq yerinə yetirməlidir.

4. Konvensiyaya qoşulmuş dövlətlərin belə cinayəti törətmiş şəxsləri bir-birinə təhvil vermək məqsədi gərəkli edir ki, hə min cinayətə yalnız baş verdiyi ayrıca yerə görə yox, həm də dövlətlərin bütünlükdə ərazilərində törədilmiş cinayət kimi baxılsın, o mənada ki, maddə 5-in 1-ci bəndinə görə dövlətlər ərazilərində öz yurisdiksiyalarını qurmalıdırlar.

*Madd ə 9*

1. Konvensiyaya qoşulmuş dövlətlər maddə 4-də sadalanmış hər hansı cinayətə yönəldilmiş cinayt-prosessual hərəkətlərlə bağlı bir-birinə ən dolğun yardımları edirlər; bu yardımların içində onların əlində olan, məhkəmə araşdırması üçün gərəkli olan bütün sübutları vermək də durur.

2. Konvensiyaya qoşulmuş dövlətlər aralarında ola biləcək qarşılıqlı hüquqi yardım haqqında hər hansı bağlaşmaya uyğun olaraq bu maddənin 1-ci bəndində deyilən öhdəlikləri yerinə yetirirlər.

*Maddə 10*

1. Konvensiyaya qoşulmuş hər bir dövlət elə edir ki, işgəncərin yasaq edilməsi haqqında tədris materialları, informasiyalar hüququ gerçəkləşdirmə işini görən orqanlardakı personalın, vətəndaş, hərbi, tibbi personalın hazırlıq proqramına tam şəkildə salınsın. Onlar həmçinin elə edirlər ki, dövlətdəki vəzifəlilərin, eləcə də qarovul altında saxlamaq, eləcə də hər hansı formada tutulmuş, saxlanmış həbs edilmiş şəxsləri dindirmək, onlarla rəftar etmək məsələlərinə dəxli olan başqa şəxslərin hazırlıq proqramlarına da həmin materiallar və informasiyalar tam şəkildə salınsın.

*Madd ə 11*

Konvensiyaya qoşulmuş hər bir dövlət yurisdiksiyasmda olan hər hansı bölgədə dindirməklə bağlı qaydaları, instruksiyaları, metodu, praktikanı sistematik şəkildə araşdırır, eləcə də araşdırır qarovul altında saxlanmanın şəraitini, istənilən formada dustaq edilmiş, saxlanmış, türməyə salınmış adamlarla davranmanın şəraitini, bütün bunları araşdırır ki, hər hansı işgəncə olayına yol verməsin.

*Madd ə 12*

Konvensiyaya qoşulmuş hər bir dövlət yurisdiksiyasında olan istənilən bölgədə işgəncə verilməsi haqqında gümana tam əsas olanda elə edir ki, onun kompetentli orqanları tezliklə, tərəfkeşsiz bu olayla bağlı araşıdrma aparsın.

*Madd ə 13*

Konvensiyaya qoşulmuş hər bir dövlət kimsə bildirsə ki, bu dövlətin yurisdiksiyasında olan hansısa bölgədə işgəncə verilib, elə edir ki, bu şəxsin həmin dövlətin kompetentli hakimiyyət orqanlarına şikayət etmək hüququ olsun, elə edir ki, onun bu şikayətinə tezliklə, tərəfkeşsiz baxılmasına hüququ olsun. Ölçülər götürür ki, iddiaçını, şahidləri şikaytinə və hər hansı şahidliyinə görə onlara qarşı ola biləcək istənilən pis davranışdan, qorxutmalardan qorusun.

*Madd ə 14*

1. Konvensiyaya qoşulmuş hər bir dövlət elə edir ki, özündəki hüquq sistemində işgəncənin qurbanı əvəz alsın, eləcə də hüquq sanksiyası ilə möhkəmləndirilmiş hüququ olsun ki, ədalətli, uyğun kompensasiyanı alacaq. Bu kompensasiyanın içində onu tam təmizə çıxara biləcək vasitələr də durur. İşgəncələrin sonucunda onun qurbanı ölərsə, əvəzi almaq hüququ onun himayəsində yaşayan adama düşür.

2. Bu maddədə olanlardan heç nə qurbanların, başqa şəxslərin milli qanunvericilikdəki hər hansı əvəz almaq hüququna toxunmur.

*Madd ə 15*

Konvensiyaya qoşulmuş hər bir dövlət elə edir ki, işgəncə altında alınmış hər hansı bildiri heç bir məhkəmə araşdırmasında sübut kimi işləməsin. İstisna bir vəziyyətlə bağlıdır, bu bildiri işgəncəni vermiş adama qarşı sübut kimi işləyirsə ki, o bu bildirini alıb.

*Maddə 16*

1. Konvensiyaya qoşulmuş hər bir dövlət üstünə götürür ki, onun yurisdiksiyasmda olan istənilən bölgədə, maddə
1-dəki işgəncə anlayışı altına düş məyən başqa amansız, insana yaraşmaz, eləcə də ləyaqəti alçaldan cəza aktlarının da qarşısını alacaq, həm də bu zaman o aktlar gözə alınır ki, dövlət vəzifəliləri, ya da rəsmi sifətdə çıxış edən başqa şəxslər tərəfindən yerinə yetirilir, ya da onların yönəltməsi ilə, onların xəbəri olaraq, onların dinməz razılığı ilə yerinə yetirilir. Bütün bunlarla bağlı maddə 10, 11, 12, 13-dəki hallarda işləyir, bu zaman, sadəcə, onlardakı işgəncənin anılması başqa amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranışların, cəza növlərinin anılması ilə əvəz edilir.

2. Bu Konvensiyada qoyulanlar heç bir beynəlxalq bağlaşmada, ya da milli qanunvericilikdə olan işgənclərlə, amansız, insana yaraşmaz, ya da ləyaqəti alçaldan davranışla, cəza ilə bağlı yasaqlara dəymir. Eləcə də dəymir həmin bağlaşmalarda, qanunvericilikdə təhvil vermə, sürgün etmə ilə bağlı olanlara.

*(Konvensiyanın axırıncı, - 2-ci bölməsi bu Konvensiya əsasında yaradılmış Komitənin olma, çalışma prinsiplərindən danışır)*

**Qadınlarla bağlı ayrı-seçkiliyin bütün formalarının yox edilməsi haqqında Konvensiya**

*Baş Assambleyanın 1979-cu il, dekabrın 18-dəki 34)180-ci qərarı ilə qəbul olunub, qollanmaq, ratifikasiya edilmək, qoşulmaq üçün açıqdır*

GÜCƏ MİNİB: 3 Sentyabr 1981-ci il tarixli 27 (1)-ci maddəyə uyğun olaraq

**Bu Konvensiyaya qoşulmuş Dövlətlər**

*anaraq ki,* Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi insanın başlıca haqlarına, şəxsin ləyaqətinə və dəyərinə, kişilərlə qadınların bərabərliyinə inamı yenidən bildirib,

*anaraq ki,* Bütün Dünya üzrə insan haqlarının Bəyənnaməsi ayrı-seçkiliyi araya

buraxmamaq prinsipini doğrulayır, bunu anaraq təntənə ilə bildirir ki, bütün insanlar öz haqlarına, ləyaqətlərinə görə azad, bərabər doğulur, ona görə də hər kəsdə Bəyənnamədə səsləndirilmiş bütün haqlar, azadlıqlar olmalıdır, özü də bu zaman heç bir ayrılıq, eləcə də cinslərə qoyulan ayrılıqayrılıq olmamalıdır,

*anaraq ki,* insan haqları üzrə Beynəlxalq paktlara qoşulmuş dövlətlərin üstünə düşür elə etmək ki, iqtisadi, sosial, mədəni, siyasi hüquqlardan, eləcə də vətəndaş hüquqlarından kişi ilə qadınlar bərabər istifadə etsinlər,

*göz qabağında tutaraq ki,* Birləşmiş Millətlər Təşkilatının, eləcə də uyğun yönümlü qurumların himayəsi altında kişilərlə qadınların bərabərliyinə yardım üçün konvensiyalar var,

*həm də anaraq ki,* Birləşmiş Millətlər Təşkilatı, eləcə də uyğun yönümlü qurumlar kişilərlə qadınların bərabərliyinə yardım üçün qərarlar, bəyənnamələr, tövsiyyələr veriblər,

*o biri yandan qayğılanaraq ki,* ayrı-ayrı sənədlərin olmasına baxmayaraq, qadınlara qarşı dürlü, həm də çoxlu ayrı-seçkiliklər yenə özünü göstərir,

*andıraraq ki,* qadınlara qarşı ayrı-seçkilik bərabərlik prinsiplərini pozur, qadınların öz ölkələrində kişilərlə bərabər siyasi, sosial, iqtisadi, mədəni həyata qoşulmasına əngəl olur, qoymur ki, toplumun, ailənin bərəkəti artsın və beləcə qadınların öz ölkələri üçün, insanlıq üçün imkanları açılsın,

*qayğılanaraq ki,* yoxsulluq olanda qadınlara ərzaq, sağlamlıq qoruculuğu, təhsil, peşə hazırlığı, iş yeri, eləcə də başqa gərəkli olanlara az çatır,

*inanaraq ki,* bərabərlik, ədalət prinsiplərinə söykənən yeni beynəlxalq iqdisadi qaydaların qoyulması elə edəcək ki, kişilərlə qadınlar arasında bərabərliyin yer almasına xeyli yardım olacaq,

*vurğulayaraq ki,* kişi və qadınların haqlarının tam gerçəkləşməsi gərəkli edir ki, aparteid, irqçilik, irqi ayrı-seçkilik, bütün formalarda müstəmləkəçilik, yeni müstəmləkəçilik, təcavüz, yabançı güclərin ölkəni zəbt etməsi, ölkəyə xaqanlıq etməsi, dövlətlərin iç işlərinə qarışması yox edilsin,

*doğrulayaraq ki,* sosial irəliləyişə, gəlişməyə bunlar yardım edəcək: beynəlxalq barışın, təhlükəsizliyin möhkəmləndirilməsi, beynəlxalq gərginliyin azaldılması, dövlətlərin bulunduqları sosial, iqtisadi sistemdən asılı olmayaraq əməkdaşlığı, ciddi, effektli beynəlxalq nəzarət altında hamılıqca, tam yaraqsızlaşma, özəlliklə, nüvə yaraqsızlaşması, ölkələr arasında ədalət, bərabərlik, qarşılıqlı çıxarı prinsiplərinin gerçəkləşdirilməsi, yabançı, müstəmləkəçi hakimiyyət altında olan xalqların istədikləri kimi olmaq, müstəqilliyi əldə etmək hüqüqlarının oluşması, eləcə də milli suverenliyə, ərazi bütövlüyünə saygı göstərilməsi; doğrulayaraq ki, bütün bunlar sosial irəliləyişə, gəlişməyə yardım etməklə kişi və qadınların tam bərabərliyə çatmasına da təsirini göstərəcək,

*inanaraq ki,* ölkələrin tam gəlişməsi, bütün dünyanın firavanlığı, dünyada barışın olması kişilərlə yanaşı qadınların da bütün bölgələrdə işlərə qoşulmasını gərəksəyir,

*yadda saxlayaraq ki,* ailənin yaxşı yaşamasında, toplumun gəlişməsində qadınların önə mli payı var, yadda saxlayaraq ki, analığın, ata-ananın ailə, uşaqların tərbiyəsi üçün sosial önəmi hələ də tam tanınmayıb, *yadda saxlayaraq ki,* nəslin sürüb getməsində qadının rolu onun ayrı-seçkiliyə salınmasına səbəb olmamalıdır, ən azı ona görə ki, uşaqların tərbiyəsi kişi ilə qadının, eləcə də bütün toplumun birgə məsuliyyətidir,

*anaraq ki,* kişilərlə qadınları tam bərabərləşdirmək gərəkli edir ki, toplumda, ailədə kişilərin də, qadınların da ənənvi rolu dəyişsin,

*bütün bunları anaraq,* Konvensiyaya qoşulmuş dövlətlər Bəyənnamədə qadınların ayrı-seçkiliyə salınmasını yox etmək haqqında bildirilmiş prinsipləri dirənişlə gerçəkləşdirmə k düşüncəsindədirlər və bu məqsədlə də bütün formalarda, bilinmələrdə üzə çıxan ayrı-seçkiliyi aradan götürmək üçün ölçülərə əl atacaqlar və ona görə də bu Konvensiyaya qoşulmuş Dövlətlər aşağıda verilənlər üzrə razılığa gəlirlər:

**Bölmə ŞI**

*Madd ə 1*

Bu Konvensiyanın məqsədləri baxımından «qadınlarla bağlı ayrı-seçkilik» anlayışı aşağıdakıları bildirir: bildirir insan haqlarını, siyasi, iqtisadi, sosial, mədəni, vətəndaş sahələrində, ya da hər hansı başqa sahələrdə başlıca azadılıqları, ailə vəziyyətindən asılı olmadan, kişilərlə qadınların bərabərliyi şəraitində qadınların tanımasını, yerinə yetirməsini, onlardan istifadə etməsini zəiflətməyə, ya da heçə çevirməyə yönəlmiş hər hansı f ərqlənldirməni, istisnanı, ya da cinsə görə cızığa salmanı.

*Madd ə 2*

Konvensiyaya qoşulmuş dövlətlər bütün formalarda qadınlara qarşı ayrı- seçkilik salınmasını pisləyirlər, razılaşırlar ki, qadınlarla bağlı ayrı-seçkiliyi yox etmək üçün ertələmədən uyğun vasitələrlə siyasət aparcaqlar. Bu məqsədlə də üstlərinə aşağıdakıları götürürlər:

*a* əgər indiyənəcən bu edilməyibsə kişilərlə qadınların bərabərliyi prinsipini milli ana yasalarına, ya da hər hansı başqa uyğun qanunvericiliklərinə salacaqlar, qanunların, ya da başqa uyğun vasitələrin köməyi ilə elə edəcəklər ki, həmin prinsip

praktiki şəkildə gerçəkləşsin; b harada gərək varsa, qadınlarla bağlı hər hansı ayrı-seçkiliyi yasaqlayan qanunvericilik işini görəcəklər, eləcə də, başqa ölçülərə əl atacaqlar, hətta sanksiyalar da verəcəklər;
c kişilərlə bərabərlik əsasında qadınların haqlarının hüquqi qoruntusunu yaradacaqlar, elə edəcəklər ki, milli məhkəmələr, başqa dövlət qurumları qadınları hər hansı ayrı-seçkilik aktından effektli şəkildə qorusunlar; d qadınlarla bağlı hər hansı ayrı-seçkilik aktlarından, davranışlarından çəkinəcəklər, güvəniş verəcəklər ki, dövlət orqanları, qurumları da bu öhdəliklərə uyğun davranacaqlar;
e hər hansı adamın, qurumun, müəssisənin qadınlarla bağlı ayrı-seçkiliyini yox etmək üçün bütün gərəkli ölçülərə əl atacaqlar; f qadınlarla bağlı ayrı-seçkilik gətirən gücdə olan qanunları, qərarları, adətləri, praktikaları dəyişdirmək, ya da aradan götürmək üçün bütün gərəkli ölçülərə, eləcə də qanunvericilik işlərinə əl atacaqlar; qadınlarla bağlı ayrı-seçkiliyə gətirib çıxaran bütün müddəaları öz cinayət məcəllələrindən çıxaracaqlar.

*Madd ə 3*

Qadınların hər tərəfli inkişafını, tərəqqisini təmin etmək üçün Konvensiyaya qoşulmuş dövlətlər hər sahədə, eləcə də siyasi, sosial, iqtisadi, mədəni sahələrdə bütün gərəkli ölçülərə, - bu ölçülər arasında qanunvericilik ölçüləri də var, - əl atacaqlar ki, qadınların kişilərə bərabər olaraq insan haqlarından, başlıca azadlıqlardan istifaldə etməsinə, bu haqları, azadlıqları gerçəkləşdirməsinə güvənişlər versinlər.

*Maddi 4*

1. Konvensiyaya qoşulmuş dövlətlər kişilərlə qadınların gerçək bərabərliyə çatmasını yeyinləşdirmək üçün hələlik olaraq tezləşdirici ölçülərə, özəl ölçülərə əl atanda Konvensiya tandır ki, bütün bunlar ayrı-seçkilik sayılmır, hərçənd eyni zamnda həmin ölçələr heç cürə bərabər səviyyədə olmayan, fərqli standartların qalması ilə sonuclanmamalıdır: bu ölçülər bərabər imkanlar, bərabər ilişgilər məqsədinə çatılan kimi aradan götürülməlidir.
2. Konvensiyaya qoşulmuş dövlətlərin analığı qorumaq üzrə əl atdığı ölçülər, içində bu Konvensiyadakı meyarlar da olmaqla, ayrı-seçkilik salan ölçülər sayılmır.

*Madd ə 5*

Konvensiyaya qoşulmuş dövlətlər bütün gərəkli ölçüllərə bu məqsədlər üçün əl atır:

a) kişilərlə qadınların sosial, mədəni davranış modelini elə dəyişmək ki, bir cinsin əskikliyi, bir cinsin
o birisindən üstünlüyü ideyasına dayanan və ya kişilərlə qadınların stereotip

roluna söykənən köhnə inanışlar kökündən kəsilsin, adətlər aradan çıxsın;

b) elə olsun ki, ailə tərbiyəsi analığı düzgün olaraq sosial vəzifə kimi anlatsın, öz uşaqlarını tərbiyə edib gəlişdirməsində, - özü də bu zaman uşaqların maraqları həmişə üstün olmalıdır, - kişilərlə qadınların məsuliyyəti ortaq sayılsın.

*Madd ə 6*

Konvensiyaya qoşulmuş dövlətlər bütün gərəkli ölçülərə, eləcə də qanunvericilik ölçülərinə əl atırlar ki, bütün formalarda qadınlarla alverin, fahişəliyi istismarın qarşısı alınsın.

**Bölmə II**

*Madd ə 7*

Konvensiyaya qoşulmuş dövlətlər ölkənin siyasi, ictimai həyatında qadınlara qarşı ayrı-seçkiliyin yox edilməsi üçün

bütün ölçülərə əl atırlar, eləcə də qadınlara kişilərlə bərabər bu hüquqları verirlər:

a bütün seçkilərdə, camaat arasında keçirilən referendumlarda səs vermək, camaat qarşısında seçilən orqanlara seçilmək hüququ; b hökumətin siyasətinin hazırlanması işinə qoşulmaq, dövlət vəzifələrini tutmaq, eləcə də dövlət idarəçiliyinin bütün qatlarında dövlət funksiyalarını yerinə yetirmək hüququ;
ölkənin ictimai, siyasi həyatı üzrə çalışan hökumətdən qıraq qurumların, birliklərin işlərinə qoşulmaq hüququ.

*Madd ə 8*

Konvensiyaya qoşulmuş dövlətlər bütün ölçülərə əl atırlar ki, qadınların kişilərlə bərabər şəraitdə, heç bir ayrı-seçkilik olmadan hökuməti beynəlxalq qatda təmsil etmək imkanı olsun, qadınlar beynəlxalq qurumların işinə qoşula bilsinlər.

*Madd ə 9*

1. Konvensiyaya qoşulmuş dövlətlər vətəndaşlığı almaq, dəyişmək, saxlamaq işində qadınlara kişilərlə bərabər hüquq verirlər. Konvensiyaya qoşulmuş dövlətlər həm də elə edirlər ki, yabançıya ərə gedəndə bu, avtomatik olaraq qadının vətəndaşlığının dəyişməsi ilə və ya qadının vətəndaşlığını itirməsi ilə, ya da qadının ərinin vətəndaşlığını götürməyə məcbur olması ilə sonuclanmasın, Konvensiyaya

qoşulmuş dövlətlər elə edirlər ki, qadın ərdə olanda ərinin öz vətəndaşlığını dəyişdirməsi də avtomatik olaraq qadının vətəndaşlığını itirməsi ilə, ya da qadının ərinin vətəndaşlığını götürməyə məcbur olması ilə sonuclanmasın.

2. Konvensiyaya qoşulmuş dövlətlər uşaqların vətəndaşlığı məsələsində qadınlara kişilərlə bərabər hüquqlar verirlər.

**Bölmə III**

*Maddə 10*

Konvensiyaya qoşulmuş dövlətlər təhsil sahəsində qadınlara qarşı ayrı-seçkiliyi yox edib onlara kişilərlə bərabər hüquq vermək üçün bütün gərəkli ölçülərə əl atırlar, eləcə də kişilərlə qadınların bərabərliyi əsasında bu durumları yaradırlar:

a peşə, ixtisas seçənəyində bərabər orientir üçün, bütün kateqoriyalarda, eləcə də kənd, şəhər bölgələrinin ali məktəblərində təhsilə buraxılsınlar, diplom almaq üçün kişilərə, qadınlara eyni şərait verilsin; məktəbəqədərki, ümumi, xüsusi yönümlü və ali texniki təhsildə, eləcə də peşə hazırlığının bütün növlərində kişi və qadınlara bərabərlik verilsin; b öyrətmənin eyni proqramlarına, eyni imtahanlara, müəllimlər heyyətinin eyni səviyyəli tərkibinə, eyni məktəb otaqlarına, eyni çeşidli avadanlıqlara kişi və qadınların əli eyni bərabərlikdə çatsın;
c öyrətmənin bütün qatlarında, bütün formalarında kişilərlə qadınların rolları haqqında stereotip konsepsiyalar aradan götürülsün, bunun üçün birgə öyrədilmələr və tədrisin başqa növləri həvəsləndirilsin, eləcə də dərs vəsaitlərinə, məktəb proqramına yenidən baxılsın, öyrətmə metodu vəziyyətə uyğunlaşdırılsın, beləliklə, kişi və qadınların bərabərliyi məqsədinə çatmaq üçün yardımlar olsun;
d təhsil üzrə təqaüd və başqa yardımların alınmasında eyni imkanlar olsun; e təhsili davam etdirən proqramlara bərabər buraxılsınlar; bütün bunlara yaşlılar arasında savadı yayamaq üzrə proqram, funksional savad üzrə proqram da aiddir, bunlar hamısı kişilərlə qadınların bilikləri arasında hər hansı uzaqlığı azaltmağa yönələcək;
f məktəbi bitirməyən qızların sayı azaldılsın, vaxtından qabaq məktəbi atmış qız və qadınlar üçün proqram hazırlansın; g idman, fiziki hazırlıq üzrə məşğələlərdə aktiv iştirak etmək üçün eyni imkanlar verilsin;
biliklǝndirici özəl informasiyaya əlləri çatsın, məqsəd ailəyə sağlamlıq, yaxşı yaşayış verməkdir, bu informasiyaya ailənin sayınını planlaşdırılması üzrə məsləhtlər də aiddir.

*Madd ə 11*

1. Konvensiyaya qoşulmuş dövlətlər bütün gərəkli ölçülərə əl atırlar ki, məşğulluq

sahəsində qadınlara qarşı ayrı-seçkilik aradan götürülsün və beləliklə, kişilərlə qadınların bərabərliyi əsasında qadınlara bir çox hüquqlar, eləcə də bu hüquqlar verilsin:

a bütün insanların alınmaz haqqı olan işləmək hüququ; b işə götürüləndə bərabər imkanları olmaq hüququ, eləcə də işə götürülmək üçün seçiləndə bərabər ölçülərlə yanaşılma hüququ; c azad olaraq peşəni, ya da iş soyunu seçmək hüququ, vəzifədə irəliləmək, məşğulluq güvənişində (qarantında) olmaq hüququ, eləcə də bütün güzəştlərdən, iş şəraitlərindən istifadə etmək hüququ, eləcə də peşə hazırlığı, ya da peşəni dəyişdirmək üçün hazırlıq hüququ; bu axırıncıların içində şəyirdlik, səviyyəni yüksəltmək üçün peşə hazırlığı, vaxtaşırı başqa peşəyə hazırlaşmaq hüquqları da durur;
d bərabər mükafat almaq hüququ; bunun içində güzəşt almaq, bərabər dəyərli işə görə bərabər şəraitdə olmaq hüququ da, işin çeşidinin dəyərləndirilməsinə yanaşılarkən bərabər dəyər verilməsi hüquqları da durur; e sosial təminat almaq haqqı, məsələn, pensiyaya çıxanda, işsiz olanda, xəstələnəndə, şikəst olanda, qocalıqda və işləmək bacarığını itirməyin ayrı- ayrı hallarında sosial təminat almaq haqqı, eləcə də pullu ödənişi olan məzuniyyətə çıxmaq hüququ;
sağlamlığın qorunması, işin qorxusuz şəraitdə olması hüququ, eləcə də soyu davam etdirmək funksiyasının qorunma hüququ;
2. Ərdə olanda, analıq hallarında qadınlara qarşı yeridiləcək ayrı-seçkiliyi qabaqlamaq, qadınlara işləmək üçün effektli güvənişlər vermək məqsədi ilə Konvensiyaya qoşulmuş dövlətlər gərəkli ölçülərə əl atırlar ki,

a hamiləlik üstündə, ya da hamiləliyə, doğuma görə alınmış məzuniyyətdən qayıdanda işdən çıxarılmanı və ya ailə vəziyyətinə görə ayrı-seçkilik yeridilməsini sanksiyaların hədəsi ilə yasaqlasınlar; pulla ödənilən , ya da elə başqa məzuniyyətlər versinlər ki, öncəki iş yerini, tutduğu başçı mövqeyini, ya da başqa sosial yardımları itirmə mək şərti ilə hamiləliyə, doğuma c görə verilən sosial pul yardımlarına bərabər olsun; gərəkli əlavə sosial xidmətləri həvəsləndirsinlər ki, ata-ananın ailə öhdəliklərini işlə, toplumun həyatına qoşulmaqla bir araya sığışdırmaq imkanları olsun (belə bir həvəsləndirmə, məsələn, uşaqlara baxan qurumları d yaratmaq, genişləndirmək vasitəsi ilə edilsin); qadınların sağlamlığına ziyanı danılmaz olan iş növlərində hamiləlik zamanı qadınlar ayrıca olaraq qorunsunlar.
3
Bu maddədə sözü gedən haqlarla bağlı qanunvericilik vaxtaşırı elmi-texniki biliklər işığında gözdən keçirilir, eləcə də nə qədər gərəkdirsə, o qədər də yenidən gözdən keçirilir, aradan götürülür, ya da dəyişdirilir.

*Madd ə 12* **1**
Konvensiyaya qoşulmuş dövlətlər bütün gərəkli ölçülərə əl atırlar ki, sağlamlıq sahəsində qadınlara qarşı
ayrı-seçkiliyi yox etsinlər və beləliklə, kişilərlə qadınların bərabərliyi əsasında qadınların tibbi xidmətə əlləri çatsın, bu deyilənə ailənin sayını planlaşdırmaq da

aiddir.

2. Bu maddənin 1-ci bəndindən asılı olmayaraq Konvensiyaya qoşulmuş dövlətlər hamiləlik, doğum, doğumdan sonrakı vaxtlarda qadınları uyğun qulluqlarla təmin edirlər, özü də gərək olanda bu qulluqları pulsuz edirlər, həm də hamiləlik, uşağı əmizdirmə vaxtlarında uyğun qidanı pulsuz verirlər.

*Maddi 13*

Konvensiyaya qoşulmuş dövlətlər iqtisadi, sosial həyatın başqa sahələrində qadınlara qarşı ayrı-seçkiliyi aradan qaldırmaq üçün bütün ölçülərə əl atırlar ki, kişilərlə qadınların bərabərliyi əsasında qadınlara bərabər hüquqlar versinlər, həmin hüquqlar arasında, məsələn, bunlar durur: a
b ailə üçün pullu yardıma hüquq;
c istiqraz, daşınmaz əmlak əsaında faizli ödənc almaq və başqa maliyyə kreditləri almaq hüququ;
dincəlmədə, idman məşqlərində olmaq, mədəni həyatın bütün sahələri ilə bağlı başqa məşğələlərə qoşulmaq hüququ.

*Madd ə 14*

1. Konvensiyaya qoşulmuş dövlətlər kənd yerlərində yaşayan qadınların toqquşduğu özəl problemləri, ailənin iqtisadi rifahını qaldırmaq işində böyük rolunu, onların təsərrüfatın ə mtəəsiz sahələrində çalışmalarını anaraq bütün gərəkli ölçülərə əl atırlar ki, kənd yerlərində yaşayan qadınlarla bağlı bu Konvensiyanın bütün qoyduqları işləsin.

2. Konvensiyaya qoşulmuş dövlətlər kənd yerlərində qadına qarşı ayrı- seçkiliyin yox edilməsi üçün bütün ölçüləri götürürlər ki, kişilərlə qadınların bərabərliyi əsasında qadınlar kənd rayonlarının gəlişməsində iştirak etsinlər, bu gəlişmədən xeyir görsünlər və bu məqsədlə də onlara, məsələn, bu hüquqları verirlər:

a bütün qatlarda gəlişmə planlarının hazırlanmasına qoşulsunlar; b uyğun sağlamlıq xidmətinə əlləri çatsın, buna ailənin sayını planlaşdırmaqla bağlı informasiya, məsləhət xidməti də aiddir. c sosial sığortanın yaxşılıqlarından birbaşa istifadə etsinlər; d hazırlığın, formal və formal olmayan təhsilin bütün növlərinə əlləri çatsın; bütün bunların içində funksional savad almaq, icma xidmətlərinin, kənd təsərrüfatı məsələləri üzrə (tutalım, texniki səviyyəni qaldırmaq üzrə) məsləhət xidmətlərinin bütün vasitələrindən istifadə etmək də durur; özünəyardım qrupları, kooperativlər qursunlar ki, muzdla işə götürülmək, ya da asılısız işləmək yolu ilə f iqtisadi imkanlara bərabər olaraq əlləri çatsın; g kollektiv çalışmanın bütün növlərinə qoşulsunlar;
h kənd təsərrüfatı kreditləri, istiqrazlar, xırıd etmək sistemi, uyğun texnologiya ilə

bağlı, eləcə də aqrar islahatda, torpaq islahatında və yerləri daha çox məskunlaşdırmaq planlarında bərabər statusda olsunlar; həyatın gərəkli şəraitlərindən, özəlliklə, mənzil şəraitindən, sanitar xidmətlərindən, elektrik-su təchizatından, eləcə də nəqliyyat və əlaqə vasitələrindən istifadə etsinlər.

**Bölmə IV**

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

*Madd ə 15*

1. Konvensiyaya qoşulmuş dövlətlər qanun qarşısında qadınların kişilərlə bərabəliyini tanıyırlar.

2. Konvensiyaya qoşulmuş dövlətlər qadınlara kişilərlə bərabər vətəndaş hüquq bacarıqlarını, bundan istifadə üçün bərabər imkanları verirlər. Həmin ölkələr qadınlara, məsələn, bağlaşmalar yapanda, əmlakı idarə edəndə bərabər hüquqlar verirlər, eləcə də məhkə mə işlərinin, tribunalların bütün pillələrində onlara bərabər yanaşırlar.

3. Konvensiyaya qoşulmuş dövlətlər razılaşırlar ki, hüquqi sonucu qadınların hüquq imkanlarını cızığa salmaqla bitən bütün bağlaşmalar, bütün növlərdən olan ayrıca sənədlər, artıq, gerçək sayılmamalıdır.

4. Konvensiyaya qoşulmuş dövlətlər qanunvericilikdə adamların yer dəyişməsi ilə bağlı, qalmaq yerini, yaşayış yerini seçmək azadılığı ilə bağlı kişi və qadınlara bərabər hüquqlar verirlər.

*Maddə 16*

1. Konvensiyaya qoşulmuş dövlətlər qadınlarla bağlı evlənmə, ailə məsələllərinin hər hansı birində yer alan ayrı-seçkiliyi yox etmək üçün bütün gərəkli ölçüləri götürürlər, eləcə də kişilərlə qadınların bərabərliyi əsasında bu hüquqları verirlər:

a evlənməyə bərabər hüquqlar;
b evlənmədə o biri tərəfi seçməyə bərabər hüquqlar, azad seçənək, tam razı olanda evliliyə girmək hüququ;
c evlənmə zamanı, evlənmə pozulanda eyni hüquqlar, eyni öhdəliklər; d uşaqlarla bağlı məsələlərdə kişilərlə qadınların ailədəki vəziyyətlərindən asılı olmayaraq ata-ana kimi eyni hüquqları (özü də bu zaman uşaqların maraqları üstün tutulur); e uşaqların sayını, uşaqların doğuşu arasında vaxtın nə qədər çəkməsini azad və məsuliyyətlə seçəndə eyni hüquqlar, eləcə də informasiyaya, təhsilə, bir də bu hüquqları gerçəkləşdirməyə imkan verən vasitələrə eyni hüquqlar; f uşaqların qəyyumu, havadarı, inanılmış adamı olmaqda, uşağı oğulluğa götürməkdə bərabər hüquqlar və ya milli qanunvericiliyin yol verdiyi oxşar funksiyaları yerinə yetirməkdə bərabər hüquqlar (bütün bu hallarda uşaqların maraqları üstün tutulur);
g ərlə arvadın şəxsi hüquqlarının bərabərliyi, məsələn, soyadını, peşəni, məşğuliyyəti seçməkdə şəxsi hüquqların bərabərliyi; mülkiyyətin yiyəsi olmaq, onu əldə etmək, pulla ya pulsuz onu idarə etmək, onunla davranmaq məsələlərində ərlə arvadın eyni hüquqları;
2. Ərsəyə çatmamış uşağın nişanlandırılmasının, evləndirilməsinin hüquqi gücü yoxdur, bütün gərəkli ölçülərə, eləcə də qanunvericilik ölçülərinə əl atılır ki,

evlənmə üçün minimal yaş həddi tapılsın, həm də evlənmə mütləq vətəndaş durumu aktlarında yazıya alınsın.

## Bölmə V

*Maddə 17*

Bu Konvensiyanın gerçəkləşdirilməsinə göz qoymaq üçün qadınlara qarşı ayrı-seçkiliyi aradan götürmək üzrə Komitə (indən sonra «Komitə» yazılacaq) qurulur. Komitə Konvensiyanın gücə mindiyi anda on səkkiz, Konvensiyanın ratifikasiyasından, ya da ona otuz beşinci dövlətin qoşulmasından sonra iyirmi üç eksperti özünə qatacaq. Bu ekspertlər yüksək əxlaqi admlar olmaqla yanaşı, Konvensiyanın çevrələdiyi sahə üzrə yüksək səriştədə olacaqlar. Ekspertləri Konvensiyaya qoşulmuş dövlətlər vətəndaşları arasından seçirlər, ancaq onlar şəxsi sifətdə çıxış edirlər, bu zaman ədalətli coğrafi paylanma, ayrı-ayrı sivilizasiyaların, eləcə də başlıca hüquq sistemlərinin tə msil olunması gözə alınır.

2. Komitənin üzvləri Konvensiyaya qoşulmuş dövlətlərin siyahıya saldığı adamların arasından gizli səsvermə ilə seçilirlər. Konvensiyaya qoşulmuş hər dövlət öz vətəndaşlarından yalnız bir nəfəri irəli sürə bilər.

3. İlk seçkilər bu Konvensiya gücə minəndən altı ay sonra keçirilir. Hər keçiriləcək seçkidən ən azı üç ay qabaq Birləşmiş Millətlər Təşkilatının Baş katibi Konvensiyaya qoşulmuş dövlətlərə məktub göndərir, bu məktubda iki ay içində onların öz nümayəndələrini verməsi istənilir. Baş katib bu yolla irəli sürülmüş nümayəndələrin əlifba sırasında siyahısını hazırlayır, burada nüməyəndələrin hər birinin yanında onu irəli sürən Konvensiyaya qoşulmuş dövlətin adı yazılır. Sonra siyahını Konvensiyaya qoşulmuş dövlətlərə verir.

4. Komitəyə üzvlərin seçilməsi Konvensiyaya qoşulmuş dövlətlərin yığıncağında aparılır. Bu yığıncağı Baş katib Birləşmiş Millətlər Təşkilatının mərkəzi idarələrində çağırır. Həmin yığıncaqlarda Konvensiyaya qoşulmuş dövlətlərin üçdə ikisinin olması yetərsaya bəs edir, özü də bu toplantılarda ən çox səs almış nümayəndələr, - Konvensiyaya qoşulmuş dövlətlərin səsvermədə bulunub iştirak edən təmsilçilərinin mütləq səs çoxluğunu almış nümayəndələr, - Komitəyə seçilmiş sayılırlar.

5. Komitəyə üzvlər dördillik seçilir. Ancaq birinci seçkilərdə seçilmiş doqquz üzvün vaxtı iki ildən sonra bitir; ilk seçki keçirilən kimi bu doqquz nəfərin soyadını Komitənin başqanı püşk ilə tapır.

6.  Komitəyə əlavə olaraq beş nəfərin seçilməsi Konvensiya ratifikasiya olandan, ya da ona otuz beşinci dövlət qoşulandan sonra 2, 3, 4-cü bəndlərinə uyğun olaraq aparılır. Bu yolla seçilmiş iki əlavə üzvün vaxtı iki il keçəndə bitir; bu iki nəfərin soyadını Komitənin başqanı püşk ilə tapır.

7.  Konvensiyaya qoşulmuş dövlətin eksperti Komitənin üzvü kimi daha iş başında ola bilməyəndə gözlənməz olaraq boşalmış yerlərin tutulması üçün həmin dövlət öz vətəndaşlarının arasından Komitənin bəyəndiyi başqa eksperti verir.

8.  Birləşmiş Millətlər Təşkilatının vəsaitlərindən Baş Assambleya, qoyduğu qaydalar, şərtlər çərçivəsində, Komitənin öhdəliklərinin önəmini nəzərə alaraq Komitənin üzvlərini mükafatlandırır.

9.  Bu Konvensiyaya uyğun olaraq Komitənin öz funksiyalarını effektiv yerinə yetirməsi üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibi gərəkli personalı, bir də maddi vəsaitləri verir.

*Madd ə 18*

1. Konvensiyaya qoşulmuş dövlətlər üstlərinə götürürlər ki, bu Konvensiyanın buyurduqlarını yerinə yetirmək uğrunda əl atdıqları qanunvericilik, məhkəmə ölçüləri, eləcə də adminstrativ və başqa ölçülər haqqında, bir də bu yönümdə əldə edilmiş irəliləyişlər haqqında məruzələri Komitədə baxılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə aşağıdakı qaydalarda verəcəklər:

a bu Konvensiya gücə minən gündən keçən bir ildə maraqlı olan dövlət üçün verəcəklər;
sonra ən azı dörd ildə bir dəfə, eləcə də Komitə bu haqda sorğu göndərəndə verəcəklər;

2. Məruzələrdə Konvensiyanı hansı dərəcədəsə yerinə yetirmək işində qarşıya çıxan amilləri, çətinlikləri də göstərmək olar.

*Madd ə 19*

1.  Komitə özünün prosedur qaydalarını qoyur.

2.  Komitə iki il üçün özünün vəzifəli adamlarını seçir.

1.  Komitə hər il yığıncaqlarını keçirir, bir qayda olaraq yığıncaqlar iki həftədən çox çəkmir. Bu yığıncaqların məqsədi Konvensiyanın 18-ci maddəsinə uyğun

olaraq verilmiş məruzələrə baxmaq olur.

*Madd ə 24*

2. Komitənin yığıncağı bir qayda olaraq ya Birləşmiş Millətlər Təşkilat ının mərkəzi idarələrində, ya da Komitənin uyğun saydığı hər hansı başqa yerdə keçirilir.

*Madd ə 21*

1. Komitə hər il ya İqtisadi, ya Sosial Şura vasitəsi ilə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə öz işləri haqqında məruzələr verir. Bundan başqa Komitə Konvensiyaya qoşulmuş dövlətlərdən aldığı məruzələri, informasiyaları öyrənmək əsasında ümumi xarakterli təkliflər, məsləhətlər də ortaya çıxara bilər. Belə ümumi xarakterli təkliflər, məsləhətlər Komitənin məruzələrinə salınır. Burada bir də Konvensiyaya qoşulmuş dövlətlərin iradları verilir, əgər belə iradlar varsa.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi bilgiləndirmə işi üçün Komitənin məruzələrini qadınların durumu ilə bağlı olan Komissiyaya ötürür.

*Madd ə 22*

Uyğun yönümlü qurumların hüququ var ki, Konvensiyanın hər hansı buyuruğunun yerinə yetirilməsinə baxılanda, əgər bu buyuruq onların çalışma çevrəsinə düşürsə, baxılmada təmsil olunsunlar. Komitə həmin qurumlara təklif edə bilər ki, onların məşğul olduğu çevrəyə düşən bölgələrdə Konvensiyanın necə yerinə yetirilməsi haqqında məruzə versinlər.

**Bölmə VI**

*Madd ə 23*

Bu Konvensiyada heç nə kişilərlə qadınlar arasında bərabərliyə çatmağa yardım edən hər hansı hala dəymir. Həmin hallar isə ya:

a) Konvensiyaya qoşulmuş dövlətin qanunvericiliyində; b ya da hə min dövlətlər üçün gücü olan başqa millətlərarası konvensiyalarda, bağlaşmalarda, anlaşmalarda olur.

*Madd ə 20*

Konvensiyaya qoşulmuş dövlətlər üstlərinə götürürlər ki, Konvensiyada bildirilmiş hüquqların tam gerçəkləşməsi üçün milli qatda bütün gərəkli ölçülərə əl atacaqlar.

*Madd ə 25.*

1. Bu Konvensiya bütün dövlətlərin onu qollaması üçün açıqdır.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Konvensiyanın depozitarisi (sənədin əslini saxalayan) qoyulur.

3. Bu Konvensiya ratifikasiya olunmalıdır. Ratifikasiya şəhadətnamələri saxlanmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə verilir.

4. Bu Konvensiya qoşulmaq üçün bütün dövlətlərə açıqdır. Qoşulmaqdan ötrü saxlanmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə qoşulmaq haqqında sənəd verilməlidir.

*Maddə 26*

1. Konvensiyaya yenidən baxmaq xahişini yazılı olaraq ona qoşulmuş dövlətin hər biri istənilən vaxt verə bilər. Bu yazılı xahiş Birləşmiş Millətlər Təşkilatının Baş katibinin adına olmalıdır.

2. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası bu xahişlə bağlı hər hansı ölçünü götürmək düşüncəsinə düşərsə, hansı ölçünü götürməyin gərək olduğu haqqında öz qərarını çıxarır.

*Maddə 27*

1. Birləşmiş Millətlər Təşkilatının Baş katibinə iyirmi ratifikasiya şəhadətnaməsi, ya da qoşulmaq haqqında sənəd veriləndən sonrakı otuzuncu gün Konvensiya gücə minir.

2. Hər hansı dövlət, saxlanmağa iyirmi ratifikasiya şəhadətnaməsi, ya da qoşulmaq sənədi təhvil verəndən sonra bu Konvensiyanı ratifikasiya edirsə, ya da ona qoşulursa, saxlamaqdan ötrü ratifikasiya şahadətnaməsini, ya da qoşulmaq haqda sənədi verəndən sonrakı otuzuncu gündə bu Konvensiya onun üçün də gücə minir.

*Madd ə 28*

1. Birləşmiş Millətlər Təşkilatının Baş katibi ratifikasiya, qoşulma anında dövlətlərin verdiyi «qeyd-şərtlər» haqqında teksti alıb bütün dövlətlərə göndərir.

2. Bu Konvensiyanın məqsədləri, vəzifələri ilə bir araya sığmayan «qeyd-şərtlər» qəbul edilmir.

3. «Qeyd şərtlər»i istnilən vaxt geri götürmək olar, bunun üçün Baş katibə uyğun xəbəri yönəltmək gərək, - bu xəbər alındığı gündən gücə minir, - o isə sonra bu haqda Konvensiyaya qoşulmuş bütün dövlətlərə soraq göndərir.

*Madd ə 29*

1. Bu Konvensiyanın yozulması və yerinə yetirilməsi haqqında Konvensiyaya qoşulmuş iki və ya bir neçə dövlət arasında mübahisə düşərsə, həm də mübahisə danışıqlarla çözülməzsə, o zaman tərəflərin birinin xahişi ilə məsələ incələnmək üçün Arbitraj məhkəməsinə verilir. Arbitraj incələnməsi haqqında ərizə verilən andan keçən altı ay içində tərəflər arbitraj məhkəməsinin necə qurulması haqqında anlaşmaya gəlməzsə, onların arasından istənilən tərəf bu mübahisəni Beynəlxalq Məhkəməyə verə bilər. Bunun üçün Məhkəmənin Statutuna uyğun ərizə verilməlidir.

2. Bu Konvensiyanı ratifikasiya edəndə, ona qoşulanda hər hansı dövlət bildiri verə bilər ki, bu maddənin 1-ci bəndində verilmiş öhdəliklərlə özünü bağlanmış saymır. Konvensiyaya qoşulmuş dövlət beləcə «qeyd-şərtini» verərərək Konvensiyaya qoşulan başqa dövlətlər qarşısında həmin bənddən doğan öhdəlikləri daşımır.

3. Bu maddənin 2-ci bəndinə uyğun olaraq «qeyd-şərtləri» bildirməklə Konvensiyaya qoşulmuş hər hansı dövlət istənilən vaxt öz «qeyd-şərtlərini» geri götürə bilər. Bunun üçün Birləşmiş Millətlər təşkilatının Baş katibinə uyğun xəbəri yönəltmək gərək.

*Madd ə 30*

Mətnləri rusca, ingiliscə, ərəbcə, ispanca, çincə, fransızca olan bu Konvensiya mətnlərin hamısında autentikdir (eynidir) və Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanmaq üçün verilir.

DOĞRULAMAQ ÜÇÜN aşğıda qol çəkənlər buna ixtiyarları olduğuna görə Konvensiyanı qollayıblar.

## Əlavələr

**İnsan haqlarını və mətbuat azadlığını qorumaq üçün hansı beynəlxalq hökumətdənqıraq qurumlara üz tutmaq olar**

**Amnesty International**

1 Easton Street. London WCIX 8DJ, United Kingdom tel: (44) 171 413 55 00; fax: (44) 171 956 11 57

**International Federation of Human Rights Leagues**

14 passage de la Main dOr, 750 11 Paris, France tel: (33) 1 43 55 25 18; fax: (33) 1 43 55 18 80

**Human Rights Watch**

485 Fifth Avenue, New York NY 10017, United States
tel: (1) 212 972 84 00; fax: (1) 212 972 09 05

**International Non-Government Organizations Specializing in Freedom of Expression and Press Freedom**

Lancaster House, 33 Islington High Street, London N1 9LH United Kingdom tel: (44) 171 278 92 92; fax: (44) 171 713 13 56

**Committee to Protect Journalists**

330 Seventh Avenue, 12th floor, New York NY 1001, United States tel: (1) 212 465 10 04; fax: (1) 212 465 95 68

**Index on Censorship**

Lancaster House, 33 Islington High Street, London N1 9LH United Kingdom tel: (44) 171 278 23 13; fax: (44) 171 278 18 78

**International Federation of Journalists**

Rue Royale 266, B-1210 Brussels, Belgium tel: (32) 2 223 22 65; fax: (32) 2 219 29 76

**International Federation of Newspaper Publishers**
(World Association of Newspapers)

25 ru dAstorg, 75008 Paris, France
tel: (33) 1 47 42 85 00; fax (33) 1 47 42 49 48

**International Pen**

9-10 Charterhouse Buildings Goswell Road, London ECIM 7AT, United Kingdom tel: (44) 171 253 43 08; fax: (44) 171 253 57 11

**International Press Institute**

Spiegelgasse 2-29, A-1010, Vienna, Austria tel:
(43) 222 512 90 11; fax: (43) 222 512 90 14

**Reporters Sans Frontieres**

5 rue Geoffroy Marie, 75009 Paris, France tel:
(33) 1 44 83 84 84; fax: (33) 1 45 23 11 51

**World Press Freedom Committee**

11960-C Sunrise Valley Drive, Reston VA 20191, United States
tel: (1) 703 715 98 11; fax: (1) 703 620 67 90

**United Nations Office for Liaison with NGOs**

Palais des Nations, 8-14 avenue de la Paix, CH-1211 Geneva 10, Switzerland tel:
(41) 22 917 42 11; fax: (41) 22 917 00 01

**Human Rights Internet**

8 York Street , Suite 202, Ottawa, Ontario KIN 6N5, Canada tel: (1) 613 789 74 07;
fax: (1) 613 789 74 14

**International Service for Human Rights**

1 rue de Varembe, PO Box 16, CH-1211 Geneva, Switzerland tel: (41) 22 733 51 23;
fax: (41) 22 733 08 26

**insan haqlarını və mətbuat azadlığını qorumaq üçün hansı hökumətdənqıraq Azərbaycan qurumlarına üz tutmaq olar**

**Azərbaycan Haqqoruma Mərkəzi**

Bakı, Bəşir Səfəroğlu küç. 150-9 tel)faks: 947550

**Azərbaycan Qadın Hüquqları Müdafiə Mərkəzi**

Bakı, İncəsənət küç.1 tel: 921483

**Helsinki Vətəndaş Assamleyasının Azərbaycan Komitəsi**

Bakı, 28 May, 3 tel: 938148

**Beynəlxalq Amnistiyanın Azərbaycan Təşəbbüs Qrupu**

Bakı, Bəşir Səfəroğlu küç. 150-9 tel)faks: 947550

**Azərbaycan Jurnalistlərinin işçi Birliyi**

Bakı, Ə. Əbdürrəhimov küç. 132)26 tel)faks: 643685

**Azərbaycan Demokratiya və İnsan Haqları Komitəsi**

Bakı, Azərbaycan prosp. 37)203 tel)faks: 983571

**Demokratik Seçkilərə Yardım Mərkəzi**

Bakı, Əlövsət Quliyev küç. 120 tel)faks: 945302

**Sülh və Demokratiya İnstitutu**

Bakı, Rəsul Rza küç. 9 tel)faks: 983173

«Yeni Nəsil» Azərbaycan Jurnalistlər Birliyi
Bakı, R. Behbudov, 10
Tel.:984518

«Ruh» Azərbaycan Jurnalistlərin Müdafiə Komitəsi Bakı,
Bül-bül, 20.
Tel.:
«Qanun» Jurnalının redaksiyası
Bakı, Nətavan meydanı, 1 Tel.:
980972 Faks: 989174

«Seçki 98» Repressiyalardan Müdafiə Komitəsi
Tel.: 6662481

Səəhmdarların və Payçıların Hüquqlarının Müdafiəsinə Yardım Mərkəzi
Bakı, A. Babayev döngəsi, 5 Tel)faks: 929725